Xalqın qəzeti!

# Xalq qəzeti

№ 128 (30532) 22 iyun 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Növbədənkənar parlament seçkilərinin təyin olunması üçün Prezidentə müraciət edildi**



Səhifə ⇨ 3

## Azərbaycan biomüxtəlifliyi həssaslıqla himayə edir



Səhifə ⇨ 2

## “Azərkosmos” 10 ildə ölkəyə 590 milyon manat qazandırıb




Səhifə ⇨ 7

## ABŞ COP29-un uğur qazanmasına dəstəyini əsirgəməyəcək



**İyunun 20-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Antoni Blinken Ermənistan və Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi baxımından əldə olunmuş nəticələri təqdir edərək ABŞ-ın iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesinə dəstəyini davam etdirməyə əzmli olduğunu vurğulayıb və tərəfləri tezliklə sülh müqaviləsini imzalamağa dəvət edib. Dövlət katibi ABŞ-ın Azərbaycan ilə ikitərəfli əlaqələrə verdiyi əhəmiyyəti qeyd edərək iqlim dəyişikliyi və enerji sahəsində birgə məqsədlərə nail olmaq yolunda ölkələrimiz arasındakı konstruktiv əməkdaşlığı vurğulayıb. Antoni Blinken ölkəsinin Azərbaycan ilə yenilənmiş və daha möhkəm ikitərəfli əlaqələri dəstəklədiyini deyib. Onu da əlavə edib ki, ABŞ Azərbaycanda keçiriləcək COP29-un uğurla nəticələnməsi üçün səylərini əsirgəməyəcək.

Prezident İlham Əliyev regionda sülhün təmin edildiyini, sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərin və onun mətninin təşəbbüskarının Azərbaycan tərəfi olduğunu qeyd edərək ikitərəfli əsasda normallaşma prosesi və sülh gündəliyinin irəli aparılması səylərinin davam etdirildiyini vurğulayıb. ABŞ-ın sülh gündəliyinə töhfə vermək əzmini yüksək qiymətləndirən dövlətimizin başçısı Ermənistanda konstitusiya, müvafiq qanunlar və ölkədaxili normativ-hüquqi aktlar əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının sülh gündəliyinin irəli aparılması baxımından vacibliyini qeyd edib.

Prezident İlham Əliyev artıq keçmişin qalığı olan münaqişə səhifəsinin tamamilə bağlanması üçün qeyri-funksional olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün institutların fəaliyyətinə rəsmən xitam verilməsinin vaxtının çoxdan yetişdiyini əlavə edib.

Prezident İlham Əliyev enerji sahəsində ölkələrimiz arasında çoxillik uğurlu əməkdaşlığa toxunub, iqlim dəyişikliyi və COP29-a hazırlıq prosesi çərçivəsində ölkələrimizin nümayəndə heyətləri arasında səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib və COP29-un uğurla nəticələnməsi üçün ABŞ-ın dəstək niyyətinə görə təşəkkür edib. Dövlətimizin başçısı Azərbaycanın da ABŞ ilə əlaqələrə əhəmiyyət verdiyini və ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi və keyfiyyətcə yeni səviyyəyə qaldırılmasını dəstəklədiyini bildirib.

Telefon danışığı əsnasında ölkələrimiz arasında ali səviyyədə məktub mübadilələri, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərindən məmnunluq ifadə edilib, həmçinin insan hüquqları və demokratiya, ölkələrin daxili qanunlarının aliliyinə hörmət kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” hərəkatına dəstək təntənəsi



Səhifə ⇨ 9

## Ağ ev “valı” dəyişməkmi istəyir?



Səhifə ⇨ 5

## “Baqratiada” elegiyası...



Səhifə ⇨ 4

## YAP-ın təşəbbüsü – reallığa adekvat reaksiya əzmi

### *Növbədənkənar parlament seçkilərini zəruri edən məqamlar*




**Yeni Azərbaycan Partiyasını (YAP) Milli Məclisdə təmsil edən deputatların altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Prezidentinə müraciət olunmasına dair təşəbbüsləri son dərəcə vacibdir, günün tələbləri ilə səsləşir. Məsələni bir neçə cəhətdən əsaslandırmaq mümkündür.**

**Birinci məqam.** Ümumən, növbədənkənar seçki praktikası özünü doğruldur. Nəzərə alaq ki, 2024-cü ilin fevralında reallaşmış prezident seçkilərini və YAP-ın hazırkı təşəbbüsünü eyni prizmadan qiymətləndirmək üçün əsaslar var. Əvvəla, Azərbaycan üçün tamamilə yeni dövrə start verilib. Bu dövrü şərtləndirən iki amil var: 2020-ci ilin 44 günlük müharibəsi və 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri. Hər iki hadisə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və konstitusyon quruluşunun tam bərpası reallığını formalaşdırıb.

Deməli, mövcud şəraitdə növbədənkənar prezident seçkiləri keçirildiyi kimi, parlament seçkilərinin də vaxtından əvvəl təşkilinə ehtiyac var. Çünki yeni dövrün tələblərinə adekvat fəaliyyətin gerçəkləşdirilməsi labüddür. Bunun həm də mənəvi tərəfi aktualdır. Məsələ ondadır ki, müstəqillik dövründə ilk dəfə olaraq Qarabağ və Şərqi Zəngəzuru təmsil edən deputatlar məhz həmin ərazilərdə keçiriləcək seçkilərin nəticəsinə uyğun olaraq mandat alacaqlar.

**İkinci məqam.** Bəzi problemlər qalsa da, bu gün yaşadığımız Cənubi Qafqaz regionunda humanizm dəyərlərini rəhbər tutan etimad quruculuğu tədbirlərinin reallaşdırılmasına şahidik. Söhbət Azərbaycan–Ermənistan sülh gündəliyindən gedir. Belə bir gündəliyin meydana çıxması nəinki Azərbaycanın, ümumən, bölgənin son iki yüz illik tarixində görünməmiş haldır. Kifayət qədər mürəkkəb regionda sülhün ayaq səslərinin eşidilməsi ona, belə demək mümkünsə, parlamentar reaksiyanı da qaçılmaza çevirir. Bu reaksiya tam zamanında olmalı, optimal və çevik mahiyyət daşımalıdır.

**Üçüncü məqam.** Etiraf edək ki, mürəkkəb inkişaf yolu keçmiş Qafqazda heç vaxt regionun lokomotivi ola bilməmişdik. Hazırda durum tam fərqlidir. Necə deyərlər, bütün daşlar öz yerinə oturub. Bu gün Azərbaycan tarixinin ən güclü dövrünü yaşayır. Bu, ulu öndər Heydər Əliyevin başlatdığı siyasi kursun Prezident İlham Əliyev tərəfindən məharətli şəkildə reallaşdırılması sayəsində olub. Ölkəmiz dövlətimizin başçısının qətiyyəti, siyasi iradəsi ilə işğala, təcavüzə, separatizmə son qoyub. Bu əzm, eyni zamanda, Azərbaycanın rəngli inqilablar və ərəb baharı kimi ənənəvi dağıdıcı ssenarilərdən etibarlı müdafiəsidir. Belə bir müdafiə öz növbəsində bütövlükdə Qafqaz regionunu yad ünsürlərin təsirindən sığortalayır. Deməli, bundan sonra elə fəaliyyət göstərilməlidir ki, Heydər Əliyevin formalaşdırdığı yeni siyasi münasibətlər sistemindəki axarın tarixi Zəfərimizdən doğan reallıqlarla zənginləşməsindəki müsbət tendensiya xalqımızın və dövlətimizin maraq və mənafelərinin daim zirvələrdə qalması baxımından daha tutarlı səciyyə daşısın. Bu, inkişafımızın qlobal məzmununu təhdid edən meyillərin tamamilə öz təsirini itirməsi baxımından da əhəmiyyətlidir. Mövcud fəaliyyət trayektoriyası üçün isə parlamentarizm ənənələrinin də möhkəm təbiətinin saxlanılması şərtdir. Nəzərə alaq ki, hər anın öz hökmü var.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycan biomüxtəlifliyi həssaslıqla himayə edir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Botanika İnstitutunun yeni binasının açılışında iştirak edib və Nəbatat Bağında görülən işlərlə tanış olublar





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Botanika İnstitutunun yeni inşa olunmuş binasının açılışında iştirak edib və Nəbatat Bağında görülən işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verdi.

Bildirilib ki, 45 hektardan artıq ərazini əhatə edən bağda 247 növ ağac və 162 növ kol bitkisi qorunur. Yenidənqurma zamanı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun 1935-1938-ci illərdə inşa edilən inzibati binası qəzalı vəziyyətdə olduğu üçün burada yeni bina tikilib. Beş mərtəbədən ibarət olan yeni binanın ümumi sahəsi 3700 kvadratmetrdir. Binanın birinci mərtəbəsi laboratoriya sektorlarından ibarətdir. Burada bitki ehtiyatları və etnobotanika, həmçinin toxum bankı, bitki introduksiyası şöbələri yerləşir. Binanın ikinci mərtəbəsində 80 nəfərlik akt zalı, üç laboratoriya, müdafiə şurası, Botanika İnstitutunun elmi şurasının katibliyi, mühasibatlıq yerləşir. Üçüncü mərtəbədə isə geobotanika, ictimaiyyətlə əlaqələr, eksperimental botanika və beynəlxalq əlaqələr şöbələri fəaliyyət göstərəcək. Ali bitkilər sistematikası və herbari fondu dördüncü mərtəbədə yerləşir. Botanika İnstitutunun Herbari Fondu 1936-cı ildə institut yarandığı vaxtdan fəaliyyət göstərir. Burada Azərbaycanla yanaşı, digər ölkələrin altı yüz minə yaxın flora növü qorunur.

Eyni zamanda, Mərkəzi Nəbatat Bağının 1937-ci ildə tikilmiş və tamamilə yararsız hala düşmüş 900 kvadratmetrlik aypara şəkilli inzibati binası da əsaslı təmir edilib.

Mərkəzi Nəbatat Bağı ərazisində tikintisi davam etdirilən müasir tipli oranjereyaya da baxış keçirildi. Bildirildi ki, oranjereyanın eni 19, uzunluğu 47, hündürlüyü isə 15 metrdir. Daxilində yerdən 3 metr hündür körpü və hər iki qapını birləşdirən piyada yolu var. Oranjereya müasir tipli isitmə, soyutma və nəmləndirmə avadanlıqları ilə təchiz olunacaq. Üzərindəki şüşə sisteminin 40 ədədi avtomatik açılaraq mövsümə uyğun havalandırmanı təmin edəcək.

Qeyd edək ki, Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasəti məhz Ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə formalaşmağa başlayıb. Hazırda Prezident İlham Əliyev tərəfindən ölkəmizdə bitki biomüxtəlifliyinin qorunması və səmərəli istifadə olunması məsələlərinə xüsusi diqqət yetirilir. Mərkəzi Nəbatat Bağında yenidənqurma işləri məhz Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilib.

Hazırda Mərkəzi Nəbatat Bağında "Bitki ekologiyası", "Dekorativ bitkilərin introduksiyası və seleksiyası", "Qida və dərman bitkilərinin biokimyası", "Oduncaqlı bitkilər", "Tropik və subtropik bitkilər" laboratoriyaları ilə yanaşı, "Strateji inkişaf, beynəlxalq əməkdaşlıq və layihələrin idarə olunması", "Bioloji kolleksiyalar", "Bağçılıq və landşaft quruculuğu", "Təchizat və xidmət" və digər şöbələr fəaliyyət göstərir.

Botanika İnstitutunda elmin informasiya təminat sisteminin təkmilləşdirilməsi və gücləndirilməsi məqsədinə xidmət edən 4 yerli və 2 beynəlxalq məlumat bazası fəaliyyət göstərir.

Botanika İnstitutu bu il COP15-də təsis olunmuş "Quraq Ərazilərdə Biomüxtəlifliyin Mühafizəsi İttifaqı"na (BCAA-Biodiversity Conservation Alliance for Arid Land) üzv seçilib.

## Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş tarixi qələbələr, ictimai-siyasi həyatın, dövlət idarəçiliyinin bütün sahələrində uğurla və ardıcıl şəkildə həyata keçirilmiş çoxşaxəli və məqsədyönlü islahatlar nəticəsində ölkəmiz özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatlardan kənarda qalmayan Azərbaycan Respublikası Milli Məclisinə 2020-ci ilin fevral ayında növbədənkənar seçkilər keçirilmişdir. Bu müddət ərzində Milli Məclis dövlətin daxili və xarici siyasətinin həyata keçirilməsində, dövlət idarəetməsinin daha da təkmilləşdirilməsində yaxından iştirak etmək, yerlərdə seçicilərlə müntəzəm iş aparmaq, həmçinin qanunvericilik fəaliyyətini həyata keçirməklə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda, Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin II hissəsinə əsasən növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir.

2024-cü ilin noyabr ayında bir çox ölkələrdən nümayəndə heyətlərinin iştirakı ilə ən mötəbər beynəlxalq tədbirlərdən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycanda keçiriləcəkdir. Dünya ictimaiyyəti tərəfindən yekdilliklə ölkəmizə etimad göstərilməsi Azərbaycana layiq olduğu böyük etibar, ehtiram və dəstəyin növbəti ifadəsi olmuşdur və bu tədbirlərin ən yüksək səviyyədə təşkilinin öhdəsindən gəlinməsi böyük məsuliyyət tələb etməklə dövlətimiz üçün nüfuz məsələsinə çevrilmişdir və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrdən irəli gələn öhdəliyidir.

Bu baxımdan Azərbaycan Respublikasının Milli Məclisində çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri Milli Məclisin sədrinə müraciət edərək həm parlament seçkilərinin, həm də adı çəkilən tədbirlərin yüksək səviyyədə təşkilinin böyük əhəmiyyət kəsb etdiyini və həmin dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının məqsədəuyğunluğunu nəzərə alaraq, növbədənkənar seçkilərin keçirilməsinin zəruri olduğunu bildirmişlər. Yeni Azərbaycan Partiyasının üzvü olan deputatların müraciəti digər siyasi partiyaları təmsil edən deputatların, habelə heç bir siyasi partiyaya mənsub olmayan deputatların əksəriyyəti tərəfindən dəstəklənmiş və növbədənkənar seçkilər keçirilməsinin zəruriliyi bəyan edilmişdir.

COP29 zamanı Azərbaycan Respublikası Milli Məclisinin ərazi bütövlüyümüzün bərpasından sonra yeni tərkibdə təmsil olunması, parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsi, habelə ölkəmiz üçün bu əhəmiyyətli tədbir zamanı normayaratma fəaliyyətinin fasiləsiz həyata keçirilməsi üçün həmin vaxta qədər Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının tam formalaşdırılması zəruridir.

COP29-a hazırlıq işlərinin görülməsi və həmin tədbirin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər sahələrdə müəyyən məhdudiyyətlərin tətbiq olunması qaçılmazdır. Bu baxımdan Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük əhəmiyyət kəsb edən parlament seçkilərinin demokratik prinsiplərə uyğun olaraq şəffaflığı və rəqabətliliyi təmin etməklə yüksək səviyyədə təşkil olunması, habelə vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakının, səsvermədə öz iradəsini azad və sərbəst ifadə etməsinin təmin olunması dövlətin əsas vəzifələrindən biridir.

Qeyd edilənlər və deputatların mütləq əksəriyyətinin növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı mövqeyi nəzərə alınmaqla, parlament seçkilərinin seçki qanunvericiliyinə uyğun keçirilməsi və Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş vəzifələrini tam icra edə bilməsi üçün növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruridir.

Yuxarıda şərh edilənlərə əsasən Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 21 iyun 2024-cü il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizi Braziliya hökuməti, xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

Braziliyanın ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi və xalqlarımızın qarşılıqlı rifahı naminə bundan sonra da Azərbaycanla birgə fəaliyyətini davam etdirmək istəyini bir daha bəyan edirəm. Bu kontekstdə mən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyası (COP29) çərçivəsində Braziliya ilə Azərbaycan arasında səmərəli əməkdaşlığı səbirsizliklə gözləyirəm.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Luiz İnasio Lula da SİLVA,***
***Braziliya Federativ Respublikasının Prezidenti***

## Bakıda Rusiya-Azərbaycan Ekspert Şurasının beşinci iclası



**Bakıda Rusiya-Azərbaycan Ekspert Şurasının (RAEŞ) "Rusiya və Azərbaycanın regional layihələr və təşəbbüslər çərçivəsində əməkdaşlığı" mövzusunda beşinci iclası keçirilib.**

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Rusiya Federasiyası Prezidentinin Xarici ölkələrlə regionlararası və mədəni əlaqələr üzrə idarəsinin rəhbəri İqor Maslov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Rusiya Beynəlxalq Məsələlər Şurasının baş direktoru İvan Timofeyev iştirak ediblər.

Tədbirə moderatorluq edən Fərid Şəfiyev bu platformanın 2021-ci ildə yaradıldığını xatırladaraq, budəfəki iclasın Azərbaycanın öz əraziləri üzərində suverenliyini tam bərpa etdiyi yeni reallıqda keçirilməsi baxımından əlamətdar olduğunu vurğulayıb. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini, bu il ölkəmizin COP29-a ev sahibliyi edəcəyini vurğulayan moderator iclasda bir sıra regional məsələlər, o cümlədən nəqliyyat və digər sahələrə aid vacib mövzular, eləcə də regional təhlükəsizliklə bağlı müzakirələrin aparılacağını qeyd edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, bu gün Azərbaycan ilə Rusiya arasında münasibətlər ən yüksək səviyyədədir. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə son onilliklər ərzində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində aparılan ardıcıl işin məntiqi nəticəsidir", - deyə o vurğulayıb.

Hikmət Hacıyevin sözlərinə görə, hazırda ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin möhkəmləndirilməsi və inkişafı tendensiyası müşahidə olunur. "Regionlararası əməkdaşlıq genişlənir. Azərbaycan Rusiya Federasiyasının 70-dən çox subyekti ilə əlaqələr saxlayır, Rusiyanın regionlarının azərbaycanlı tərəfdaşları ilə iqtisadi-ticari, elmi-texniki, mədəni əlaqələr üzrə 10-dan artıq sazişi həyata keçirilir. Əlbəttə, yuxarıda sadalananların hamısı Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasında şəxsi etimada əsaslanan münasibətlər və yüksək qarşılıqlı anlaşma səviyyəsi sayəsində mümkün olub", - deyə Prezidentin köməkçisi bildirib.

Bu gün bizim yaşadığımız dünyada nəqliyyat arteriyalarına tələbatın gündən-günə artdığını qeyd edən Hikmət Hacıyev bildirib ki, coğrafi mövqe və nəqliyyat infrastrukturuna yatırılan böyük həcmdə sərmayələr Azərbaycana Avrasiya qitəsində nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib.

Rusiya-Azərbaycan münasibətlərindən danışan Prezidentin köməkçisi vurğulayıb ki, humanitar və təhsil sahələrində əməkdaşlıq da uğurla inkişaf edir. O deyib: "Azərbaycanda Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı uğurla fəaliyyət göstərir. Hamıya məlumdur ki, Azərbaycanda rus dilinə qayğı ilə yanaşılır. Təxminən 340 məktəbdə 140 mindən çox uşaq rus dilində olan sektorlarda oxuyur. Azərbaycanın universitetlərində rus dili bölmələrində 15 mindən çox Azərbaycan vətəndaşı təhsil alır. Cari ildə Azərbaycanda Rusiya Mədəniyyəti Günləri keçiriləcək. Çoxsaylı mədəni tədbirlərin təşkili də nəzərdə tutulur. Əlbəttə, bütün bunlar ölkələrimizin dost xalqları arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcək".

Hikmət Hacıyev əmin olduğunu bildirib ki, iki dövlətin liderlərinin ardıcıl siyasəti sayəsində ölkələrimiz arasında münasibətlər gələcəkdə də yüksələn xətlə inkişaf edəcək və yeni məzmunla zənginləşəcək.

Rusiya Federasiyası Prezidentinin Xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəhbəri İqor Maslov bildirib ki, 2021-ci ildə RAEŞ ekspert platformasının yaradılması barədə qərar çox düzgün və səmərəli oldu. "İlk öncə iki ölkənin ekspertlərinin ikitərəfli münasibətlərin aktual məsələlərini həll etməsi planlaşdırılırdı və mənim fikrimcə, biz bu vəzifənin öhdəsindən çox uğurla gəldik", - deyə İdarə rəhbəri qeyd edib.

İqor Maslov diqqətə çatdırıb ki, 2022-ci ildə iki ölkə arasında münasibətlər yeni mərhələyə qədəm qoyub. Buna görə də hazırda Azərbaycanın və Rusiyanın maraq dairəsi regional və qlobal məsələlərə qədər genişlənib.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimovun sözlərinə görə, Rusiya Cənubi Qafqazda sabitliyin və firavanlığın bərqərar olmasında maraqlıdır və Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması prosesinə töhfə verməyə hazırdır. Rusiyalı diplomat Xəzər regionunda məsələlərin həllini də vacib hesab edib. "Biz əminik ki, xarici qüvvələrin regional işlərə müdaxiləsi yolverilməzdir və bütün məsələlər bölgə dövlətləri tərəfindən həll edilə bilər", - deyə diplomat vurğulayıb.

Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov qeyd edib ki, siyasi və iqtisadi sahələrdə regional əməkdaşlığın təmin edilməsi və xarici destruktiv müdaxilələrə qarşı mübarizə tədbirləri əsasdır. O, iki ölkə mütəxəssislərinin bir araya gəldikləri platformanın artıq beşinci iclasının uğurla keçirilməsindən məmnunluğunu ifadə edib. Elşad İsgəndərov bildirib ki, bu tədbir Rusiya-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi istəyinin necə reallaşmasının bariz nümunəsidir. "Üç il əvvəl bu ideya ilk dəfə irəli sürüləndə biz vurğulamışdıq ki, görüş yeganə hal olmamalıdır və bu təşəbbüs konkret nəticələr verməlidir", - deyə o əlavə edib.

Rusiya Beynəlxalq Məsələlər Şurasının baş direktoru İvan Timofeyev hökumət və müvafiq idarələr xətti ilə ölkələr arasında fəal iş aparılmasından danışıb. "Regional hakimiyyət orqanları səviyyəsində intensiv mübadilə aparılır ki, bu da çox yaxşı göstəricidir", - deyə baş direktor bildirib.

İclas "Rusiya-Azərbaycan müttəfiqlik qarşılıqlı fəaliyyətinin prioritetləri", "Rusiya və Azərbaycanın regional əməkdaşlığının aktual formatları və aspektləri" və digər mövzularda sessiyalarla davam etdirilib.

İclasın yekunlarına dair Rusiya-Azərbaycan Ekspert Şurasının tövsiyələri qəbul olunub.

***XQ***

# İstək və reallığın üst-üstə düşmədiyi məqam

## *Ermənistanın Avropa İttifaqına hansı statusda üzv olacağı heç özünə də aydın deyil*



**Dünən Ermənistan Milli Assambleyasında "Ermənistanın Avropa İttifaqına üzvlüyü üçün müraciətin verilməsi məsələsi üzrə referendumun keçirilməsi təklifi" mövzusunda parlament dinləmələrinə start verilib. Buna qədər həm baş nazir, həm də hay parlamentariləri oxşar təklif və təşəbbüslərlə çıxış edirdilər. Avropalıların özlərinin "xristian klubu" adlandırdıqları Aİ-nin içindən İrəvana dəstək verənlər var. Onların sırasında qurumun "baş diplomatı" Cosep Borrel hamıdan çox canfəşanlıq edir. Paşinyan hökuməti belələrinin şifahi dəstəyinə güvənərək Hayastanı Aİ üzvlüyünə layiq sayır. Fəqət, mövcud reallıq və müəyyən edilmiş qaydalar onun istəyi ilə heç də üst-üstə düşmür. İrəvanın üzv olmaqdan ötrü Aİ-nin bütün şərtlərinə cavab verməsi məsələsi suallar doğurur.**

Birincisi, onu qeyd etməliyik ki, bu, çox maraqlı təşəbbüsdür. Amma burada rəsmi İrəvanın "avropalı olmaq" üçün həddən artıq tələsdiyini demək lazımdır. Axı həmin Aİ-də yaxşı bilirlər ki, Ermənistan Moskvanın dominantlıq etdiyi bir sıra siyasi, iqtisadi, eləcə də hərbi ittifaqların, xüsusən də Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür.

İkincisi, Aİ-yə üzv olmağın əsas şərti ölkənin Avropa qitəsində yerləşməsidir. Ermənistan isə coğrafi nöqteyi-nəzərdən Asiyaya aiddir. Daxili qaydalara görə, Aİ Şurası üzvlüklə bağlı müraciəti ya yekdilliklə rədd, ya da təsdiqləyə bilər. Ermənistanın Aİ üzvlüyünə namizəd statusu almasını mümkünsüz edən digər amillər də var. Bu ölkənin dövlət sərhədini rus hərbçiləri qoruyurlar və orada Rusiyanın 102 saylı hərbi bazası yerləşir.

Üçüncüsü, Ermənistanın müstəqil iqtisadiyyatı mövcud deyil. Hayastan bu sahədə Moskvadan tam asılı vəziyyətdədir. Bundan başqa, regional şərait və reallıq da İrəvanın Aİ üzvlüyünə namizəd olmasına imkan vermir.

Dördüncüsü, Ermənistanın beynəlxalq hüququn tələblərinə cavab verən konstitusiyası yoxdur. Onun əsas qanunu qonşu dövlətlərə qarşı ərazi iddialarını özündə ehtiva edir.

***

Ümumiyyətlə, hətta bütün bu çatışmazlıqlara baxmayaraq, Brüssel İrəvanın müraciətinə müsbət yanaşsa belə, onun Aİ üzvlüyünə namizədlik statusu uzun müddət davam edə bilər. Bu durumda Ermənistanın Avropa ailəsinə hansı parametrlərə görə üzv olmağa çalışması heç özünə də tam aydın deyil.

Aydın məsələdir ki, Hayastanı Aİ-yə üzv etməyə çalışanların məqsədi İrəvanı Moskvadan mümkün qədər tez və fəsadsız uzaqlaşdırmaqdır. Erməni mediasının verdiyi məlumata görə, Ermənistan parlamentində məlum dinləmələr parlamentin Avropaya inteqrasiya daimi komissiyasının təşəbbüsü ilə aparılır. Bununla bağlı referendumun keçirilməsi təklifi ilə Respublika (sədri Aram Sarkisyandır – red.), "Respublika naminə" (sədri Arman Babacanyandır -red.) partiyalarını birləşdirən Demokratik Qüvvələrin Platforması və Xristian Demokrat Partiyası (sədri Levon Şirinyandır -red.) və Ermənistan Avropa Partiyası (sədri Tiqran Xzmalyandır – red.) çıxış ediblər. "Respublika naminə" partiyasının lideri A.Babacanyan çıxışında bildirib ki, referendumu keçirməkdə məqsəd Ermənistanın sabitliyini və dayanıqlığını artırmaqdır.

***

Arzusunu gerçəklik kimi qəbul etməyə meyilli İrəvanın Aİ sövdasının daşa dirənəcəyini indidən söyləmək olar. Çünki bu "siyasi proje"nin Ermənistan hakimiyyətinin istək və iradəsindən asılı olmadığı hər kəsə məlumdur.



**Mövzu ilə bağlı "XQ"yə açıqlama verən Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxovun** fikrincə, rəsmi İrəvanın Aİ-yə üzvlük təşəbbüsü yeni addım deyil: "Nikol Paşinyan bu təklifi dəfələrlə təkrarlayıb. Məqsəd Ermənistanı Rusiyadan uzaqlaşdırmaq, onu bölgədən kənarlaşdırmaqdır. Yəni Avropa İttifaqı düşünür ki, əgər Ermənistanı özlərinə daha da yaxınlaşdırsalar, bu halda Rusiyadan qopma prosesinə müsbət təkan verə bilər. Amma reallıq ondan ibarətdir ki, Aİ-yə daxil olmaq üçün müəyyən şərtləri yerinə yetirmək lazımdır. Tələblər çox və ciddidir. İrəvan hələ üzvlüyə qədər namizədlik statusunu qazanmalıdır. Bu statusun ömrü isə uzun illəri əhatə edə bilər. Fəqət bir həqiqət də var ki, Aİ, eləcə də Avropanın digər təşkilatları qəbul qaydalarını asanlıqla siyasi formata çevirirlər. Əgər onların gündəliyində Cənubi Qafqazda mövcudluğunu təsdiqləmək məsələsi varsa, həmin qaydaların və şərtlərin kifayət qədər yumşaldılması, qəbulun tezləşdirilməsi presedenti nəzərdən keçirilə bilər. Amma bunun özü də asan məsələ deyil. Ona görə ki, Avropanın özündə elə ölkələr vardır ki, onlar üzvlük məsələsinə özəl yanaşma sərgiləyirlər".

Tanınmış siyasi ekspert Ermənistanın Aİ-yə üzvlük məsələsinin yaxın perspektivdə həll olunacağına əmin olmadığını da dilə gətirdi: "Çünki Rusiya bu təşəbbüsə qıcıqla yanaşacaq və Ermənistan hakimiyyətinin planlarının həyata keçməməsindən ötrü əlindən gələn hər şeyi edəcək" .

Rəsmi İrəvanın parlamentdə dinləmələrinə başlatdığı məsələyə xarici ekspertlərin yanaşması yerli politoloqun mövqeyi ilə, demək olar ki, eynidir.

**Qazaxıstanlı politoloq, beynəlxalq məsələlər üzrə ekspert Kazbek Beysebayev** mövzuya münasibətini məşhur



sovet komediyasında personajın dediyi sağlıqla paralel aparmaqla başladı: "İstəklərimiz və imkanlarımız üst-üstə düşsün". Komediya qəhrəmanının arzusu Ermənistanın Avropa İttifaqına daxil olmaq istəyi ilə eynidir. Əlbəttə, arzulamaq bir şeydir, real imkan isə başqa şey. Avrasiya İqtisadi İttifaqının (AİI) üzvü olan Ermənistan müəyyən üstünlüklərə malikdir. Burada onun, ilk növbədə, iqtisadi maraqları var. Avropa İttifaqına aparan yola başlamaq üçün isə əvvəlcə AİI-dən çıxmalısan. Başqa sözlə, bu üstünlüklərin hamısından imtina etməli olacaqsan".

Bunun ardınca qazax ekspert K.Beysebayev sual edir: "Ermənistan belə bir addımı atmağa hazırdırmı? Bu, böyük sualdır. Üstəlik, Aİ üzvlüyünə qəbul proseduru tez baş tutan məsələ deyil, azı bir ildən yuxarı vaxt aparacaq. Biz onu da unutmamalıyıq ki, Aİ-nin özünün kifayət qədər problemi var. Ümumiyyətlə, Avropa İttifaqı indiki formatda sağ qalacaqmı? – kimi suallar dolaşmaqdadır. Ona görə də Aİ-yə daxil olmaqla bağlı çox şeylər deyə bilərik, amma bu zaman sözdən icraya qədər olan məsafə böyükdür. Moskvanın Ermənistanın quruma hipotetik üzvlüyü ilə bağlı mövqeyinə gəlincə, hesab edirik ki, Rusiya bundan az itirəcək".

***

Əcnəbi siyasi ekspertlərin bir məsələdə mövqeləri üst-üstə düşür. Onların hamısı rəsmi İrəvanın Aİ məsələsini özxoşuna gündəmə gətirmədiyi qənaətini bölüşürlər.

**Çex radiosunun (Praqa) beynəlxalq əlaqələr şöbəsinin müxbiri, postsovet ölkələri üzrə ekspert Ondra Soukup** vurğulayır ki, Ermənistanda Avropaya inteqrasiya ilə bağlı referen-



dum ideyası, təbii olaraq, birbaşa siyasi müstəviyə bağlıdır: "İntəhası, bunun hüquqi nəticələri ola bilməz. Yəni, bu, daha çox niyyət bəyannaməsinə bənzəyir. Belə bir şeyi, məsələn, bir neçə il əvvəl separatçı Dnestryanıda keçirilən "referendum"la müqayisə etmək olar. Onlar da, guya, Rusiya Federasiyasının bir hissəsi olmaq istəyirlər. Yaxud Moldovada qarşıdan gələn prezident seçkilərində Avropaya istiqamətə dair, bir növ, referendum da keçiriləcək. Amma bunun da praktikada heç bir nəticəsi olmayacaq".

MDB məsələləri üzrə ekspert açıq şəkildə bildirdi ki, Ermənistanın belə bir təşəbbüsü Rusiyanın onlara münasibətdə mövqeyindən çox məyus olan erməni siyasətçilərin hansısa alternativlər axtarmaq cəhdidir: "Ancaq aydın məsələdir ki, hələlik heç kim coğrafiyanı ləğv etməyib. İndi asiyalı ermənilərin məlum səyləri onların bu vaxta qədərki bəzi xəyal və arzularına bənzəyir".

Ermənistan parlamentində başlanan Aİ dinləmələrinin daha çox daxili auditoriya üçün nəzərdə tutulduğu qənaətini paylaşan digər **xarici ekspert, polşalı politoloq, Varşava Universitetinin Şərqşünaslıq fakültəsinin elmlər doktoru Konrad Zaştotun** açıqlaması diqqə-



ti çəkdi. Şərqşünas alim öz növbəsində qeyd etdi ki, baş nazir Nikol Paşinyan indi bir sıra hüquqi islahatlar aparmaq, o cümlədən referendum keçirmək qərarına gəlib. K.Zaştot baş nazirin bununla hökumətin legitimliyini gücləndirmək, Azərbaycanla sərhədin delimitasiyasını başa çatdırmaq məqsədini güddüyünü bildirdi: "Arxiyepiskop Baqra Qalstanyanın ətrafında səfərbər olmuş müxalifətin Paşinyana qarşı kifayət qədər şiddətli etirazlarının davam etdiyi də nəzərə alınmalıdır. Etirazlar nəticəsində hökumət devrilməsə də, onun populyarlığına hissolunacaq zərbə vuruldu. Nikol Paşinyan Ermənistanın xarici siyasətinə görə bütün məsuliyyəti öz üzərinə götürmək fikrində deyil. O, bunu təkcə daxildəki siyasi qüvvələrin palitrası ilə deyil, həm də bütün cəmiyyətlə bölüşmək istəyir. Yəqin ki, elə buna görə də referenduma getməyi düşünür".

***

Bu arada Ermənistan xarici diplomatiya idarəsinin rəhbəri Ararat Mirzoyanın Litvaya səfəri diqqəti özünə cəlb etdi. Mirzoyanın Vilnüs görüşlərinin əsas mövzularından biri məhz Aİ-yə üzvlük məsələsi olub. Erməni həmkarını qəbil edən Litvanın xarici işlər naziri Qabrielius Landsbergis bildirib ki, onun ölkəsi Avropa İttifaqına gedən yolda Ermənistanı dəstəkləyəcək. Bu açıqlama Litva XİN-in "X" mikrobloqunda yerləşdirilib.

Litvanın baş diplomatı bir qədər də irəli gedərək bunları söyləyib: "Ermənistanın müstəqilliyini ilk tanıyanlardan biri Litva olub və biz bu ölkənin Avropaya doğru atdığı çətin, lakin vacib addımlarda ona kömək etməkdən məmnunuq. Bu gün mən Ararat Mirzoyanı əmin etdim ki, biz keçid dövründəki təcrübəmizi onlarla bölüşəcəyik və Ermənistanı hər zaman dəstəkləyəcəyik".

Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, Aİ adlı "xristian klubu"nun, misal üçün, Litva kimi bəzi üzvləri Hayastanı dəstəkləyə, ona "gəl-gəl" deyə bilər. Amma həmin "köhnə qitə"nin kandarında Azərbaycanın etibarlı dostları və tərəfdaşları da az deyil. Bu amili atası otuz il bundan əvvəl dissident demokrat kimi ad çıxarmış nazir Landsbergis nəzərə almaya bilər, amma Paşinyanın unutması mümkün deyil...

***İmran BƏDİRXANLI***
***XQ***

**Milli Məclisdə**



## Növbədənkənar parlament seçkilərinin təyin olunması üçün Prezidentə müraciət edildi

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirildi. İclasın gündəliyi təsdiq edildikdən sonra spiker dedi ki, Azərbaycan dünya miqyaslı müxtəlif tədbirlərin keçirildiyi bir məkana çevrilmişdir. Paytaxt Bakı nüfuzlu beynəlxalq təşkilatların toplantılarına və digər tədbirlərə uğurla evsahibliyi edir. Bu tədbirlərdən biri də – COP29 noyabr ayında Azərbaycanda keçiriləcək. Beynəlxalq tədbirə Azərbaycanın ev sahibi seçilməsi dövlətimizə növbəti dəfə göstərilən böyük etimad və hörmətin ifadəsi olmuşdur. Bununla birlikdə, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının da noyabr ayında Azərbaycanda keçiriləcəyi qürurverici hadisədir. Qlobal əhəmiyyətli bu tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına imkan yaradacaq.**

S.Qafarova 2020-ci ilin fevral ayında Milli Məclisə növbədənkənar seçkilərin keçirildiyni xatırladaraq dedi ki, Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında verdiyi tövsiyələrə uyğun olaraq ötən dövrdə parlamentin qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi, qanunların icrasına nəzarət və təmsilçilik funksiyalarının müasir tələblər səviyyəsində qurulması yolunda lazımi addımlar atılmışdır. Milli Məclis möhtərəm cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və əsaslı islahatların hüquqi bazasının daha da möhkəmləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır.

S.Qafarova bildirdi ki, Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə görə, Milli Məclisin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda, Konstitusiyanın 981-ci maddəsinin II hissəsinə əsasən növbədənkənar seçkilərdə seçilən Milli Məclisin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər Milli Məclisin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir. Ölkəmizdə həm dünya səviyyəli tədbirlərin, həm də ictimai-siyasi həyatımızda böyük əhəmiyyət kəsb edən parlament seçkilərinin vaxtı noyabr ayına təsadüf edir. Həmin beynəlxalq tədbirlərin və parlament seçkilərinin yüksək səviyyədə təşkil edilməsi dövlətimiz üçün ən böyük əhəmiyyətə malik olan məsələlərdir.

Spiker dedi ki, bütün bunları nəzərə alaraq, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri ona müraciət etmişlər. Onlar Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət olunması məsələsinə baxılmasını xahiş etmişlər.

Spiker Milli Məclisdə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi üçün komissiya yaradıldığını dedi.

Çıxış edənlər növbədənkənar parlament seçkilərinin keçirilməsinin vacib olduğunu bildirdilər. Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə göndəriləcək müraciətin mətnini deputat Tahir Rzayev oxudu.

Deputatlar parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidentinə ünvanlanan müraciətə səs verdilər.

Sonra gündəlikdəki digər qanun layihələri təqdim olundu və müzakirələrdən sonra səsə qoyularaq qəbul edildi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# YAP-ın təşəbbüsü – reallığa adekvat reaksiya əzmi

**(əvvəli 1-ci səhifədə)**

**Dördüncü məqam.** Məlum olduğu kimi, 2018-ci ildə start verilən və bizi böyük qələbələrə aparan islahatlar yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin islahat xətti çoxşaxəlidir, günün tələbləri ilə səsləşir. Bu səslənişə həm də Milli Məclis səviyyəsində də reaksiya verilməlidir. Yəni, parlament də daha çevik fəaliyyət göstərməlidir. Elə bir fəaliyyət ki, 2020-ci ildən sonra yeni tələbat seqmentləri ilə zənginləşmiş reformalar daim yüksək dinamikasını qorusun.

**Beşinci məqam.** Yeni dövr yeni siyasi mədəniyyət tələb edir. Bu, özlüyündə həm siyasi, həm də mənəvi məsələdir. YAP fəaliyyətdə olduğu 1993-cü ildən bu məsələyə böyük önəm verərək inkişaf edir, təkmilləşir. Mövcud anlamda qurumun parlamentin də yeni siyasi təfəkkür tərzi ilə formalaşması təşəbbüsündə olması məntiqi qanunauyğunluq sayıla bilər. Yəni, YAP-ın belə bir təşəbbüsə tam haqqı çatır.

**Altıncı məqama keçid alaq.** Dünya beş il əvvəkitək olmadığı kimi, heç iki ay qabaqkı da deyil. Dəyişikliklər, sanki, ildırım sürəti ilə gedir. Onlara əsasən qlobal maraq və mənafe zəncirində də fərqliliklərin yaşandığının şahidiyik. Deməli, dəyişən dünyaya adekvat reaksiyamızın olması mütləqdir. Mövcud xüsusda Azərbaycanın idarəçiliyində monolitlik günümüzün təxirəsalınmaz tələbidir. Bu, elə bir tələbdir ki, hər anın öz hökmünün formalaşdırdığı reallığı da rəhbər tutur, ümumən inkişaf əzmini də. YAP-ın növbədənkənar parlament seçkiləri təşəbbüsünə bu prizmadan da yanaşılmalıdır.

Nəhayət, **yeddinci məqam.** Məlum olduğu kimi, Azərbaycanda parlament seçkiləri 2024-cü ilin noyabrında keçirilməli idi. Amma həmin ay ölkəmizdə dünyanın ən mötəbər tədbirlərindən sayılan BMT-nin İqlim Dəyişikliyi Sammiti – COP29 keçiriləcək. Nəzərə alaq ki, COP29 Azərbaycanın indiyədək evsahibliyini gerçəkləşdirdiyi ən nüfuzlu tədbirdir.

Müqayisəli yanaşsaq, COP29 proqnozlaşdırılan iştirakçı sayının çoxluğu baxımından digər toplantıları xeyli geridə qoyacaq. Deməli, onunla eyni vaxtda seçki kampaniyasının təşkili və səsvermənin keçirilməsi praktiki cəhətdən mümkünsüzdür. Dünya miqyaslı mötəbər tədbirə evsahibliyinin gerçəkləşdirilməsi isə son dərəcə vacibdir. Deməli, YAP-ın parlament seçkilərinin vaxtının dəyişdirilməsi təşəbbüsü həm COP29-u layiqli şəkildə keçirməyə imkan verəcək, həm də tədbir müddətində ölkə parlamentinin tam funksionallığını şərtləndirəcək.

***XQ-nın analitik qrupu***

## 2 erməni hərbçinin qalıqları geri qaytarılıb

**2023-cü ilin sentyabr ayında həyata keçirilmiş antiterror əməliyyatından sonra işğaldan azad olunmuş ərazilərdə aparılmış axtarış işləri nəticəsində Daşkəsən rayonu istiqamətində Buğdadağ yüksəkliyinin və Kəlbəcər rayonu istiqamətində Dəvə dağının yaxınlığında iki insana aid olduğu ehtimal edilən qalıqlar aşkarlanıb.**

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından redaksiyamıza bildiriblər ki, qalıqların 2022-ci ilin sentyabrında Ermənistan-Azərbaycan sərhədində baş vermiş döyüş əməliyyatı zamanı həlak olmuş iki Ermənistan hərbçisinə aid olması müəyyənləşdirilib.

Azərbaycan Respublikası xoşməramlı niyyətini və humanizm prinsiplərinə sadiqliyini növbəti dəfə nümayiş etdirərək, üçüncü tərəfin və ya hər hansı digər vasitəçinin iştirakı olmadan iki erməni hərbçisinin meyit qalıqlarını iyunun 21-də Ermənistana təhvil verib.

***XQ***

# AP-nin mövqeyi və Borrelin fikirləri Bakı–İrəvan sülh prosesinə zərbədir

## İrəvanın illüziya bataqlığında çapalayanlar

**Avropa Parlamentinin Azərbaycana qarşı qərəzi məlumdur. Bu qərəzin heç bir mənəvi və hüquqi sərhədlər tanımadığı, onları aşdığı da həmçinin. Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin ölkəmizə qarşı mövqeyindəki ənənəvi yarıtmaz motivlər də hər kəsə yaxşı bəllidir. İndi birinci ikincidən anti-Azərbaycan ritorikasına, ermənipərəstlik xəttinə, belə demək mümkünsə, güc verməsini istəyib. Ola bilər, tərəflər bir-biri ilə razılaşıblar. Yəni AP-nin deputatları soruşacaqlar, C.Borrel cavab verəcək. Nəyi soruşacaqlar və hansı cavabı alacaqlar? Mövzumuz bu barədədir.**



Bəli, pensionerlər klubu imicinə malik AP-nin deputatları C.Borrelə "erməni məhbusları"nın azad olunmaları ilə bağlı suallar ünvanlayıblar. Əlbəttə, söhbət yalnız saxta məhbus məsələsindən düşməyib. Borrel cavabında Qarabağı tərk etmiş ermənilərin hüquqları, o cümlədən öz evlərinə qayıtmalarının təminatı istiqamətində Azərbaycana çağırış səsləndirib.

Necə deyərlər, it əl çəkir, motal əl çəkmir. Məsələ burasındadır ki, Ermənistanın baş naziri Nikol Paşinyan, eləcə də ölkənin digər rəsmiləri dəfələrlə agah ediblər ki, Qarabağda yaşamış ermənilərin bölgəyə qayıtmaları mümkünsüzdür. Məsələ rəsmi İrəvanın xarici siyasət hədəflərindən çıxmış durumdadır. Ancaq Avropada Roma papasından daha artıq katolikliyə girişənlər qalmaqdadırlar. Deyəsən, onlar hayların özlərindən daha qatı erməniyə çevrilmək sevdasına düşüblər. Belələrinə nə deyəsən?

Ancaq deyiləcək sözlər çoxdur. İlk növbədə onu vurğulamaq lazımdır ki, Qarabağın erməni əhalisi ərazidən zorla çıxarılmayıb. Onlar bölgəni öz xoşlarına tərk ediblər. Daha doğrusu, Azərbaycanın yox, elə Ermənistanın təhriki prosesdə həlledici rol oynayıb. 2023-cü ilin sentyabrındakı lokal xarakterli antiterror tədbirlərindən sonra rəsmi İrəvan çalışmışdı ki, Qarabağın erməni sakinlərinin bölgədən uzaq tutulması ilə Qarabağ avantürasına sentimentallıq notları gətirib beynəlxalq dividend qazansın. Ancaq sonradan bunun mümkünsüzlüyünü anlamışdı. Görmüşdü ki, rəsmi Bakı prinsipial mövqeyindən dönən, hansısa təzyiq qarşısında geri çəkilən deyil. Digər tərəfdən, Azərbaycan Qarabağ ermənilərinin bölgədə vətəndaş kimi qalmalarının tərəfdarı olduğunu dəfələrlə sübuta yetirib. Mövcud istiqamətdə təkliflər irəli sürüb. Reinteqrasiya təşəbbüsünü qaldırıb. Ancaq bütün bunlar nəzərə alınmayıb.

Ölkəmiz öz ərazisində hansısa separatçı quruluşun mövcudluğuna dözə bilməzdi və dözmədi də. Ancaq dünya birliyi evlərindən zorla və amansızcasına didərgin düşmüş 1 milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarına dair məsələyə 30 ilə yaxın müddətdə tam etinasız yanaşdı. Etinasız yanaşanlar sırasında AP lap öndə gedirdi. İndi C.Borrelin və AP-nin deputatlarının irəli sürdükləri məntiq onu deməyə əsas verir ki, Azərbaycan özünün konstitusyon quruluşunu, ərazi bütövlüyünü və suverenliyini bərpa etməməli, Qarabağdakı xunta rejimi saxlanılmalı, hətta belə görünür, beynəlxalq hüququn subyekti qismində qəbul edilməli idi. Yəqin ona görədir ki, "erməni məhbusların" azad olunmaları və Qarabağ ermənilərinin geri qayıtmaları barədə sərsəmləyir, beynəlxalq hüququn normal və prinsiplərini saymırlar. Nəticədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin vurğuladığı kimi, Aİ-nin ali nümayəndəsi erməniləri razı salmaq, habelə heç bir mənəvi və faktiki əsası olmayan iddianı irəlilətmək istəyir: "Biz bu yalan və təhrikedici iddiaları rədd edirik".

A.Hacızadə onu da bildirib ki, Azərbaycan 2020-ci il müharibəsindən sonra humanitar jest olaraq, həmçinin beynəlxalq humanitar hüquq üzrə öhdəliklərinə uyğun şəkildə hərbi əsir statusu daşıyan və ya saxlanılan şəxs hesab edilən 200 nəfərdən artıq ermənini azadlığa buraxıb və repatriasiya edib. Habelə, Azərbaycanda saxlanılan bütün erməni hərbi əsirlərlə və mülki şəxslərlə 1949-cu il Cenevrə Konvensiyalarının tələblərinə uyğun davranılıb, onlar işgəncələrə, təhqirlərə və qeyri-insani rəftara məruz qalmayıblar. Hər birinə həbsdə olarkən tibbi xidmət göstərilib, müayinələrdən keçiblər, Beynəlxalq Qırmızı Xaç Komitəsi həmin şəxslərlə müntəzəm görüşlər keçirib və ailələri ilə təmaslarını qurub. Buna baxmayaraq, Azərbaycan onları geri qaytardıqdan sonra bəziləri həbslə üzləşib, sorğu-suala məruz qalıblar.

Bəli, Ermənistan hakimiyyəti sözügedən kateqoriyadan olanlara münasibətdə nalayiq rəftara üstünlük verib. Yaxşı olardı ki, cənab Borrel və onu "hərəkətə gətirən" AP-nin pensioner deputatları bu məqamı nəzərə alaydılar. Onlar onu da düşünməlidirlər ki, bu gün Azərbaycanda həbs olunan Qarabağdakı keçmiş separatçı rejimin rəhbərləri azadlığa buraxılsalar da, Ermənistanda yaxşı aqibətlə üzləşməyəcəklər. Çünki bu şəxslərin baş nazir N.Paşinyana qarşı çıxacaqları şübhəsizdir. Nikol və tərəfdarları üçün belələrinin ömürlərini Bakı həbsxanalarında çürütmələri daha sərfəlidir, nəinki İrəvanda olmaları. Gərək, Borrel bu barədə də yaxşı-yaxşı düşünsün. Amma düşünməyərək köhnə "siyasi şparqalkaları" işə salır.

Bakı Qarabağ canilərinə, əli Azərbaycan xalqının qanına batmışlara qarşı heç bir güzəştə getməyəcək. Ölkəmiz İlahi ədaləti təmin edəcək və edir də. Bunun qarşısında nə Borrel, nə AP-nin məişət pozğunu olan korrupsioner deputatları, nə də digər ermənipərəstlər dayana bilərlər. Həm də ona görə ki, Azərbaycanın mövcud istiqamətdəki mövqeyi beynəlxalq hüquqa əsaslanır. Bunu A.Hacızadə də vurğulayır: "Həbsdə qalan müharibə cinayətkarları, separatçı liderlər və digər erməni əsilli şəxslər isə ya müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunur, ya da artıq bu cinayətlərə görə məhkum ediliblər, yaxud da onlarla bağlı istintaq prosesi davam edir. Cenevrə konvensiyalarına, habelə ümumilikdə beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, Azərbaycan bu kimi cinayətlərin araşdırılması və mühakiməsi üzrə hüquq və öhdəliklərə malikdir. Bu kimi həbslərin tam hüquqi əsası var və bu, saxlanılan şəxslərin hüquqlarına xələl gətirmir. Hətta saxlanılan şəxslər hərbi əsir olsalar belə, III Cenevrə Konvensiyasına əsasən, ittiham oluna biləcəkləri bir cinayət törətdiklərinə görə cinayət təqibi davam edən hərbi əsirlər, bu kimi məhkəmə prosesi bitənə və lazım gələrsə, cəzalarını çəkib bitirənə qədər məhbusluqda saxlanıla bilər".

Bəli, mövcud durumda başlıca diqqət Ermənistanın azərbaycanlı hərbi əsirlərə və mülki məhbuslara, eləcə də itkin düşmüş azərbaycanlılara qarşı qəddar rəftarına dair sübutlara yönəlməlidir. Çünki Ermənistanın hərbi təcavüzü başlayandan bəri 3890-dan çox azərbaycanlı itkin düşüb və onların taleyi naməlumdur. Yeri gəlmişkən, itkin düşənlərin 3171 nəfəri hərbçi, 719 nəfəri (71 uşaq, 267 qadın və 326 ahıl şəxs daxil olmaqla) isə mülki şəxslərdir ki, bunu A.Hacızadə də öz açıqlamasında diqqətə çatdırıb.

Onu da deyək ki, C.Borrelin fikirləri, eləcə də AP-nin ortaya qoymaqdan yorulmadığı ermənipərəst mövqe Azərbaycan–Ermənistan sülh prosesinə maneçilik törətməkdən başqa bir şey deyil. Belə fikirlər rəsmi İrəvanın düşdüyü illüziya bataqlığındakı yerini daha da möhkəmləndirir. Bu möhkəmlənmə isə son dərəcə zərərlidir. Ona görə A.Hacızadə açıqlamasının sonunda bunları da bildirir: "Azərbaycan bu həlledici məqamda Avropa İttifaqı tərəfinin regionda sülh səylərini sarsıdan qərəzli bəyanatlardan çəkinəcəyini gözləyir".

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Baqratiada" elegiyası...

**Erməni apostol kilsəsinin Tavuş vilayəti üzrə yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın "Vətən naminə Tavuş" adlı qondarma hərəkat yaradaraq ölkədə iğtişaş salmaq, qarşıdurmaya getmək cəhdlərinə cəmiyyətin mütləq əksəriyyətinin mənfi münasibət bildirməsinə baxmayaraq, "din xadimi" öz əməllərindən əl çəkənə bənzəmir. Dünən səhər B.Qalstanyan Qazax rayonunun Xeyrımlı kəndi ilə üzbəüz mövqedə yerləşən Tavuş vilayətinin Kirants kəndinə gedib.**





Səfərdən öncə jurnalistlərə açıqlama verən Baqrat deyib: "Mən Tavuşa getmək, xalqla görüşmək, yerdəki vəziyyətlə tanış olmaq, eyni zamanda, "hasar" deyilən yerin harada olduğunu anlamaq istəyirəm. Hasar, sərhəd xətti, tikanlı məftillər... Bu, harada yerləşir, niyə hələ də video və fotoşəkillərdə görünmür? Gedək, hər şeyi öz gözümüzlə görək, əmin olaq ki, o var, ya da yoxdur. Deyirlər, Voskepardadır, gedək bir baxaq. Biz Tavuşda bütün sərhəd xətti boyunca gəzmək və Paşinyanın nümayiş etdirdiyi bədnam hasarı tapmaq niyyətindəyik, çünki onun mövcudluğuna şübhə edirik". Onun sözlərinə görə, əvvəllər kənd sakinlərindən video təsdiq tələb edib, lakin onlar hasarları (?) tapmayıblar.

Onu səfərdə hərəkatın digər nümayəndələri müşayiət ediblər. Kirantsa səfərlə bağlı elan və digər məlumatlar Baqrat tərəfdarları yaratdıqları və "Müqəddəs mübarizə" adı verdikləri teleqram kanalında yerləşdirilib. "Srbazan"ın Kirants və qonşu kəndlərin sakinləri ilə görüşdüyü qeyd olunub.

Etirazçıların lideri kənddə yerləşən kilsənin həyətində sakinlərlə görüş keçirib. Ənənəsinə sadiq qalaraq, bu zaman bir sıra təxribatçı, nifaq salan bəyanatlar verib. Bildirib ki, guya, kənddə insanlar qorxudulub, çıxılmaz vəziyyətə salınıb və qərar qəbul etmək məcburiyyətində qalıblar: "Kəndi iki yerə bölüblər. Bəzilərini "qeyri-vətənpərvər", bəzilərini isə "vətənpərvər" ediblər. Kəndlilər arasında gərginlik yaranıb və indi bəzi məsələlərdə birlik yoxdur. Baxmayaraq ki, əksəriyyəti bunu gizlətməyə və problem barədə susmağa çalışır. Bütün bu sərhədyanı kəndlərdə onların hamısını birləşdirən bir cəhət var idi – sərhəd. İndi bu sərhəd də insanları parçalayıb, onların ictimai təsəvvürünü məhv edib. O, insanları bölüb".

Baqrat onu da bildirib ki, evləri Azərbaycanın nəzarətinə keçməli olan Mher Simonyan və Xanum Tamrazyanın artıq dövlətdən kompensasiya aldıqları barədə onunla məlumat paylaşılıb.

Bu arada "Hraparak" qəzeti sərhədlərin delimitasiya və demarkasiyası prosesinin növbəti mərhələsində Kərki kəndinin də Azərbaycana təhvil veriləcəyi barədə məlumat yayıb. Nəşr sərhəd komissiyalarının iclasından sonra baş nazirin müavini Şahin Mustafayevin xidmətinin martın 7-də verdiyi bəyanatı xatırladıb. Qeyd edib ki, Azərbaycan rəsmisi Qazax rayonunun sərhədə bitişik 4 kəndi ilə yanaşı, Ermənistan tərəfindən işğal olunmuş eksklav kəndlərimizin də azad edilməsini gündəmə gətirmişdi. Bunlar Yuxarı Əskipara, Sofulu, Barxudarlı və Kərki kəndləridir.

"Nikol Paşinyan Bakının tələblərinin bir hissəsini artıq yerinə yetirib. Siyasi düşərgə növbədə Kərki kəndinin olduğunu iddia edir, hökumət bu kəndi də təhvil vermək niyyətindədir. Siyasətçi Meşrop Arakelyan da belə bir məlumata malikdir. Onun sözlərinə görə, hakimiyyətin Kərkidə inkişaf, mənzil tikintisi ilə bağlı heç bir planı yoxdur, onlar bu kənddən əllərini çəkiblər" – deyə qəzet yazır.

"Hraparak" bildirir ki, Ermənistan hökumətinin son iclasında Qarabağ erməniləri üçün mənzil proqramlarının siyahısının təsdiqi və maliyyələşdirilməsi barədə qərar qəbul edilib: "Təsdiq edilmiş kənd və qəsəbələrin siyahısında Kərkinin adı yoxdur. Ermənistanın bütün digər sərhədyanı kəndləri isə siyahıda yer alıb. Kərkinin adının siyahıda olmaması normaldır, çünki erməni kəndi deyil, Azərbaycana məxsusdur və qaytarılacaq". Arakelyan isə söyləyib ki, hakimiyyətin bu qərarı Kərkini təhvil vermək niyyətini göstərir. O, bunun tezliklə olacağını istisna etməyib.

Göründüyu kimi, artıq ermənilər özləri də vəziyyətlə barışıblar və kəndlərin Azərbaycana qaytarılmasının alternativinin olmadığını anlayırlar. Bunu anlamayan, yaxud anlasa da özünü qanmamış kimi göstərənlər isə sayları bir neçə min nəfəri ötməyən radikal-revanşist kəsimdir. Onların öndə gedənlərindən olan B.Qalstanyan hələ də fəaliyyətini davam etdirdiyini, mövcudluğunu göstərmək üçün bölgələrə səfərlər edə, hansısa görüşlər keçirə və jurnalistlərə müsahibə verə bilər. Amma onun siyasi ömrü sona yetib və etirazçı hərəkat da tam uğursuzluğa düçar olub. Proseslərin təhlili belə fikir söyləmək üçün ciddi əsaslar verir. Zənnimizcə, bunun da əsas səbəbi, etirazçıların revanşist əhval-ruhiyyəli şəxslərdən ibarət olmasıdır. "Qarabağ klanı" adlandırılan siyasi zümrə başda olmaqla, Ermənistanda bütün revanşist düşüncəli şəxslər Baqratın ətrafında cəm olmuşdular. Onlar erməni xalqına yaxşı heç nə vəd etmirdilər. Xalq başa düşürdü ki, Baqratın hərəkatı onlara yalnız yeni müharibə, yeni ərazi və insan itkiləri vəd edir. İkinci Qarabağ müharibəsində azı 7-8 min nəfər itki verən haylar Baqratı rədd etməklə, əslində, yeni müharibəyə "yox!" demiş oldular. Erməni xalqı artıq müharibələrdən yorulub. Eyni zamanda, başa düşür ki, indi 1990-cı illərin əvvəli deyil. Qüvvələr nisbəti onların ziyanınadır. Yenidən müharibə edib itkilər verməkdənsə, Azərbaycana məxsus olan kəndləri geri qaytarmaq, sülh müqaviləsi imzalamaq və dinc yanaşı yaşamaq daha doğrudur.

Bundan əlavə, ermənilər onu da başa düşürlər ki, yeni müharibənin baş verəcəyi təqdirdə onu başladanlara heç nə olmayacaq. Zərbə yenə də geniş xalq kütlələrinə dəyəcək. Nə Birinci, nə də İkinci Qarabağ müharibəsi zamanı Ermənistanda özünü vətənpərvər kimi göstərən, müharibəni qızışdıran rəhbər şəxslərin heç birinin nə özü, nə övladları, nə də yaxın qohumları həlak olub. Bütün bu məqamlar xalqın baş nazir Nikol Paşinyanın tərəfdarı kimi çıxış etməsində mühüm rol oynadı.

**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov** Baqratın etiraz hərəkatının



uğursuz olması ilə bağlı "XQ"-nin sualını cavablandırarkən bildirdi ki, bunun ilkin səbəbi Paşinyanın bütün əleyhdarlarının, yəni həm sabiq prezidentlərin, həm kilsənin, həm Rusiyadakı diasporun, həm də "Daşnaksütyun" partiyasının və digərlərinin Ermənistanda narazı kütləni müxalif kütləyə çevirə bilməməsindədir. Onun sözlərinə görə, Paşinyana qarşı olan etiraz avtomatik olaraq müxalifətə rəğbət bəsləmək demək deyil: "Bəli, etiraz var. Amma bu etirazı siyasi müstəvidə, siyasi texnologiyalardan istifadə edərək müxalif kütləyə çevirmək mümkün olmur. Çox zəif lider seçilmişdi. Həmin lider ötən həftələr ərzində verdiyi bəyanatlarla, belə deyək, hazırlıqsız olması ilə özünü tamamilə məhv etdi. Paşinyan da bundan məharətlə yararlandı".

F.Məmmədovun sözlərinə görə, halbuki, Paşinyanın özünün də vəziyyəti bir o qədər yaxşı deyil. Çünki o, əvvəllər müxalifətin 10 min nəfərlik mitinqinə cavab olaraq, 20 minlik mitinq təşkil edirdi. Amma Nikol bu dəfə buna cürət etmədi. Daha çox polisin gücündən istifadə etdi və məsələnin həllini zamanın öhdəsinə buraxdı. Onun hesablamaları düzgün çıxdı. Polis kritik dövrdə müdaxilə edib etirazçı kütləni zərərsizləşdirə bildi. Digər tərəfdən Paşinyan məsələnin həllində etirazçıların liderinin zəifliyindən istifadə edərək ona nail oldu ki, bu gün etirazlar nəinki kütləvidir, heç sistemli də deyil.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev** isə qəzetimizə açıqlamasında bildirdi ki, Baqratın hərəkatının uğursuz olmasının iki başlıca səbəbi var: Birincisi, daxildən kütləvi dəstək görməməsi, yəni, çox dar çərçivədə dəstək görməsidir. Bu, əvvəlki illərdə müxalifətə verilən dəstəkdən çox deyildi. Uğursuzluğun ikinci səbəbi isə xaricdən yetərli dəstək görməməsidir.

C.Vəliyevin fikrincə, daxildən dəstək görməməsi Baqratı Ermənistanın keçmişini məhv etmiş siyasi liderlərin, yəni, Robert Koçaryanın və Serj Sarkisyanın nümayəndəsi olaraq tanıtdı: "Koçaryanın və Sarkisyanın dövründə Ermənistan korrupsiyaya bulaşmış, insan hüquqlarının kobud şəkildə pozulduğu, regionda təcrid edilmiş, kütləvi miqrasiyanın yaşandığı, iqtisadi vəziyyətin bərbad vəziyyətdə olduğu bir ölkə idi. Buna görə də insanlar düşündülər ki, Baqratın hərəkatı uğurlu olsa, həmin düşüncə və siyasət Ermənistanda təkrar idarəçilik modeli olacaq".

Müsahibimiz qeyd etdi ki, uğursuzluğun xarici siyasətlə də əlaqəsi var. Bəlkə də, artıq Ermənistan cəmiyyəti Azərbaycan və Türkiyə ilə düşmən olmaq istəmir: "Mənə elə gəlir ki, Paşinyan iqtidarı dövründə bununla bağlı aparılan təbliğatın da burada rolu var. Paşinyan tərəfdarları Koçaryan və Sarkisyanın dövründə çox uğursuz siyasət həyata keçrildiyini təbliğ edirlər".

İkinci Qarabağ müharibəsində məğlubiyyətə gəldikdə isə ekspert hesab edir ki, cəmiyyət uğursuzluğun səbəbi kimi Paşinyanın deyil, Koçaryan və Sarkisyanın siyasətini görürlər: "Cəmiyyətin bu cür düşünməsində Paşinyanın da rolu ola bilər. Çünki o, tez-tez açıqlama verir ki, əslində, Qarabağ məsələsi Koçaryan–Sarkisyan dövründə həll olunmuşdu, onlar işğal edilmiş ərazilərin Azərbaycana veriləcəyini bildirirdilər".

Politoloq onu da bildirdi ki, müxalifətin Rusiya ilə bağlı olma ehtimalı gündəmdə idi. Bu isə ictimaiyyət tərəfindən dəstəklənmədi. Ona görə də uğursuz oldu. Bundan əlavə, hərəkat xaricdən də dəstək görmədi. Çünki etirazçılar yeni müharibə, yeni qarşıdurma, Azərbaycana qarşı ərazi iddiasının davam etdirilməsinin həşirində idilər. Bu səbəbdən xaricdən də dəstək görmədilər. Hərəkat xaricdən dəstək görmədiyi səbəbindən daxildə də yayıla bilmədi. Əgər daxildə daha geniş yayılmış olsaydı, bəlkə xaricdən daha çox dəstək görərdi. Paşinyan etirazçılarla müqayisədə daha geniş dəstəyə malik olduğu üçün etirazçılara başqa ölkələrdən dəstək gəlmədi. Çünki xaricdəki qüvvələr də Baqratla bir yerdə, necə deyərlər, bataqlığa batmaq istəmədilər. Bütün bu səbəblərdən Baqratın hərəkatı bu gün fiaskoya uğramış durumdadır.

***Səxavət HƏMİD***
***XQ***

# Postmüharibə dövründə liderlik

II məqalə

***Kapitan daha yaxşısına ümid etməklə ən pisinə də hazır olmalıdır.***

***Frensis KORZYE***

Böhranlı və ya sürətlə dəyişən geosiyasi situasiyalarda dövlətin siyasətinin həm təhlili, həm də proqnoqstik aspektdə uğuru liderin şəxsi keyfiyyətləri ilə sıx bağlıdır. Qərb politoloji fikrində bu qənaət möhkəm yer almışdır. Liderliyə aid Rusiya fəlsəfi və politoloji araşdırmalarında da eyni qənaət mövcuddur (məsələn, fəlsəfə elmləri doktoru Y.Kudryaşovanın siyasi liderliyin sinergetik araşdırılmasına həsr edilmiş əsərləri). Liderin şəxsi keyfiyyətləri ilə uğurlu liderlik arasındakı bu sıx bağlantının isə hər bir ölkə və tarixi mərhələ üçün öz məzmunu mövcud olur. Buna görə də liderin şəxsi liderlik qüdrəti, tarixi situasiyanın özəllikləri və qlobal miqyasda mənzərənin xüsusiyyətləri aspektləri praktiki fəaliyyətdə vəhdət halında olmalıdır. Bu vəziyyətin mərkəzi faktoru isə liderin şəxsi keyfiyyətləridir.

Burada zəka, iradə, mənəvi-əxlaqi dəyərlər, bilgi genişliyi, psixoloji özəlliklər çox mühüm rol oynayır. Bunlarla yanaşı, liderin situasiyaya yanaşması özəlliyi proqnozlaşdırmada ciddi faktorlardır. Bu baxımdan "siyasi metodologiya" və "siyasi diaqnostika" anlayışları idarəetmədə və praktiki siyasi-diplomatik fəaliyyətdə mühüm məqamlardan sayılırlar. Bu anlayışlar üzərində yeni tarixi mərhələ kontekstində bir qədər geniş dayanaq.

## Liderin siyasi metodologiyası

Siyasi metodologiya, ümumilikdə, siyasətçinin (həm də araşdırmaçının) şüurunun siyasi reallığı dərk etmək üsuludur. Bu bağlılıqda siyasi metodologiya başqa bir maraqlı politoloji faktoru – siyasi mentallığın dərk edilməsini aktuallaşdırır. Yəni, siyasi metodologiya siyasətçinin şüurunu yalnız siyasi reallığı dərk etməyə istiqamətləndirmir, eyni zamanda, insanın siyasi mentallığının özünüdərki prosesini motivə edir. Deməli, siyasi liderin situasiyanı dərk etməyə yanaşması həm də onun siyasi mentallığının, kimliyinin təzahürüdür. Məsələnin bu tərəfi xüsusi böhranlı situasiyalarda daha əhəmiyyətli olur. Çünki siyasi liderin böhranlı situasiydan çıxmaq üsulu faktiki olaraq onun siyasi aspektdə zəkavi, iradi, emosional və mənəvi-əxlaqi kimliyi əsasında müəyyənləşir. Proqnozlaşdırmanın dəqiqliyi, müddəti və səmərəliliyi də bu faktordan çox asılı olur. Bu prosesdə isə liderin siyasi diaqnozlaşdırma qabiliyyəti prinsipial rol oynayır.

## Liderin siyasi diaqnostika qabiliyyəti

"Diaqnostika" ümumi halda "dərketmə qabiliyyəti" (yunanca) deməkdir. Lakonik ifadə etsək, siyasi diaqnostika siyasi situasiyanı peşəkarcasına qiymətləndirmə bacarığıdır. Bu anlamda siyasi hadisələr və proseslərin diaqnostikası aparılmasa, proqnozlaşdırmadan danışmaq imkansızdır. Yəni düzgün siyasi diaqnoz doğru proqnozlaşdırmanın təməlidir. Burada siyasi proseslərlə yanaşı, siyasi subyektlərin də dəqiq analizi lazımdır. Onların fəaliyyət istiqamətləri və funksional özəllikləri təhlil edilməlidir. Bundan sonra siyasi diaqnozun üsul və metodlarının düzgün müəyyən edilməsi olmalıdır.

Deməli, siyasi diaqnostika özlüyündə elmi və siyasi tərəfi ehtiva edən mürəkkəb və kompleks xarakterli prosesdir. Geniş anlamda diaqnostikanı proqnozlaşdırmanın tərkib hissəsi kimi də qəbul etmək olar. Hər bir halda, onlar bir-biri ilə sıx əlaqədə olurlar. Burada maraqlı olan diaqnostikanın tarixi mərhələnin xüsusiyyətlərindən asılı olmasıdır. Hər tarixi mərhələ üçün xüsusi yanaşma tələb olunduğundan burada diaqnostikada hansı faktorun nə dərəcədə nəzərə alınması liderin seçimindən asılıdır. Bu da siyasi diaqnostikaya liderin yaradıcı yanaşması zərurətini ortaya qoyur.



## Birinci mərhələnin siyasi proqnozlaşdırılması

"Birinci mərhələ" dedikdə, milli ideyanın "ərazi bütövlüyünün bərpası" kimi müəyyən edildiyi dövrü nəzərdə tuturuq. Həmin mərhələnin başlanğıcı milli ideyanın müəyyən edildiyi, sonu isə onun tam reallaşması tarixidir. Yəni 1993-2020-ci illər nəzərdə tutulur. Bu mərhələnin ilkin proqnozunu ulu öndər Heydər Əliyev vermişdir. 2003-cü ildən başlayaraq isə Prezident İlham Əliyev yaradıcı surətdə təhlilini aparmış və onun əsasında proqnozlaşdırmışdır. İlham Əliyevin siyasi diaqnozu dəqiq olmuşdur ki, 2020-ci ildə milli ideya tam həyata keçmişdir. Şübhəsiz ki, həmin diaqnoz əsasında Azərbaycan lideri siyasi proqnozaşdırmanı da düzgün vermişdir. Həmin mərhələdə siyasi diaqnozla siyasi proqnozlaşdırmanın əsas xüsusiyyətləri nədən ibarət olmuşdur?

Bizim təhlilimizə görə, Azərbaycan Prezidenti mövcud vəziyyətə üç faktorun qarşılıqlı əlaqəsində yanaşmışdır: lider, Azərbaycan üçün yaranmış real geosiyasi və siyasi situasiya (milli və regional miqyasların vəhdətində) və qlobal səviyyədə geosiyasi dinamika.

Bu üç faktorun mərkəzində liderin yüksək şəxsi keyfiyyətləri ilə siyasi-diplomatik məharətinin sintezi dayanır. Əslində, bu, zamanın tələbidir. Lider şəxsiyyət kimi elə yaradıcı və mənəviyyatca zəngin olmalıdır ki, hər bir gözlənilməz situasiyada milli maraqlardan çıxış edə bilsin. 2003-cü ildən bu yana Azərbaycan Prezidenti üçün sınaq kimi olan çox sayda situasiyalar meydana gəldi.

Məsələn, 2005-2008-ci illərdə Gürcüstan üçün xüsusilə çətin vəziyyətlər yarananda Prezident İlham Əliyev dövlət başçısı və lider kimi mərdanə, ədalətli, zəkalı, təmkinli və qətiyyətli şəkildə qonşu dövlətə dəstək oldu. Enerji layihələrinin reallaşmasından nəinki bir addım geri çəkildi, hətta Moskvanın belə qəbul etdiyi üsulla yoluna davam etdi – Gürcüstandakı açılış mərasimlərində iştirak etdi, yeni təşəbbüslər irəli sürdü.

2008-ci ildə məlum Rusiya–Gürcüstan münaqişəsi zamanı da İlham Əliyev çevik və ədalətli siyasəti ilə neft strategiyasını həyata keçirməkdə davam etdi. Xarici siyasətin bütün istiqamətlərində İlham Əliyevin real situasiyanı və dünya miqyasında geosiyasi prosesləri çox düzgün diaqnoz edərək proqnozlaşdırdığının təsdiqlərindən biri 2011-ci ilin oktyabrında baş verdi. O zaman müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq ölkəmiz BMT TŞ-nin müvəqqəti üzvü seçildi. 2012-2013-cü illərdə Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasına uğurla sədrlik etdi. Burada liderin proseslərə diaqnozu ilə proqnozlaşdırması arasında sıx əlaqəni aydın görə bilərik.

Məsələ onunla bağlıdır ki, Cənubi Qafqaz çox mürəkkəb geosiyasi dinamikanın mövcud olduğu və böyük dövlətlərin toqquşmalarının məkanı kimi, son dərəcə olduqca həssas bir vəziyyətdə idi. Lakin Azərbaycan liderinin yüksək zəkalı fəaliyyəti ölkəmizi hətta bu cür böhranlı vəziyyətdə dünya miqyasında nüfuzlu etdi. BMT-də Azərbaycanın lehinə böyük əksəriyyət səs verdi! Bu fakt real düzgün siyasi diaqnoz əsasında doğru proqnozlaşdırmanın birbaşa nəticəsidir!

Digər fakt kimi Azərbaycan Prezidentinin yenə də həmin illərdə Avropa İttifaqı siyasətini göstərə bilərik. O mərhələdə Aİ-nin Şərq Tərəfdaşlığı Proqramına "hurrey"lə gedənlər az deyildi. Onlar mənasına varmadan assosiativ üzvlüyə də "hə" dedilər. Azərbaycan Prezidenti isə dərin və əhatəli təhlili ilə düzgün strateji qərar qəbul etdi: Aİ ilə münasibətlər bütün istiqamətlər üzrə bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq şərtləri daxilində inkişaf etməlidir. Bu tezisin ədalətliliyinə İlham Əliyev öncə Brüsseli inandırdı. İndi məlumdur ki, bu, asan olmadı.

Təqribən 2010-2015-ci illər arasında müxtəlif sammitlər və görüşlərdə əsaslı izahlar Bakının haqlı olduğunu sübut etdi. Bununla Azərbaycan Prezidentinin təklif etdiyi əməkdaşlıq paketi müzakirəyə qəbul edildi.

2015-ci ildə Avropa İttifaqının özünün qonşuluq siyasətinə və geniş əhatədə xarici siyasətinə düzəlişlər etməyə məcbur olması İlham Əliyevin strateji proqnozlaşdırma qabiliyyətinin potensialını bir daha ortaya qoydu. Çünki Azərbaycan Prezidenti illər öncə məhz həmin istiqamətdə yeniliklərin zəruriliyini əsaslandırırdı.

Bu baxımdan Prezident İlham Əliyevin 2016-cı ildə neft strategiyasında yeniliklərin aparılması zərurətindən bəhs etməsi də öncədən proseslərin diaqnozu və proqnozlaşdırmaq qabiliyyətinin yüksək olmasını nümayiş etdirdi. Çünki 2016-cı ildən sonra geosiyasətdə, o cümlədən enerji sferasında baş verən hadisələr Prezident İlham Əliyevin təhlilinin çox doğru olduğunu təsdiq etdi.

Bu kimi faktlar İlham Əliyevin Azərbaycanın milli və regional miqyaslarda real vəziyyətini düzgün qiymətləndirməsi əsasında onun regional və qlobal təhdidlərdən, risklərdən uğurla qorumasının əlamətləridir. Əksər region dövlətləri maliyyə böhranından, müxtəlif kənar təsirlərdən və təhdidlərdən zərər gördüyü bir zamanda Azərbaycan dayanmadan inkişaf edirdi. Bütün ziddiyyətləri aşaraq enerji siyasətini, ordu quruculuğunu və daxili birliyi gücləndirirdi. Bu proses davamlı olaraq Azərbaycan Respublikasını regional liderə çevirirdi.

Deməli, çevik zəkaya əsaslanan və dərin təhlil nəticəsində addımlar atan Azərbaycan lideri regional miqyasda uğurun etibarlı bazasını yaradırdı. Bunu o dövrdə bəlkə də az adam anlaya bilərdi. Lakin 2020-ci ilin II Qarabağ savaşı göstərdi ki, regionda heç bir dövlət Azərbaycanın fəaliyyətinin qarşısında ciddi surətdə durmaq istəmir. Rusiya və İran da bura daxildir. Səbəbi məhz illərlə addım-addım həyata keçirilən siyasətlə bağlıdır. Həmin siyasət isə siyasi diaqnoza və düzgün proqnozlaşdırmaya əsaslanırdı.

Beləliklə, aydın olur ki, İlham Əliyev 2003-cü ildən başlayaraq dərin mənası və ciddi strateji hədəfi olan siyasi kursu davamlı həyata keçirmişdir. Əsas hədəf ərazi bütövlüyünün bərpası və suverenliyin bütün ölkə ərazisində təmini idi. Bu çərçivədə enerji siyasəti ilə milli təhlükəsizliyin təmini və müdafiə qüdrətinin artırılması tam şəkildə aparılırdı.

Azərbaycan Prezidenti, faktiki olaraq, bir neçə istiqamətdə mücadilə apardı. Cəmiyyət daxilində birliyi daha da gücləndirmək üçün multikultural daxili siyasəti daha da inkişaf etdirdi. Bura iqtisadi, sosial, mənəvi, əxlaqi sferalarla yanaşı, ideoloji istiqamət – azərbaycançılıq da daxildir. II Qarabağ savaşı konkret hərb meydanında göstərdi ki, Prezident İlham Əliyev həmin istiqamətdə böyük irəliləyişə nail olmuşdur.

Digər mücadilə istiqaməti regional geosiyasi mühitin nəzarət olunmayacaq səviyyədə qarışıq olmasına imkan verməməklə bağlıdır. Əslində, bu aspekt Prezident İlham Əliyevin həm siyasi prosesləri diaqnoz etmək, həm də onun əsasında düzgün proqnozlaşdırmaq qabiliyyəti baxımından çox az diqqət yetirilən istiqamətdir. Çünki söhbət Cənubi Qafqaz tarixində ilk dəfə olaraq yerli dövlətlərdən birinin regional geosiyasi dinamikanın müəyyən çərçivəni aşmaması üçün tənzimləməsi cəhdindən gedir. Bu məqam Azərbaycanın milli ideyasının reallaşması baxımından həyati əhəmiyyətə malik idi. Səbəbi nədən ibarətdir?

Doğrudan da, milli ideya son məqsəd kimi ərazi bütövlüyünün bərpası idisə, buna nail olmağa imkan verən bütün ssenarilər Azərbaycanın uğurlu olması üzərində qurulmalı idi. Burada əsas şərt Azərbaycanın siyasi-diplomatik aspektdə situasiyanı nəzarətdə saxlaması ilə yanaşı, arzuolunmaz sayılan (Azərbaycan üçün ən yaxşı ssenari dinc yolla ərazi bütövlüyünün təmini idi, çünki Bakı daim inkişaf paradiqmasına üstünlük vermişdir) müharibə ssenarisinə də regional mühitin uyğun olmasından ibarət ola bilərdi. Ona görə ki, regionda hər hansı xaos işğalda olan torpaqları azad etməyin qarşısına sədd çəkmək demək idi. Buna görə də Azərbaycan nəyin bahasına olursa-olsun "ən pis ssenari"də belə uğurlu olmağın formulunu tapmalı idi. Burada liderin zəkası ilə peşəkarlıq məharəti, siyasi-diplomatik qüdrəti harmoniya təşkil etməli idi.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ağ ev "valı" dəyişməkmi istəyir?

## ABŞ Dövlət katibinin Bakıya telefon zənginin doğurduğu assosiasiyalar

**İyirmi yeddi il ərzində münaqişənin nizamlanmasına vasitəçilik edənlər (ABŞ, Fransa və Rusiya – ATƏT-in Minsk qrupunun həmsədrləri), Bakıya və İrəvana "atəşkəsə riayət edin", "problemin hərbi yolla həlli mümkün deyil" çağırışlarını edənlər bu gün tərəflərə sərhədlərin müəyyənləşməsi, kommunikasiyaların açılması və sülh sazişinin tez bir zamanda imzalanması ilə bağlı tövsiyələrini verirlər. Kənardan xoş niyyətli görünən bu çağırışların altqatında yenə də ikili standartın, tərəfkeşliyin "quyruğu" görünməkdədir.**

Telefon təmasında Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin rəhbəri Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevlə bir çox məsələləri müzakirə edib. Amma nədənsə Ermənistanda konstitusiya islahatının aparılması, onun qonşu dövlətlərə ərazi iddiasından əl çəkməsi ilə bağlı məsləhət vermir. Ağ ev Bakı üçün bu çox vacib məsələdə İrəvana təzyiq etməkdənsə əvvəlki dövrlərdə edilən ədalətsizliyi "yada salır". Söhbət o ədalətsizlikdən gedir ki, iyirmi yeddi ildə Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistana təzyiqlər göstərməkdənsə, həmsədr ölkələr kimi, rəsmi Bakıya hansı güzəştlərə getməyi ilə bağlı "maraqlı" təkliflər irəli sürürdülər.

Amma bu gün vasitəçiliyi iflasa uğramış həmin "böyük güclər" əsas qanununda Azərbaycan torpaqlarını işğal və ilhaq etməyi nəzərdə tutan Ermənistanı bu istiqamətdə zəruri islahatlar aparmağa məcbur etməkdənsə, rəsmi Bakıya potensial işğalçı ilə tələm-tələsik sülh sazişini imzalamaq təklifini verirlər. Yəni, bu, o deməkdir ki, kollektiv Qərb Ermənistan amilindən bundan sonra da Azərbaycana qarşı təzyiq vasitəsi kimi yararlanmağa cəhd edəcəklər.

* * *

Qayıdaq ABŞ-ın baş diplomatının dövlətimizin başçısı ilə telefon danışığında toxunduğu məsələlərə. Antoni Blinken Ermənistan və Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi baxımından əldə olunmuş nəticələri təqdir edərək



ABŞ-nin iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesinə dəstəyini davam etdirməyə əzmli olduğunu vurğulayıb və tərəfləri tezliklə sülh müqaviləsini imzalamağa dəvət edib. O, iki ölkə arasında sülh gündəliyinin irəlilədilməsi baxımından nəticələri təqdir etməklə yanaşı, Birləşmiş Ştatların normallaşdırılma prosesinə dəstəyini davam etdirməkdə əzmli olduğunu vurğulayıb.

Bundan başqa, Dövlət katibi Vaşinqtonun Bakı ilə ikitərəfli əlaqələrə verdiyi əhəmiyyətindən danışaraq iqlim dəyişikliyi və "yaşıl enerji" sahəsində birgə məqsədlərə nail olmaq yolunda ölkələr arasındakı konstruktiv əməkdaşlığı da vurğulayıb.

Nikbin notlara köklənmiş açıqlamasında daha sonra A.Blinken ölkəsinin Azərbaycanla yenilənmiş və daha möhkəm ikitərəfli əlaqələri dəstəklədiyini bildirib. O, ABŞ-nin Azərbaycanda keçiriləcək COP29-un uğurla nəticələnməsi üçün səylərini əsirgəməyəcəyini də vurğulayıb.

"Onilliklərlə davam etmiş münaqişəyə son qoyacaq möhkəm və ləyaqətli sülh sazişi Cənubi Qafqazı transformasiya edəcək və Azərbaycanın regiondakı rolunu fundamental şəkildə dəyişəcək. Birləşmiş Ştatlar bu nəcib iddianı dəstəkləməyə hazırdır", – deyən Dövlət katibi Cənubi Qafqazda sabitliyin və qarşılıqlı əlaqələrin ölkəsi üçün prioritet olduğunu vurğulayıb.

Əslində, A.Blinkenin telefonda dedikləri ABŞ Prezidenti Co Baydenin keçən ay Bakıya ünvanladığı məktubunda vurğulanan məsələlərin davamı sayıla bilər. Sadəcə olaraq, Ağ evin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesinə əvvəlki münasibəti dəyişmədiyi, "valı" tam çevirmədiyi təqdirdə, Prezident İlham Əliyevin də bu məsələlərə yanaşmasının sabit qalacağı şübhəsizdir. Cənab Prezident Ağ ev rəsmisinin diqqətinə regionda sülhün təmin edildiyini, sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərin və onun mətninin təşəbbüskarının Azərbaycan tərəfi olduğunu çatdıraraq vasitəçisiz formatda sülh gündəliyinin irəli aparılması səylərinin davam etdirildiyini vurğulayıb. Bu mənada ABŞ-nin sülh gündəliyinə töhfə vermək əzmini yüksək qiymətləndirən dövlətimizin başçısı Ermənistanda konstitusiya, müvafiq qanunlar və ölkədaxili normativ-hüquqi aktlar əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının sülh gündəliyinin irəli aparılması baxımdan vacibliyini qeyd edib.

Telefon danışığının kənar müşahidəçidə doğurduğu assosiasiya ondan ibarətdir ki, rəsmi Bakı sülhün və regional əməkdaşlığın fəal tərəfdarı kimi çıxış edir. Çünki Azərbaycan həm regional, həm də beynəlxalq müstəvilərdə iqtisadi əlaqələri inkişaf etdirməkdə maraqlıdır. Axı, Cənubi Qafqazdan keçməsi nəzərdə tutulan Orta Dəhliz layihəsinin aparıcı iştirakçılarından biri məhz Azərbaycandır. Bu bölgədə üstün mövqeyə malik başqa dövlətin olmadığını Vaşinqtonda da yaxşı dərk edirlər. Ermənistan isə böyük gəlirlərə malik transmilli layihələrdə yalnız tranzit ölkə kimi iştirak edə bilər. Ona görə də İrəvan sülh və əməkdaşlıq kimi vacib məsələlərdən yan keçməməli, böyük layihələrdə iştirak ehtimalına siyasi alver predmeti kimi baxmaqdan əl çəkməlidir.

* * *

ABŞ-nin sülh gündəliyinə töhfə vermək əzmini yüksək qiymətləndirən dövlətimizin başçısı Ermənistanda konstitusiya, müvafiq qanunlar və ölkədaxili normativ-hüquqi aktlar əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının sülh gündəliyinin irəli aparılması baxımdan vacibliyini qeyd edib. Prezident İlham Əliyev, eyni zamanda, artıq keçmişin qalığı olan münaqişə səhifəsinin tamamilə bağlanması üçün qeyri-funksional olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün institutların fəaliyyətinə rəsmən xitam verilməsinin vaxtının çoxdan yetişdiyini sözlərinə əlavə edib.

Telefon danışığında Dövlət katibi Antoni Blinken Ermənistan və Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi baxımından əldə olunmuş nəticələri təqdir edərək ABŞ-nin iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesinə dəstəyini davam etdirməyə əzmli olduğunu vurğulayıb. Dövlət katibi ABŞ-nin Azərbaycanla ikitərəfli əlaqələrə verdiyi əhəmiyyəti qeyd edərək iqlim dəyişikliyi və enerji sahəsində birgə məqsədlərə nail olmaq yolunda ölkələrimiz arasındakı konstruktiv əməkdaşlığı təqdir etdiyini vurğulayıb.

Daha sonra telefon danışığı əsnasında iki ölkə arasında ali səviyyədə məktub mübadiləsi, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərindən məmnunluq ifadə edilib. Həmçinin insan hüquqları və demokratiya, ölkələrin daxili qanunlarının aliliyinə hörmət kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 303** **Bakı şəhəri, 14 iyun 2024-cü il**

**"Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır: "Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 304** **Bakı şəhəri, 20 iyun 2024-cü il**

**"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1103-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1103-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitin çirkləndirilməsinə görə ödənişlərin tətbiqi Qaydaları"nın 8-ci hissəsinin birinci cümləsində "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 231 (Cild I) ilə təsdiq edilmiş "Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi Qaydaları"nın 4-cü hissəsinin birinci abzasının ikinci cümləsində "istehsal və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 15 aprel tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4, maddə 207 (Cild I); 2024, № 1, maddələr 78, 116) ilə təsdiq edilmiş "Atmosfer havasının mühafizəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.10-cu bənddə "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

3.2. 2.14-cü bənddə "istehsalat və məişət tullantıları" sözləri "tullantılar" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 dekabr tarixli 526 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2242 (Cild I) ilə təsdiq edilmiş "Yaşıllıqların mühafizəsinə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.2.2-ci yarımbəndində "istehsalat və məişət tullantıları" sözləri "tullantılar" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 fevral tarixli 71 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 324 (Cild I) ilə təsdiq edilmiş "Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması Qaydası"nın 2.10.2-ci yarımbəndində ", istehsalat və məişət tullantıları" sözləri "və tullantılar" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 23 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 137 (Cild I) ilə təsdiq edilmiş "Yaşıllıqların müfəssəl siyahısının tərtib edilməsi qaydası, təyinatı və onlardan istifadə Qaydası (rejimi)"nın 4.2.2-ci yarımbəndində "istehsalat və məişət tullantıları" sözləri "tullantılar" sözü ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Baş prokuror vətəndaşlarla görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, iyunun 21-də baş prokuror Kamran Əliyev Binəqədi Rayon Prokurorluğunun inzibati binasında Bakı şəhərinin Binəqədi rayonu və digər bölgələrdən olan vətəndaşlarını qəbul edib.

Qəbulda iştirak edən 46 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

# Qırğızıstan səfirinin xidmət müddəti bitir

**İyunun 21-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Qırğızıstanın ölkəmizdəki səfiri Kayrat Osmonaliyevlə görüşüb.**



Görüşdə Azərbaycan ilə Qırğızıstan arasında mövcud olan dərin strateji tərəfdaşlıq münasibətlərindən, liderlər arasında artan siyasi təmaslardan və genişlənən əməkdaşlıqdan məmnunluq ifadə edilib.

Nazir Ceyhun Bayramov ölkəmizdə diplomatik fəaliyyəti müddətində Azərbaycan ilə Qırğızıstan arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişafında səylərinə görə qarşı tərəfə təşəkkür edib, ona gələcək işlərində uğurlar arzulayıb.

Səfir Kayrat Osmonaliyev Qırğızıstanın Azərbaycanda səfiri kimi çalışdığı müddətdə göstərilən dəstəyə görə təşəkkürünü bildirib, iki ölkə arasında strateji xarakter daşıyan tərəfdaşlığın bundan sonra da inkişaf edəcəyinə inamını ifadə edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan XİN Cozepin böhtanını cavablandırıb

**Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi/Aİ Komissiyasının vitse-prezidenti Cozep Borrel Avropa Parlamenti üzvlərinin suallarına cavabında "erməni məhbuslar"ın azad olunması və Qarabağ bölgəsini tərk etmiş ermənilərin hüquqları, o cümlədən öz evlərinə qayıtmaq hüququnun təmin olunması istiqamətində Azərbaycana çağırış edib.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə yerli medianın məsələ ilə bağlı sorğusuna cavab olaraq bildirib: "Əfsuslar olsun ki, bu cavab Aİ-nin ali nümayəndəsinin erməniləri razı salmaq, habelə heç bir mənəvi və faktiki əsası olmayan iddianı irəlilətmək üçün göstərilən növbəti cəhdidir. Biz bu yalan və təhrikedici iddiaları rədd edirik.

Azərbaycan 2020-ci il müharibəsindən sonra humanitar jest olaraq, habelə beynəlxalq humanitar hüquq üzrə öhdəliklərinə uyğun şəkildə hərbi əsir statusu olan və ya saxlanılan şəxs hesab edilən 200-dən çox ermənini azadlığa buraxıb və repatriasiya edib".

Açıqlamada qeyd edilir ki, həbsdə qalan müharibə cinayətkarları, separatçı liderlər və digər erməni əsilli şəxslər isə ya müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunur, ya da artıq bu cinayətlərə görə məhkum ediliblər, yaxud da onlarla bağlı istintaq prosesi davam ediR: "Aİ tərəfinin öz diqqətini Ermənistanın azərbaycanlı hərbi əsirlərə və mülki məhbuslara, eləcə də itkin düşmüş azərbaycanlılara qarşı qəddar rəftarına dair sübutlara yönəltməyi daha məqsədəuyğun olardı. Ermənistanın hərbi təcavüzü başlayandan bəri 3890-dan çox azərbaycanlı itkin düşüb və onların taleyi naməlum olaraq qalmaqdadır. İtkin düşənlərin 3171 nəfəri hərbçi, 719 nəfəri (71 uşaq, 267 qadın və 326 ahıl şəxs daxil olmaqla) isə mülki şəxslərdir".

Soa təəssüflə qeyd edilir ki, evlərindən zorla və amansızcasına didərgin düşmüş 1 milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqları ilə bağlı Aİ tərəfindən 30 ilə yaxın müddət ərzində heç bir narahatlıq və ya çağırışın şahidi olmamışıq: "Azərbaycan bu həlledici məqamda Aİ tərəfinin regionda sülh səylərini sarsıdan qərəzli bəyanatlardan çəkinəcəyini gözləyir".

***XQ***

# Əməkdaşlıq sazişi imzalanıb



**Belarusda səfərdə olan Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov bu ölkənin fövqəladə hallar naziri daxili xidmət general-mayoru Vadim Sinyavski ilə görüşüb.**

Belarus FHN-in Təhlükəsizlik Tədrisi Mərkəzində keçirilən görüşdə nazir Kəmaləddin Heydərov xalqlarımız və ölkələrimiz arasında dərin köklərə malik çoxşaxəli əlaqələrin Prezident İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenkonun siyasi uzaqgörənliyə və qarşılıqlı etimada söykənən səyləri nəticəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini xatırladıb.

K.Heydərov qeyd edib ki, fövqəladə halların idarə edilməsi sahəsində iki ölkənin fövqəladə hallar nazirlikləri arasında sıx əməkdaşlıq münasibətləri formalaşıb. Əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu vurğulayan nazir bu səfər çərçivəsində imzalanacaq müvafiq sənədin münasibətlərin dərinləşməsinə əlavə təkan verəcəyinə əminliyini bildirib.

Kəmaləddin Heydərov belaruslu həmkarını Müstəqil Dövlətlər Birliyinin Təbii və texnogen xarakterli fövqəladə hallar üzrə Dövlətlərarası Şurasının sədri seçilməsi münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Belarusun fövqəladə hallar naziri Vadim Sinyavski Minskdə keçirilən MDB Təbii və texnogen xarakterli fövqəladə hallar üzrə Dövlətlərarası Şurasının 36-cı iclasında və "Milli Təhlükəsizlik. Belarus – 2024" 2-ci Beynəlxalq Təhlükəsizlik Sənayesi Sərgisində iştirakına və təbrikinə görə Kəmaləddin Heydərova təşəkkürünü bildirib.

Belaruslu nazir hər iki dost ölkə arasında dövlət başçılarının məqsədyönlü fəaliyyətləri sayəsində ildən-ilə genişlənən əməkdaşlıq münasibətləri çərçivəsində fövqəladə hallarla mübarizə sahəsində iki qurum arasında yüksək səviyyəli əlaqələrin formalaşmasından məmnunluq ifadə edib. Qarşılıqlı səfərlərin, aparılan müzakirələrin münasibətlərin daha da genişlənməsində faydalı olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonra "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında 2006-cı il oktyabrın 17-də tarixində Minskdə imzalanmış əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsinə dair 2025-2027-ci illər üzrə tədbirlərin Kompleks Planı"nın imzalanması mərasimi olub. Kompleks Planı Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Belarusun fövqəladə hallar naziri Vadim Sinyavski imzalayıb.

***XQ***

# Ombudsman Ermənistanın mina terrorunu ittiham edir

**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Cəbrayılda baş vermiş mina partlayışlarını kəskin ittiham edib.**

Aqlamadaçi qeyd edilir ki, Ermənistanın Azərbaycan torpaqlarında işğal dövründə basdırdığı minalar mülki şəxslərin və hərbi qulluqçuların həyatına təhlükə yaratmaqda və son qoymaqda davam edir: "Azad olunmuş Cəbrayıl rayonu ərazisində son iki gündə baş vermiş partlayışlar nəticəsində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşı vəfat edib, bir neçə mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb. İşğaldan azad edilmiş ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına, eləcə də ekoloji problemlər və onların yaratdığı fəsadlarla mübarizə dövründə sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına ciddi maneə törədir".

Sənəddə beynəlxalq təşkilatların Ermənistanın mina terroruna biganə qalmamamasına, törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına, o cümlədən uşaq hüquqlarının kobud şəkildə pozulmasına sərt reaksiya verməsinə, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsir göstərilməsinə çağırış da ifadə olunub.

***XQ***

# "Taclı virus"un başı əzilsə də, fəsadları davam edir



**"23 illik karyeramda belə bir şey görməmişəm". Bu fikri amerikalı onkoloq Kaşyap Patel "Washington Post" qəzetinə açıqlamasında bildirib. O, COVID-19 pandemiyasından sonra insanlarda nadir xərçəng növlərinin gözlənilməz şəkildə müşahidə edildiyini qeyd edib. Həkim buna koronavirusun səbəb ola biləcəyini düşünür.**

Virusların xərçəng riskini artıra biləcəyi ehtimalı, ən azı, 60 ildir məlumdur. Əslində, bütün dünyada xərçəng xəstəliklərinin 15–20 faizinə HPV, Epstein-Barr və Hepatit B kimi yoluxucu virusların səbəb olduğu təxmin edilir. COVID-19 yeni virus olduğundan onun xərçənglə əlaqəsi ilə bağlı dəqiq cavab vermək hələ mümkün görünmür.

Digər tərəfdən, pandemiya başlayandan bəri maraqlı hallarla qarşılaşan həkimlər narahatdır. Onlardan biri – Kaşyap Patel 2021-ci ildə 40 yaşlı kişidə öd yolları xərçəngi aşkarlayıb. Bildirib ki, bu nadir, ölümcül xərçəng, adətən, 70–80 yaşlı insanlarda müşahidə olunur.

Karolina Qan və Xərçəng Dərnəyinin baş direktoru K.Patel həmkarlarının da oxşar nadir hallarla qarşılaşdıqlarını söyləyir. "Elə bil soyuqdəymədir, müraciət edən, narahat olanların çoxunda xərçəng var", – deyə həkim vəziyyəti izah edib.

O, 78 yaşlı xəstəsinə bir il ərzində qırtlaq, qaraciyər və ağciyər xərçəngi diaqnozu qoyub. Ailədə xəstəlik keçmişi olmayan Bob və Bonni adlı cütlükdə 14 ay ərzində 3 xərçəng xəstəliyi aşkarlanıb. 73 yaşlı Boba 2022-ci ildə xroniki lenfositik leykemiya, bu il isə ağciyər xərçəngi diaqnozu qoyulub. Bonninin qarnında isə, təxminən, 4 kilo ağırlığında xərçəngli kütlə aşkarlanıb.

Həkim deyib ki, xroniki lenfositik leykemiya çox nadir xərçəng növü olsa da, xəstələr tanıdıqları bir neçə insanda da bu xəstəliyin olduğunu bildirirlər.

Həkim hər üç xəstənin qanındakı koronavirus antikorlarının "pik həddə çatdığına" diqqət çəkib. Patel bunun xərçənglə əlaqəsini necə izah edə biləcəyindən əmin deyil. Ancaq onun fikrincə, müxtəlif xərçəng növlərinin bədənin müxtəlif nahiyələrində bu qədər qısa müddətdə görünməsi də qəribədir.

Nyu Yorkdakı "Cold Spring Harbor" Laboratoriyası Xərçəng Mərkəzinin direktoru və Amerika Xərçəng Araşdırmaları Assosiasiyasının keçmiş prezidenti Deyvid Tuveson hüceyrələrin xərçəngə çevrilməsinə koronavirusun səbəb ola biləcəyinə dair heç bir dəlil olmadığını bildirir. Digər tərəfdən, 2023-cü ildə nəşr olunan bir araşdırma virusun şişlərin meydana gəlməsinə mane olan və bütün bədəndə iltihaba səbəb olan genləri dəyişdirə biləcəyini göstərib. Bu iltihab müxtəlif orqanlarda xərçəng hüceyrələrinin yaranmasına da şərait yarada bilər. COVID-19 səbəbindən ölən xəstələrdə vaxtından əvvəl qocalmış hüceyrələrin olduğuna diqqət çəkən D.Tuveson deyib: "Koronavirus bədəni məhv edir və bu, xərçəngin yaranmasına səbəb ola bilər".

K.Patel isə iddia edir ki, virusa bir dəfədən çox yoluxmaq bütün bədəndə iltihabı gücləndirərək xərçəng hüceyrələrini yenidən aktivləşdirir. Bəzi ekspertlər isə ehtimal edirlər ki, xərçəng xəstəliyinin artmasına pandemiya dövründə səhiyyə xidmətlərində yaranan fasilələr səbəb olub. 2020-ci ildə dünyada 19,3 milyon yeni xərçəng hadisəsi olsa da, 2022-ci ildə bu rəqəm, təxminən, 20 milyona çatıb.

Amerika Xərçəng Cəmiyyətinin Sağlamlıq Xidmətləri Tədqiqatlarının elmi direktoru Şuesonq Han da hesab edir ki, xəstəliyin artması virusla bağlı qorxu və ya iqtisadi səbəblərə görə müalicənin təxirə salınması ilə bağlı ola bilər.

Bununla belə, COVID-19 virusunun bu məsələdə rol oynaya biləcəyini etiraf edən S.Han əlavə edib: "Mənim bu fikri dəstəkləyəcək məlumatım yoxdur. Ancaq bu, cavablandırılması vacib olan bir sualdır".

***Hazırladı:***
***Z.HÜSEYNOVA***
***XQ***

# "Azərkosmos" 10 ildə ölkəyə 590 milyon manat qazandırıb

**"Azərkosmos" Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1"in orbitə buraxılması ilə peyk xidmətlərinin kommersiya fəaliyyətinə başladığı 10 il ərzində 590 milyon manat gəlir əldə edib.**

Bu barədə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") publik hüquqi şəxsin ötən ilin yekunlarına dair hesabatında qeyd olunub. Bildirilib ki, 2023-cü ildə 45-dən çox ölkənin 200-dək şirkətinə telekommunikasiya, optik peyk və teleport xidmətləri təqdim edilib. Bu xidmətlər sayəsində 48 milyon manat həcmində gəlir əldə olunub. Xidmətlər üzrə gəlirlilik baxımından böyük pay sahibinə malik ölkələr arasında Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Almaniya, Nigeriya və Pakistan ilk sıralarda qərarlaşıb.

Ötən maliyyə ili ərzində "Azərkosmos" üçün ən vacib məqamlardan biri də uzunmüddətli dövrdə peyk layihələri ilə bağlı xarici valyutada götürülən kredit öhdəliklərinin tam ödənilməsidir. Məsələn, "Azerspace-1" peykinin istehsalı üçün ABŞ-nin "Orbital Sciences" (indiki Northrop Grumman Innovation Systems şirkəti) korporasiyasına ödənişlərin maliyyələşdirilməsi məqsədilə ABŞ-nin İxrac-İdxal Bankı ilə əməkdaşlıq nəticəsində 2011-ci ildə kredit sazişi imzalanıb və ümumi məbləği 116,6 milyon dollar olan kredit əldə edilib. 2013–2022-ci illər ərzində kredit ödənişləri heç bir gecikmə olmadan vaxtlı-vaxtında icra olunub. 2023-cü ildə kredit sazişi üzrə öhdəliklər tamamilə bağlanıb. Bu da, öz növbəsində, adı çəkilən agentliyin uzunmüddətli öhdəliklərinin yerinə yetirilməsində kifayət qədər dayanıqlı olduğunun göstəricisidir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına əsasən cari ilin I rübündə "Azərkosmos" 47 ölkəyə 4,7 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edib. Həmin dövr ərzində "Azərkosmos"un xidmət ixracından əldə olunan gəliri onun ümumi gəlirlərinin 78 faizinə çatıb.

"Azərkosmos"dan verilən məlumata görə, qurum bu göstəriciyə yüksək keyfiyyət amili ilə nail olub. "Azərkosmos" biznes fəaliyyətində Keyfiyyət və İnformasiya Təhlükəsizliyi Menecmenti Sisteminin tələblərini daim diqqətdə saxlayıb. Şirkətin ISO 9001 və ISO 27001 informasiya təhlükəsizliyi menecment sistemləri standartları üzrə uyğunluq sertifikatlarına malik olması da bu məsələdə önəmli rol oynayıb.

"Azərkosmos" məlumatları təhlükələrdən qorumaq üçün informasiya təhlükəsizliyinə hər zaman ciddi əməl edir. Bununla da daim xidmətlərin keyfiyyətinin və informasiya təhlükəsizliyinin artırılmasını, müştəri məmnuniyyəti səviyyəsinin qorunmasını və yüksəldilməsini, müştərilərə etibarlı peyk xidmətlərinin təqdim edilməsini gerçəkləşdirir.

"Azərkosmos", eyni zamanda davamlı olaraq əməkdaşların bacarıqlarına önəm verməklə görülən işin nəticəsini və keyfiyyətini artırmaq üçün həvəsləndirici təşəbbüslər irəli sürür, innovativ və elm yönümlü layihələr həyata keçirməklə insan kapitalının inkişafını sürətləndirir.




Telekommunikasiya, həmçinin coğrafi kəşfiyyat sahələri üçün yüksəkkeyfiyyətli peyk xidmətləri təqdim edən "Azərkosmos"un operatoru olduğu və 46° ş.u. (Şərq uzunluğu) orbital mövqeyində yerləşən "Azerspace-1" peykinin xidmət göstərdiyi "C" və "Ku" tezlik diapazonlarının idarəetməsi Azərbaycan hökumətinin adına qeydiyyata alınıb. Qeydiyyat Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) tərəfindən təsdiqlənib.

Məlum olduğu kimi, 2013-cü ildə orbitə buraxılan "Azerspace-1" telekommunikasiya peyki Malayziya administrasiyasına məxsus 46° ş.u. orbital mövqeyinin "C" və "Ku" tezlik diapazonlarında fəaliyyət göstərirdi. Bu diapazonların Azərbaycanın adına keçməsi isə o deməkdir ki, "Azerspace-1" peyki artıq Malayziyanın deyil, Azərbaycanın özünəməxsus orbitində fəaliyyət göstərir.

46° ş.u. mövqeyinin Azərbaycana verilməsi üçün fəaliyyətə 2020-ci il dekabrın 8-də zəruri sənədlərin BTİ-yə təqdim olunması ilə başlanılıb. Qlobal təcrübədə bir orbital mövqenin əldə olunması 7 illik fəaliyyət dövrünü əhatə etsə də, Azərbaycanın bu sahədə ixtisaslaşmış mütəxəssisləri tərəfindən bu proses 3 ilə tamamlanıb. Bu müddət ərzində Azərbaycan tərəfi, ümumilikdə, 34 ölkənin 265 peyk şəbəkəsi ilə bağlı koordinasiya danışıqlarını uğurla yekunlaşdıraraq razılaşmalar əldə edib.

Qeyd edək ki, 46° ş.u. mövqeyi Azərbaycanın geostasionar kəmərdə malik olduğu ilk və yeganə orbital mövqedir. Bu da Azərbaycanın gələcəkdə telekommunikasiya peyklərini heç bir dövlətdən asılı olmadan özünəməxsus orbital mövqedə, yəni 46° ş.u. yerləşdirməsinə imkan verir.

Telekommunikasiya, yayım və hava proqnozları üzrə fəaliyyətdə olan peyklər üçün artıq məhdud məkana çevrilən geostasionar kəmər ekvatordan təxminən 36 min kilometr yüksəklikdə yerləşir. Bu hündürlüyün əsas əhəmiyyəti odur ki, burada olan peyklər Yer səthi ilə eyni sürətlə fırlanır. Bunun sayəsində həm peyk operatorları, həm müştərilər, həm də evdən peyk vasitəsilə televiziya və radio izləyənlər antenlərini bir nöqtəyə tuşlanmış vəziyyətdə saxlayaraq peykdən davamlı siqnal ala bilirlər.

Dövlətlər özlərinin və ya onlara müraciət etmiş özəl şirkətlərin geostasionar kəmərdəki boş orbital mövqelərdən istifadəsi üçün rəsmi qaydada BTİ-yə müraciət edirlər. Həmin mövqelərdə yerləşəcək peyklər hazırda ya yığılır, ya da buraxılışını gözləyir. Geostasionar məkandakı peyk 15–20 illik ömrünün sonuna çatdıqda orbital mövqeyə sahib olan ölkə həmin mövqedəki peykini əvəz etmək imkanına malikdir. Bu tənzimlənmə prinsipi faktiki olaraq ölkələrə öz mövqelərini qeyri-müəyyən müddətə kimi saxlamağa imkan verir.

Kosmos sahəsinə yeni qoşulan bir ölkə heç də asanlıqla geostasionar orbitdə peyk yerləşdirə bilmir. Bunun üçün seçdiyi orbital mövqeni digər orbital mövqeyə sahib olan ölkələrlə razılaşdırmaq əsas şərtdir. Nəticə etibarilə geostasionar kəmər kimi məhdud resursa sahib ölkələr arasında artıq Azərbaycan da özünəməxsus orbital mövqeyi ilə söz sahibidir.

"Azərkosmos"un fəaliyyətində diqqətçəkən bir məqam isə odur ki, qurum Türkiyənin Ankara şəhərində keçirilən tədbirdə qardaş ölkənin peyk operatoru "Türksat"la kommersiya müqaviləsi imzalayıb. Bu müqavilə ilə "Türksat"ın "Azerspace-2" peykinin resurslarından Afrika bölgəsində "data" layihələrində istifadə edəcəyi, paralel olaraq "Azərkosmos" da "Türksat"ın yeni peyk texnologiyalarından faydalana biləcəyi nəzərdə tutulub.

Yeri gəlmişkən, burada "Azərkosmos"la bağlı bir yeniliyi də diqqətə çatdırmaq istərdik. Belə ki, qurumun yaydığı məlumata görə, ötən il Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində "Azərkosmos" və "Israel Aerospace Industries" (IAI) şirkəti arasında Azərbaycanın yeni müşahidə peyklərinin hazırlanması üzrə əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, "Azersky-2" proqramı çərçivəsində iki peyk hazırlanacaq. Bunlar yüksək ayırdetməli elektro-optik sensora malik Yerin məsafədən müşahidə peykləri olacaq.

IAI ilk peykin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağını azərbaycanlı mütəxəssislərin iştirakı ilə aparacaq. Peykə nəzarət və peyk təsvirlərinin emal olunmasına dair yerli mütəxəssislərə təlim keçiriləcək. Peyklər 2026-cı və 2028-ci illərdə orbitə buraxılacaq. Peyki orbitə qaldıracaq daşıyıcı raket isə növbəti aylarda məlum olacaq.

Bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a töhfə vermək məqsədilə "Azərkosmos" tərəfindən "Yaşıl siyasət" sənədi qəbul olunub. Eyni zamanda qurumun qlobal iqlim dəyişikliyinin Azərbaycanda təsirinə dair hazırladığı rəqəmsal iqlim platforması ictimaiyyətə təqdim edilib. Platforma "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr edilmiş konfransda nümayiş olunub.

Ötən ildən BMT-nin "Qlobal saziş" təşəbbüslərinə qoşulan "Azərkosmos" öz əməliyyatlarında kosmik aparatların inkişafı, buraxılışı, orbitdəki fəaliyyətini və kosmik obyektlərin idarə edilməsi zamanı ətraf mühitə təsirini minimuma endirməyi hədəfləyir.

Qeyd edək ki, iki ildə hazırlanmış yeni rəqəmsal platformada iqlim dəyişikliklərinin kosmik təsvirlər əsasında müqayisəli təhlili aparılıb. Platformadakı təhlillər beş istiqaməti – qar örtüyü və buzlaqlar, su ehtiyatları, quraqlıq və şoranlaşma, kənd təsərrüfatı əraziləri və atmosferin dəyişməsini əhatə edir.

"Azərkosmos"un məlumatında ölkəmizdə iqlim dəyişikliyinin kosmik monitorinqlər əsasında ilk belə müfəssəl rəqəmsal hesabatının "Azersky" peyki sayəsində ərsəyə gəldiyi bildirilir. Kosmik texnologiyaların üstünlüyü ondadır ki, Yer səthini müşahidə edən peyklər mövcud vəziyyətin və proseslərin dəyişmə dinamikasını araşdırmaqda aktual və optimal üsuldur. Peyk resursları böyük, əlçatmaz ərazilərin effektiv qiymətləndirilməsi üçün maddi xərclər və resurs baxımından optimaldır.

## "Azərişıq" Ağdamın elektrik təsərrüfatını yeniləyir

**İşğaldan azad edilən bütün regionlarda olduğu kimi, Ağdamın da elektrik təsərrüfatının yenilənməsi işləri sürətlə həyata keçirilir.**



"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) verdiyi məlumata görə, hazırda rayonda keyfiyyətli, dayanıqlı və etibarlı elektrik enerjisi təchizatı üçün müasir standartlara uyğun, yeni elektrik şəbəkəsi qurulur.

Bildirilir ki, Ağdam şəhərində tikinti-quraşdırma işləri aparan təşkilatların və strateji obyektlərin enerji ilə təmin olunması üçün xüsusi şəbəkələr yaradılıb. Hər birinin gücü 10 mVA olmaqla 35/04 kV-luq 2 yarımstansiya inşa edilib və gələcəkdə bu yarımstansiyalar vasitəsilə şəhər mərkəzinin işıqlandırılması nəzərdə tutulub.

Hazırda Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin tikintisi davam edir. Yenidən qurulan Kəngərli, Xıdırlı və Sarıcalı kəndlərində isə yeni dayaqlar basdırılıb, 35/04 kV-luq özünüdaşıyan izolyasiyalı naqillər çəkilib.

Gələcəkdə Güllücə, Baş Qərvənd və Salahlı Kəngərli kəndlərində də yeni xətlərin çəkilişi nəzərdə tutulub. Ümumilikdə, Ağdam şəhəri və kəndlərinin kabelləşdirilməsi şəhərsalma planına əsasən aparılır.

## Əhalinin gəlirləri 5 faiz çoxalıb

**Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, 2024-cü ilin yanvar-may aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz artaraq 31 milyard 899,3 milyon manat və ya hər nəfərə orta hesabla 3 min 131 manat olub.**




Qeyd edək ki, hesabat dövründə əhalinin sərəncamında qalan gəlirlər 27 milyard 941 milyon manat təşkil edib.

## Aqrar sektor 3 faiz böyüyüb



**Bu ilin yanvar-may aylarında Azərbaycanda 3 milyard 352 milyon manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz çoxdur.

Son bir ildə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 7,4 faiz artaraq 783 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1,7 faiz artaraq 2 milyard 569 milyon təşkil edib.

Ölkədə kənd təsərrüfatı məhsullarının yığımına başlanılıb. İyunun 1-nə kimi tarlalardan 89 min ton taxıl, 160,2 min ton kartof, 429,4 min ton tərəvəz, 33,6 min ton meyvə və giləmeyvə, eləcə də 453,5 ton yaşıl çay yarpağı yığılıb.

5 ay ərzində diri çəkidə 230,8 min ton ət, 915,1 min ton süd, 983,5 milyon ədəd yumurta, 11,4 min ton yun istehsal olunub. Ötən ilin yanvar-may ayları ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 0,6 faiz, yumurta istehsalı isə 7,1 faiz artıb.

# Azərbaycanın beynəlxalq daşımalarda payı getdikcə artır

**Bu ilin yanvar–may ayları ərzində yük və sərnişin daşımaları əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 3,4 faiz və 8,1 faiz artıb.**




Dövlət Statistika Komitəsinin məlumatına görə, nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 94 milyon ton yük daşınıb. Daşınmanın 3,6 faizi dəniz, 8,1 faizi dəmir yolu, 0,2 faizi hava, 57,8 faizi avtomobil nəqliyyatı ilə reallaşıb.

Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 5,2 faiz artıb. Daşınan yüklərin ümumi həcmində bu sektorun xüsusi çəkisi 77,9 faiz təşkil edib.

Bundan başqa, bu ilin yanvar–may aylarında nəqliyyatçılar 802,7 milyon sərnişinə xidmət göstəriblər. Sərnişinlərin 87,6 faizi avtomobil nəqliyyatı, 11,8 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb.

Hesabat dövründə dəmir yolu nəqliyyatı ilə 7,7 milyon ton yük, 3 milyon 268,8 min sərnişin daşınıb. Ötən ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 0,9 faiz, sərnişin daşınmasında isə 20,9 faiz artım müşahidə olunub. Orta hesabla sutkada 371 vaqon yüklənib, 422 vaqon isə boşaldılıb. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 17,2 min ton, Qərb istiqaməti üzrə 3,8 min ton, Cənub istiqaməti üzrə isə 0,8 min ton yüklənmə işi yerinə yetirilib.

Dəniz nəqliyyatı ilə bu ilin yanvar–may aylarında daşınan yüklərin həcmi 3 milyon 337,9 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,7 faiz azalıb. Yüklərin 50 faizini neft yükləri təşkil edib. Dəniz limanları tərəfindən 5 milyon 576,4 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib və yüklərin 4 milyon 468 min tonunu və ya 80,1 faizini tranzit yüklər təşkil edib. 2024-cü il iyunun ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 2 milyon 80,1 min ton olub. Hesabat dövrü ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2023-cü ilin müvafiq dövrünə nisbətən 26,7 faiz artaraq 10,9 min nəfər olub.

Avtomobil nəqliyyatı ilə 54,4 milyon ton yük, 702,9 milyon sərnişin daşınıb və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 7,7 faiz və 8,6 faiz artım qeydə alınıb. Sərnişinlərin 95,3 faizi avtobus, 4,7 faizi isə minik taksilərinin xidmətlərindən istifadə edib. Yük dövriyyəsi 10,5 faiz, sərnişin dövriyyəsi isə 9,7 faiz artıb.

Yuxarıda vurğulanan müsbət göstəricilər nəqliyyat sektorunda həyata keçirilən islahatların məntiqi nəticəsidir. Hazırda Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, bu sektorda da irihəcmli layihələr reallaşdırılır, respublikamız beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşması prosesinə fəal şəkildə qoşulur, eləcə də ölkənin tranzit potensialının artırılması istiqamətində mühüm addımlar atılır. Bütün bu tədbirlər isə yük daşımalarında yüksək göstəricilərin əldə edilməsi ilə nəticələnir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin məlumatına görə, ölkəmizin beynəlxalq yükdaşımalarda fəaliyyəti genişlənib, beynəlxalq avtomobil daşımalarına cəlb edilən nəqliyyat vasitələrinin sayı kəskin artıb. Bu artım bazarın şəffaflaşması nəticəsində "kölgə"də fəaliyyət göstərən daşıyıcıların qeydiyyata alınması, fəaliyyəti olmayan daşıyıcıların işini bərpa etməsi, bəzilərinin daxili bazardan beynəlxalq bazara keçidi və idxal olunan nəqliyyat vasitələrinin hesabına yaranıb.

Əlbəttə, bu, Prezident İlham Əliyevin sözügedən sahəyə göstərdiyi diqqətin bariz nümunəsidir. Yeri gəlmişkən, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar imzaladığı 29 mart 2023-cü il tarixli Fərmanla beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsi sahəsində gömrük orqanları üzərinə düşən vəzifə ləğv olunub. Eyni zamanda beynəlxalq daşımalarla bağlı nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" qanunla müəyyənləşdirilən dövlət rüsumu da aradan qaldırılıb.

Beləliklə, beynəlxalq daşımaların iştirakçısı olan respublikamıza məxsus avtomobil daşıyıcılarının Azərbaycanın geniş nəqliyyat-logistika imkanlarından fəal və səmərəli istifadə üçün əlverişli şərait yaradılıb. Bu cür qayda beynəlxalq daşımalar bazarında milli daşıyıcıların payının artmasına və beynəlxalq səviyyədə rəqabətliliyin yüksəlməsinə münbit zəmin yaradıb.

Göründüyü kimi, dövlətimizin başçısının yuxarıda adıçəkilən fərmanı Azərbaycanın son illərdə beynəlxalq daşımalar üzrə əldə etdiyi nəticələrin daha da yaxşılaşdırılması məqsədi daşıyır. Elə hazırda ölkə sərhədlərini keçən avtomobillərin sayının getdikcə artması da bu sahədə böyük perspektivlər vəd edir.

Azərbaycanın dünya standartlarına cavab verən magistral avtomobil və dəmir yolları, yol ötürücüləri və körpüləri beynəlxalq yük və sərnişin daşımaları üçün olduqca əlverişlidir. Ölkəmiz tarixi İpək Yolunun üzərində yerləşir, Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasında səmərəli körpü rolunu oynayır və bütün bunlar respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərində yüksək uğurlar əldə etməsinə əhəmiyyətli təsir göstərir. Prezident İlham Əliyev bununla bağlı çıxışlarının birində deyib: "Əlbəttə ki, Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çox imkanlar yaradır…Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar".

Dövlətimizin başçısı tərəfindən "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar 29 mart 2023-cü il tarixli fərman imzalaması da respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirakını şərtləndirmək baxımından mühüm önəm daşıyır.

Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilib, o cümlədən Avropa–Qafqaz–Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti gücləndirilib, Bakı–Tbilisi–Qars dəmir yolu istismara verilib, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı olub, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilib.

Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də ötən dövrdə digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı şərait yaradıb, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına nail olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# COP29 qlobal ekoloji böhranı cilovlamağa önəmli töhfə verəcək

**Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a hazırlıq məqsədilə Bakıda keçirilən "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantıda beynəlxalq aləmi narahat edən bir sıra problemlərin həlli istiqamətində fikirlər səsləndirilib. İclasda sağlamlıq və iqlim dəyişikliyinin kəsişməsinin dövrümüzün ən kritik çağırışları olduğu bildirilib, iqlim dəyişikliyinin mövcud sağlamlıq təhdidlərini gücləndirdiyi və yeni risklər yaradaraq ən həssas əhaliyə qeyri-mütənasib şəkildə təsir göstərdiyi diqqətə çatdırılıb.**




Toplantıda Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı maraqlı bir məqama toxunaraq qeyd edib ki, insanın fiziki vəziyyəti yaxşı olanda xəstəlikdən danışmır. Lakin sağlamlıq təhlükə ilə üzləşəndə indiyədək yaşanılmayan narahatlıq baş qaldırır və bu, bir nömrəli prioritetə çevrilir. Bir neçə il bundan əvvəl dünyanı ağuşuna alan COVID-19 bunun bariz ifadəsidir. Belə bir təhlükəli bəla dünya ictimaiyyətinə dəhşətli sarsıntılar yaşatsa da, xalqları xəstəliyi aradan qaldırmaq yolunda birləşdirdi, birgə mübarizədə yaşamaq instinktini işə saldı.

ÜST nümayəndəsi daha sonra deyib: "Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, COVID-19 bizə, təxminən,14 trilyon dollara başa gəlib. Təkcə karantin xərcləri qlobal ÜDM-in 9 faizini təşkil edib. Biz etimad institutlarının itirilməsinin hələ də davam edən ictimai iğtişaşların və çoxtərəfli qərarların qəbuluna təsirlərinin dəyərini hesablaya bilmirik".

H.Harmancının sözlərinə görə, indi COP29 adlı başqa bir çoxtərəfli qərarın qəbuletmə prosesinə hazırlıq görülür. Söhbət, şübhəsiz ki, ekzistensial problemdən, iqlim dəyişikliyindən gedir. Amma bu dəfə, necə deyərlər, qaçıb qapıları bağlamağa yer yoxdur.

ÜST nümayəndəsinin ciddi narahatlığı açıq-aşkar sezilir. Bu, sözügedən iclasda iştirak edən digər nümayəndələrin çıxışlarında da nəzərə çarpır. Məsələn, BMT Baş katibinin müavini, təşkilatın Sivilizasiyalar Alyansının Ali Nümayəndəsi Migel Anxel Moratinos sözügedən toplantı iştirakçılarına videomüraciətində bu gün bəşəriyyətin hərəkətsizliyə və iqlimə görə fəlakət astanasında olduğunu bildirərək əlavə edib ki, planetin xilası geosiyasi parçalanmanın girovuna çevrilməməlidir: "Unutmayaq ki, problemin həlli təkcə iqlimə deyil, iqtisadi rifaha və davamlı inkişafa da kömək etmək imkanı yaradır. İqlim dəyişikliklərini həll etmək planeti və həssas insanları qorumaq deməkdir".

"COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda keçirilən tədbirdə çıxış edənlər dünyadakı icmaların iqlim dəyişikliyinin təsirindən əziyyət çəkdiklərini, beynəlxalq ictimaiyyətin havanın temperaturunun yüksəlməsinin 1,5 Selsi dərəcədə saxlanılması ilə bağlı Paris sazişindən irəli gələn öhdəlikləri yerinə yetirmədiyini vurğulayıblar. Eyni zamanda, iqlim dəyişikliyi ilə mübarizədə maliyyəyə ehtiyac duyulduğunu, bu məsələdə dövlət sektoru ilə yanaşı, özəl sektorun da məsuliyyət daşıdığını qeyd ediblər.

COP29 Təşkilat Komitəsi Katibliyinin rəhbəri, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Həbib Mikayıllı da çıxışında iqlim dəyişikliyi ilə mübarizədə maliyyənin mühüm önəm daşıdığını diqqətə çatdıraraq qeyd edib ki, COP29-un əsas mövzusu maliyyə məsələləridir: "Maliyyələşdirmə olmadan iqlim dəyişikliyinin mənfi nəticələrini aradan qaldırmaq mümkün deyil. Bu 6 ay ərzində bizim COP29 komandamız müxtəlif danışıqlar qruplarına daxil olan ölkələrlə məsləhətləşmələr apararaq onların fikirlərini dinləmək, prioritetlərini, mövqelərini anlamaq üçün dünyanın müxtəlif yerlərinə səfərlər edib və bu səfərlər çox uğurlu olub.

COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev isə çıxışında iqlim dəyişikliklərinə qarşı vəsaitin artıq mövcud olduğunu, lakin onu bazarlara çatdırmaq mexanizminin hələ işlənilmədiyini vurğulayıb. Y.Rəfiyev daha sonra dünyanın inkişaf etmiş ölkələrində iqlim dəyişikliklərinin maliyyələşdirilməsinin qrant layihələri formasında gerçəkləşdirildiyini, bu sahədə maliyyələşdirmənin nə qədər böyük əhəmiyyət daşıdığını bildirib.

Y.Rəfiyev qeyd edib ki, sözügedən sahədə özəl sektorun da iştirakı çox vacibdir. "Biz təkcə dövlət vəsaitinə güvənməməliyik, çünki söhbət gedən mükafatları, milyardları təkcə dövlət vəsaitlərinin resursları hesabına ödəmək mümkün deyil. Biz mütləq özəl sektoru COP29-a cəlb etməliyik. Bir sıra ölkələrdə iki istiqamətə və potensial investorlara, həmçinin korporativ sosial məsuliyyət portfelinin bir hissəsi kimi korporativ sosial məsuliyyətə ehtiyac duyulur. Digər bir məsələ dövlətlərin ölkə platformaları kimi bəzi təşəbbüslərlə çıxış etmələri, bəzi təşəbbüslər irəli sürmələridir", - deyə nazir müavini əlavə edib.

Yeri gəlmişkən, islasda COP29 çərçivəsində daha çox nüvə təhlükəsizliyi, iqlim probleminin həllində ən son texnologiyaların və ideyaların cəlb olunması, investisiya qoyuluşlarının diqqətdə saxlanılması və "yaşıl" innovasiyaları dəstəkləmək üçün elm-tədqiqat işlərinin sürətləndirilməsi mövzularının əhəmiyyəti də vurğulanıb.

## "Yaşıl ideya" və "yaşıl texnologiya"lar istiqamətində yeni təşəbbüslər



**İnformasiya Texnologiyaları İnstitutunda uzun illərdir ki, rəqəmsal transformasiyalar şəraitində "yaşıl texnologiya"larla bağlı tədqiqatlar aparılır, "yaşıl iqtisadiyyat" və ekologiya kimi problemlərə böyük diqqət ayrılır.**

Bu barədə AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev açıqlaması zamanı bildirib.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını ölkəmiz üçün əlamətdar hadisə kimi qiymətləndirən akademik Rasim Əliquliyev dövlət başçısının sözügedən sərəncamından irəli gələn vəzifələr haqqında məlumat verib. Hazırda bütün dünyada, o cümlədən Azərbaycanda enerji təhlükəsizliyi məsələlərinə böyük əhəmiyyət verildiyini qeyd edən AMEA-nın vitse-prezidenti ən müasir texnologiyaların ölkəmizdə geniş tətbiq olunması ilə yeni iqtisadi sahələrin meydana gəlməsi, enerji istehsalı, enerji təhlükəsizliyi istiqamətində mühüm addımların atıldığını vurğulayıb.

AMEA-nın vitse-prezidenti ölkəmizin indiyədək nüfuzlu beynəlxalq təşkilatların siyasi, iqtisadi və humanitar problemlərə həsr olunmuş əhəmiyyətli tədbirlərinə evsahibliyi etdiyini bildirib. R.Əliquliyev, eyni zamanda, bu il ən böyük beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un ölkəmizdə keçirilməsinə dair qərarı mühüm hadisə kimi qiymətləndirib. Akademik belə bir mötəbər tədbirin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəldilməsi baxımından böyük siyasi və iqtisadi əhəmiyyət kəsb etdiyini də diqqətə çatdırıb. AMEA-nın vitse-prezidenti, həmçinin COP29-un iqlim dəyişikliyinin azaldılmasına və "yaşıl enerji"dən istifadəyə yönələn qlobal təşəbbüslərin təşviqində mühüm rol oynayan beynəlxalq tədbirlərdən olduğunu xatırladıb.

"COP29 ölkəmizdə "yaşıl ideyalar"ın reallaşması istiqamətində institusional və kompleks tədbirlərin həyata keçirilməsinə təkan verəcək", - deyən institut direktoru tədbir zamanı dünyanın "düşünən beyinləri"nin ölkəmizdə cəmləşəcəyini qeyd edib.

R.Əliquliyev COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsinin müvafiq qurumlar qarşısında da mühüm vəzifələr qoyduğunu diqqətə çatdıraraq aidiyyəti dövlət qurumlarının bu prosesdə yaxından iştirak edəcəyini vurğulayıb. Ənənəvi iqtisadiyyatın "yaşıl iqtisadiyyat"a transformasiya olunması üçün cəmiyyətimizdə "yaşıl mədəniyyət"in formalaşdırılmasının önəminə toxunan AMEA-nın vitse-prezidenti rəhbərlik etdiyi İnformasiya Texnologiyaları İnstitutunun alimlərinə "yaşıl ideya", "yaşıl texnologiya"lar istiqamətində yeni təşəbbüslər irəli sürməklə bağlı tapşırıqların verildiyini qeyd edib. Akademik R.Əliquliyev institutda "yaşıl cəmiyyət"in formalaşması məsələləri ilə bağlı tədqiqatlara başlanıldığını və bu araşdırmaların nəticələrinin ölkəmizdə "yaşıl texnologiyalar"ın tətbiqi istiqamətində aparılan işlərə, həyata keçirilən tədbirlərə elmi baxımdan ciddi dəstək verəcəyinə əminliyini də diqqətə çatdırıb.

# İstilik dalğaları insan sağlamlığının qənimidir

**İsti yay günü. Günəş amansızcasına yandırır, asfalt ayaqların altında əriyir, hava qızmar istilikdən titrəyir. Belə şəraitdə isə yalnız sərinliyə çəkilmək istəyirsən. Lakin bu, bir çoxumuz üçün, sadəcə, bir istək deyil, həyat və ölüm məsələsidir.**



Bir neçə gün bundan əvvəl "Sağlam gələcəklərin proqnozlaşdırılması (FHF)" Qlobal Sammiti kollektiv biliklərimizi qurmaq, yeni və mövcud tərəfdaşlıqları gücləndirmək, həmçinin maarifləndirmə və siyasi iradə əsasında birlikdə hərəkət etmək imkanlarını müəyyənləşdirmək üçün Bakıda iqlim, eləcə də sağlamlıq istiqamətində fəaliyyət göstərən təşkilatların müxtəlif maraqlı tərəflərini bir araya topladı.

İstilik dalğaları, sadəcə, qızmar günlər deyil, bir neçə gün və ya həftə davam edə bilən anormal isti hava dövrləridir. Bu dalğalar təkcə yay istirahətinin səmərəliliyini azaltmır, həm də insanların, xüsusilə də yaşlılar, uşaqlar və xroniki xəstəlikləri olan kimi həssas qrupların sağlamlığı üçün ciddi təhlükə yaradır.

İqlim dəyişiklikləri dünya üzrə ətraf mühitə və insan həyatına təsir edən müxtəlif hava hadisələrini daha sıx və şiddətli hala gətirmişdir. Bunlardan biri də istilik dalğalarıdır. İstilik dalğaları qısa müddət ərzində adi haldan daha yüksək temperatur dəyərlərinin qeydə alındığı hadisələrdir. Bu hadisələr insan sağlamlığına çox ciddi təsir göstərməklə yanaşı, iqtisadiyyata da zərər vurur.

İstilik dalğalarının səbəbləri və mexanizmlərindən bəhs edərkən, ilk növbədə, iqlim dəyişikliyinin atmosferdəki karbon dioksid və digər istixana qazlarının artması nəticəsində meydana gəldiyini xatırlatmaq istərdim. Belə ki, bu qazlar istilik tutumunu artıraraq qlobal temperaturu yüksəldir və istilik dalğalarının daha tez-tez, eyni zamanda, şiddətli baş verməsinə səbəb olur.

Şəhər istiliyi adası effekti isə böyük şəhərlərdə binaların və yolların çoxluğu, bitki örtüyünün azlığı səbəbi ilə yaranır. Bu, şəhər ərazilərində temperaturun ətraf kənd yerlərinə nisbətən daha yüksək olmasına gətirib çıxarır. Atmosfer sirkulyasiyasında dəyişikliklərə gəldikdə isə bu, iqlim dəyişikliyini dəyişdirə bilir. Bununla da istilik dalğalarının daha uzun müddət davam etməsinə və daha geniş ərazilərdə qərarlaşmasına şərait yaranır.

İstilik dalğaları insan sağlamlığına termal stres və fizioloji təsir göstərir. Bu zaman yüksək temperatur bədənin temperatur tənzimləmə qabiliyyətini zəiflədərək istilik yorğunluğu və istilik vurması kimi problemlərə səbəb ola bilər. İstilik vurması bədən temperaturunun sürətlə yüksəlməsinə və orqan zədələnməsinə gətirib çıxarar.

Dehidrasiyada isə isti havalarda tərləmə yolu ilə bədən daha çox maye itirir. Bu vəziyyət dehidrasiya, elektrolit balansının pozulması və nəticədə böyrək funksiyalarının zəifləməsinə gətirib çıxara bilər.

Xroniki xəstəliklər və əlavə risklərdən bəhs edərkən isti havanın qan dövranı sisteminə əlavə stres təsiri göstərməsi və ürək-damar xəstəlikləri olan şəxslər üçün risk faktoru yaratması da xatırladılmalıdır. Ümumiyyətlə, xroniki xəstəliklər yüksək temperatur, infarkt və ya insult riskini artırır. Tənəffüs xəstəliklərində isə istilik dalğaları zamanı havaalma keyfiyyəti aşağı düşür. Çirklənmiş hava astma, xroniki obstruktiv ağ ciyər xəstəliyinə (KOAH) və digər tənəffüs problemlərinə səbəb olur. Diabet xəstələri də istilik dalğaları zamanı daha yüksək risk altında olur, çünki yüksək temperatur insulin tənzimləməsini və qlikoz metabolizmini poza bilər.

İstilik dalğaları yalnız fiziki sağlamlıq problemlərinə deyil, həm də psixoloji problemlərə səbəb ola bilər. Yüksək temperatur stres, narahatlıq, yuxusuzluq və depresiyanı şərtləndirər. Xüsusilə, uzun müddət davam edən istilik dalğaları sosial şəraitə və iş həyatına mənfi təsir göstərərək psixoloji sağlamlığı daha da pisləşdirə bilər.

Yaşlı insanlar bədən temperaturunu tənzimləməkdə çox çətinlik çəkirlər və istilik dalğalarına qarşı daha həssasdırlar. Onların bədən funksiyaları və müdafiə mexanizmləri yaşlandıqca zəifləyir, bu da istilik stresinə qarşı müdafiəni azaldır.

Uşaqların bədənləri yüksək temperatura daha həssasdır, çünki onların tənzimləmə sistemləri tam inkişaf etməmişdir. Onların istilik vurmasına və digər istiliklə əlaqəli problemlərə qarşı müqaviməti azdır.

Diabet, ürək-damar, tənəffüs və digər xroniki xəstəlikləri olan insanlar istilik dalğalarından daha çox təsirlənirlər. Bu xəstəliklər bədənin normal funksiyalarını zəiflətdiyindən istilik stresi daha ciddi problemlərə səbəb ola bilər.

Az gəlirli ailələr və evsizlər kimi sosial və iqtisadi cəhətdən zəif qruplar istilik dalğalarının təsirlərinə qarşı daha müdafiəsizdirlər. Onların kondisioner və ya sərin yerlərə çıxış imkanı məhdud olduğundan istilik stresindən daha çox əziyyət çəkirlər.

Vəziyyətdən çıxış yolu kimi, ilk növbədə, evlərdə və iş yerlərində kondisioner və sərinkeşlərin istifadəsi zəruridir. Bu, istilik stresini azaltmaq üçün vacibdir. İnsanlar günün ən isti saatlarında sərin yerlərdə olmağa çalışmalıdırlar.

Dehidrasiya riskini azaltmaq üçün bol su içmək də vacibdir. Alkoqol və kafein tərkibli içkilərdən uzaq durmaq lazımdır, çünki bunlar bədənin su itirməsini artırır. Bundan başqa, yüngül, geniş və açıq rəngli paltarlar geyinmək, kölgədə qalmaq və günəşdən qoruyucu vasitələrə üstünlük vermək istilik stresini azaltmağa kömək edir.

İstilik dalğaları zamanı ictimaiyyətin məlumatlandırılması vacibdir. İnsanlara istilik dalğalarının riskləri və qorunma yolları barədə məlumat verilməlidir. İctimai yerlərdə sərinləmə mərkəzlərinin açılması xüsusilə də az gəlirli və evsiz insanlar üçün vacibdir. Bu mərkəzlər insanların yüksək temperaturdan qorunmasına kömək edə bilər.

Sağlamlıq sistemlərinin istilik dalğalarına hazırlıq vəziyyətində olması da zəruridir. Təcili yardım xidmətləri və xəstəxanalar istilik dalğaları zamanı artan xəstə sayına hazır olmalıdır.

İstilik dalğaları üçün erkən xəbərdarlıq sistemlərinin tətbiqi insanların vaxtında tədbir görməsinə və özlərini qorumasına kömək edir.

Beləliklə, istilik dalğaları iqlim dəyişikliyinin nəticəsi olaraq dünyada tez-tez baş verən və narahatlıq doğuran hava hadisələridir. Bu hadisələr insan sağlamlığına ciddi təhlükələr yaradır və xüsusilə yaşlılar, uşaqlar, xroniki xəstəliklərdən əziyyət çəkənlər və sosial-iqtisadi vəziyyəti zəif olanlar üçün böyük risklər daşıyır.

İstilik dalğalarının təsirlərini azaltmaq üçün sərinləmə strategiyaları, ictimai sağlamlıq tədbirləri və fövqəladə hallar üçün hazırlıq planları vacibdir. Yalnız bu şəkildə istilik dalğalarının insan sağlamlığı üzərindəki mənfi təsirlərini minimuma endirmək mümkündür.

***Gülşən AXUNDOVA,***
***Qadın, İnkişaf, Gələcək İctimai Birliyinin sədri, COP29 Təşkilat Komitəsinin üzvü***

## Yüksək Səviyyəli 29-cu Toplantı işini Zəngilanda davam etdirib



**Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a hazırlıq məqsədilə iyunun 19-da Bakıda işə başlayan "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı dünən işini Zəngilan rayonunda panel iclaslarla davam etdirib.**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin moderatorluğu ilə keçirilən "Azərbaycanın öz təcrübəsindən dərslər" mövzusuna həsr olunan birinci panel iclasında çıxış edənlər ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləməsindəki nailiyyətlərindən danışıblar, bəşəriyyətin iqlim dəyişikliyi, sosial bərabərsizlik, ekoloji ədalətsizlik kimi ciddi qlobal problemlərlə üzləşdiyini vurğulayıblar, eyni zamanda, Preziden İlham Əliyevin rəhbərliyi ilə bu çağırışların həllinə və davamlı inkişafa yönəlmiş təşəbbüslərin həyata keçirilməsinə sadiq qaldığını diqqətə çatdırıblar.

Bildirilib ki, Azərbaycanda innovativ resursların idarə edilməsi dayanıqlı "yaşıl iqtisadiyyat"a keçid üçün təməl yaradıb. Respublikamız iqlim dəyişikliklərinə xüsusi həssaslıqla yanaşıb.

Həmçinin qeyd edilib ki, regionda tamamilə böyüməyə can atan, transformasiya edən iqtisadiyyat daha çox bərpaolunan mənbələrə əsaslanır. Azərbaycan artıq bərpaolunan enerji mənbələrindən əldə edilən enerjini ixrac etməyə başlayır.

***

Sonra "Siyasət: Lobbiçilər, Gənclər, qadın qrupları, fəallar və ictimaiyyətin iştirakı" mövzusunda keçirilən panel iclasında çıxış edənlər - Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ictimaiyyətlə əlaqələr üzrə meneceri Mehri Hüseynli, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin böyük britaniyalı gənc lideri Manas Çavla, polşalı Klau Chmielowska və hindistanlı Noel Jackson gənclərin, qadınların və ictimai fəalların iqlim dəyişikliyinin təsirlərinin azalmasındakı fəaliyyətlərindən danışıblar. Onlar həmin qrupların maarifləndirmə və siyasət dəyişikliklərinə təkan vermək üçün yorulmadan çalışdıqlarını vurğulayıb, iqlim fəaliyyətində yerli bilik və liderliyin mühüm rolunun nümayişinin vacibliyini diqqətə çatdırıblar.

***

"COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantının iştirakçıları iyunun 21-də Zəngilan məscidində və "Ağalı" hotelində olublar.

***Hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" hərəkatına dəstək təntənəsi

**Qədim türk yurdu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə ikinci dəfədir ki,"Qərbi Azərbaycana qayıdış" festival-konqresi keçirilir.**

Bu ümumxalq hərəkatına dəstək aksiyasının qonaqları və çoxsaylı yerli iştirakçıları ilk gündə Zəngəzur Milli Parkının Batabat yaylağında "Qərbi Azərbaycana qayıdış" festival-konqresinin rəsmi açılış mərasimində və möhtəşəm festival təntənəsində Qərbi Azərbaycan İcmasının fəalları və muxtar respublikada illərdən bəri məskunlaşmış qaçqın soydaşlarımızla birlikdə şənləndilər, əzəli yurd yerlərimizə dönüş əzmini inamla nümayiş etdirdilər.

Ulu Dədə Qorqud timsalında aksiyaya xeyir-dua verildi. Oğuz elinin çaparları Batabat yaylağının yüksəkliklərində qədimlərdə olduğu kimi 3 tonqal qaladılar. Sonra "Zəfər" kompozisiyası təqdim olundu. Əlahiddə Ümumqoşun Ordunun Şuşayadək zəfər yolu keçən qəhrəmanları Şuşaya sancılan və Zəfər paradında nümayiş etdirilən Zəfər Bayrağını meydana gətirdilər. Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

2023-cü ilin antiterror tədbirlərində əldə etdiyimiz möhtəşəm qələbəyə həsr olunmuş "Zəfər marşı" ifa olundu. Naxçıvan Dövlət Universiteti Tələbə Teatr Studiyası tərəfindən "Dərələyəz" kompozisiyası təqdim edildi. Ötən il keçirilmiş "Qərbi Azərbaycana qayıdış" festival-konqresindən yaddaqalan məqamları əks etdirən videoçarx nümayiş olundu.

Festival-konqresin plenar iclasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iştirakçıları salamlayaraq aksiyaya uğur arzuladı. Bildirdi ki, 2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya qəbul olunub, bu istiqamətdə konkret tədbirlərin icrasına başlanılıb. Naxçıvanda keçirilən növbəti "Qərbi Azərbaycana qayıdış" festival-konqresi də ölkəmizdə bu sahədə görülən işlərin tərkib hissəsi olmaqla yanaşı, həm də xalqımıza qarşı törədilmiş haqsızlıqlara bir daha nəzər salmaq fürsəti yaradacaqdır.

Səlahiyyətli nümayəndə vurğuladı ki, qaçqın soydaşlarımızın öz əzəli torpaqlarında yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Məhz bu səbəbdən də Zəngəzurda, İrəvanda və digər əzəli Azərbaycan torpaqlarında yaşamaq hüququnu beynəlxalq birlik qarşısında qaldıran xalqımız əmindir ki, Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışın davamı olaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Qərbi Azərbaycana qayıdış da reallaşacaqdır.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresi üçün zəngin proqram hazırlandığını diqqətə çatdıran Fuad Nəcəfli plenar və bölmə iclaslarındakı çıxışların, aparılan müzakirələrin ümumi məqsədə çatmaq üçün səmərəli olacağını bildirdi.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev builki festival-konqresin Azərbaycanın dilbər guşələrindən biri olan Batabat yaylağında təşkil olunmasının daha bir özünəməxsusluğunu diqqətə çatdırdı. Nazir qeyd etdi ki, festivalın təşkil olunduğu bu füsunkar məkandan cəmi bir neçə kilometr məsafədə vaxtilə həmvətənlərimizin yaşadıqları Qərbi Azərbaycan kəndləri yerləşir. Yəni builki festival bizi həm ruhən, həm də coğrafi olaraq Qərbi Azərbaycana daha da yaxınlaşdırır.



Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli rəhbərlik etdiyi icma adından hər kəsi salamlayıb, ötən il keçirilən ilk festival-konqresin uğurlu nəticələrindən danışdı. Ə.Ələkbərli festival-konqresi Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının ideya müəllifi Prezident İlham Əliyev və xalqımız qarşısında hesabat kimi dəyərləndirib, ötən dövrdə qarşıda duran vəzifələrin icrası istiqamətində görülən işləri diqqətə çatdırdı.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Qərbi Azərbaycan Araşdırma Mərkəzinin təsisçisi, professor Mahirə Hüseynova bu ağrılı problemin gündəmə çevrilməsində, yüz minlərlə insanın tarixi Vətəninə qovuşmaq istəyini müxtəlif yerli və beynəlxalq təşkilatların platformalarından dünya ictimaiyyətinə çatdırılmasında göstərdiyi ardıcıl dəstəyə görə Prezident İlham Əliyevə şükranlarını çatdırdı, doğma Naxçıvandan həqiqətlərin bəyan edilməsi üçün yaradılan platformaya görə əməyi keçən hər kəsə təşəkkür etdi.

Türkiyənin İğdır Universitetinin rektoru, professor Mehmet Hakkı Alma çıxışında Nuh peyğəmbərin diyarı olan Naxçıvanın sadəcə Azərbaycan və Türk dünyası üçün deyil, bütün dünya üçün önəmli bir coğrafiya olduğunu bildirdi.

Mərasimdə "Qərbi Azərbaycana qayıdış" olimpiadasının qalibi olmuş şagirdlər mükafatlandırıldı.

***

"Qərbi Azərbaycana qayıdış" festival-konqresi bədii hissə ilə davam etdi. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli festival şənliklərində Qərbi Azərbaycanın 11 mahalının etnoqrafik təqdimatlarında iştirak etdi.



Festivalda Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının kollektivlərinin ifasında Qərbi Azərbaycanın yurd yerlərinə həsr olunmuş mahnılar, folklor nümunələri təqdim olunub, Naxçıvan Dövlət Universiteti Musiqi Kollecinin təqdimatında "Misri" kompozisiyası nümayiş etdirildi. İştirakçılar Qərbi Azərbaycan tarixi, mədəniyyəti və məişətinə dair nümayiş etdirilən kitab, monoqrafiya, jurnal və qəzetlərlə tanış oldular.

Batabat yaylağının füsunkar mənzərəsi fonunda toy məclisi quruldu, Qərbi Azərbaycandan olan iki gəncin toy mərasimi keçirildi. Mərasimdə bu əzəli yurd yerimizin toy adətləri: "Elçilik", "Nişan taxma", "Paltar biçmə", "Çörəküstü", "Xına", "Gəlin köçürmə" kimi mərasimlər nümayiş etdirildi.

Toy mərasimində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi və Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında qərbi azərbaycanlı soydaşlarımıza məxsus musiqi nömrələri, aşıq havaları, kompozisiyalar səsləndirildi, yallı və digər rəqs nümunələri ifa olundu, xalq oyunları göstərildi. Pedaqoji fakültənin tələbələri isə Qərbi Azərbaycanda məşhur olan idman oyunlarını nümayiş etdirdilər.

Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzinin təşkil etdiyi Qərbi Azərbaycan mətbəxinə məxsus kulinariya sərgisini də festival-konqres iştirakçıları böyük maraqla qarşıladılar. Sərgiyə 60-dan çox milli yemək, 44 çeşiddə meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitki, 94 növdə mürəbbə, 12 adda bitki çayı, 13 növdə şirniyyat, 20-dən çox adda xoşab və meyvə şirəsi çıxarılmışdı.

Çadırların hər birində təmsil etdiyi mahala məxsus adət-ənənələr, milli geyim, mətbəx, dekorativ-tətbiqi sənət, məişət əşyaları, quramalar, xalçalar, keçəçilik sənəti, bədii tikmə nümunələri, musiqi alətləri, suvenirlər, Qərbi Azərbaycanın tarixi abidələrinin maketlərindən ibarət sərgilər açılıb, xalq oyunları, aşıq mahnıları, rəqslər və digər nümunələr təqdim olunurdu.

Qədim yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə formalaşdırdığı və yaşatdığı mədəniyyəti təbliğ etməklə yanaşı, əzəli yurd yerinə qayıdış prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etmək məqsədi daşıyan konqres-festivalda ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçılar bir araya gəlib. Bu gün davam edəcək konqres çərçivəsində keçirilən bölmə iclaslarında elm adamlarının Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yeniliklər dinləniləcək və fikir mübadiləsi aparılacaq.

***Tahir AYDINOĞLU,***
***Səbuhi HƏSƏNOV***
***XQ***

# "Ağıllı kənd" gerçək möcüzə aləmidir

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları böyük tikinti meydanına çevrilib. Xarabalıqlar üzərində yeni şəhərlər, kəndlər ucaldılır. Artıq 7 min 800-ə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıdıb. Doğma yurd yerlərinə geri dönən soydaşlarımız üçün rahat həyat şəraiti yaradılıb, müasir xidmətlərə əlçatan, təhlükəsiz yaşayış, məşğulluq təmin edilib. İlin sonuna qədər 20 min insanın qayıdışı planlaşdırılır. Qayıdışın coğrafi arealı 20 kənd və qəsəbə, 7 şəhər olmaqla, ümumilikdə 27 yaşayış məntəqəsini əhatə edir. Tezliklə Cəbrayıla, Kəlbəcərə və Zəngilana yeni köçürülmə prosesinə start veriləcək.**



**Şəhər və kəndlərin tikintisi isə son texnologiyalardan istifadə edilməklə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasına uyğun aparılır. Bu barədə "Virtual Azerbaijan group of Company" şirkətinin baş proqramçısı, süni intellekt mütəxəssisi Vüsal Orucov dedi:**

– Müasir dövrdə şəhər və kəndlərdə göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, informasiya texnologiyalarının tətbiqi və idarə olunmasının təmin edilməsi yaşayış məntəqələrində dayanıqlı inkişafın əsas prioritetlərindən biridir. Bu məqsədlə bir sıra layihələr həyata keçirilir. Onlardan biri də "ağıllı kənd" layihəsidir. "Birinci pilot layihə – "ağıllı kənd" Zəngilan rayonunun Ağalı kəndində reallaşıb. Bu konsepsiya orada məskunlaşan əhali üçün kifayət qədər üstünlüklər təklif edir. Onların həyatını asanlaşdırmaq, istehsal və xidmət sektorunda səmərəliliyi artırmaq üçün müasir texnologiyaların imkanlarından istifadə edilir. Yəni bu kənddə hər üç komponent – ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda ağıllı təsərrüfat tətbiq edilir. Həm də əlverişli biznes mühiti yaradılır.

Vüsal Orucovun sözlərinə görə, "ağıllı kənd" daha çox fermerlər ilə torpaq arasındakı münasibətlərin rəqəmsallaşma müstəvisidir. "Ağalı kəndində bu layihəyə uyğun sahədə hansı məhsulun əkilməsinin müəyyənləşməsi innovativ metod və üsullardan istifadə edilməklə həyata keçirilir. Təsərrüfat sahələrinin bütün kritik nöqtələrində sensorlar quraşdırılıb. Burada torpaq şəraiti, hava və s. haqqında məlumatlar toplanır və SMS-lərlə fermerlərə ötürülür. İnformasiya Sistemində toplanan məlumatlar təhlil edildikdən sonra torpağın vəziyyəti barədə nəticələr çıxarılır.

Mütəxəssis sonra dedi: "Ağıllı kənd" konsepsiyası əsasında avtomatlaşdırılmış idarəetmə sistemi bir çox hədəflərə nail olmağa da imkan yaradır. Məsələn, sahələrin dərmanlanması dronlar vasitəsilə həyata keçirilir, əl əməyindən istifadə minimuma enir, məhsul yığımı kompüterləşdirilmiş texnikalar vasitəsilə aparılır, su resurslarından qənaətlə istifadə üçün müasir suvarma sistemlərindən istifadə olunur. Ən əsası bütün bu proseslər bir mərkəzdən idarə edilir. Bu, fermerlərin daha düzgün qərarlar qəbul etməsinə, dəqiq idarəçilik, resursların qənaətli istifadəsinə imkan verir. Bu yanaşma yalnız Ağalı kəndində deyil, işğaldan azad edilmiş ərazilərdə yenidən inşa olunan digər kəndlərdə də tətbiq edilir. Aydındır ki, müəyyən fərqlərlə. Fərq həmin kəndlərin relyefi, iqlimi, təbii ehtiyatları və s.-dən asılıdır".

V.Orucov qeyd etdi ki, İKT şirkətləri "ağıllı kənd" layihələri ilə bağlı yeni məhsullar, xidmətlər də təqdim edirlər: "Məsələn, heyvandarlıq sistemlərində "ağıllı ferma"lar, sağım, yempaylayan və hazır məhsulu yığan qurğu və sistemlər istifadə olunur. Bitkiçilikdə isə "ağıllı istixana"lar (parniklər) yaradılır. Yeni təsərrüfatlar bu layihələr əsasında meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırır, emal prosesini müasir tələblərə uyğun qurur. Beləliklə, "ağıllı kənd təsərrüfatı" özündə kooperativ idarəetmə sistemini, müasir texnologiyalar əsasında qurulmuş tarla, bağ və fermaları, dronlar vasitəsilə idarəetmə və nəzarəti ehtiva edir.

Yeri gəlmişkən, işğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələrinin tikinti və bərpa işlərində "ağıllı enerji"dən də istifadə olunur. O, özündə enerji istehsalı, paylanması və istehlakını optimallaşdırmaq üçün rəqəmsal texnologiyalardan və məlumat təhlillərindən istifadəni nəzərdə tutur. "Ağıllı enerji" sistemində enerjinin ən səmərəli və davamlı şəkildə istehsalını və istehlak edilməsini təmin etmək üçün müxtəlif cihazlar və sistemlər bir-birinə bağlıdır və bir-biri ilə əlaqəli işləyir. Məsələn, günəşli günlərdə evlərdə quraşdırılan Günəş panellərindən elektrik enerjisi smart sayğaca daxil olur. İstifadədən artıq qalan elektrik enerjisi isə ümumi şəbəkəyə ötürülür. Dumanlı, qarlı və yağışlı günlərdə günəş panelləri zəif işləyəndə evlərə elektrik enerjisi ümumi şəbəkədən daxil olur. Bunlar isə avtomatlaşdırılmış idarəetmə sistemi tərəfindən idarə olunur.

Qeyd edək ki, "ağıllı enerji" son nəticədə enerji israfını azaltmaq və onun səmərəliliyini artırmaq üçün çox vacibdir. Enerji istehlakını izləmək və istifadəni müvafiq olaraq tənzimləmək üçün real vaxt məlumatlarından istifadə etməklə ağıllı enerji sistemləri istehlakı 30 faizə qədər azalda bilər. Bu, nəinki istehlakçılar üçün enerji xərclərini azaldır, həm də istixana qazı emissiyalarını və ümumi karbon izini azaltmağa kömək edir. Hazırda azad edilmiş ərazilərdə tikilən və bərpa olunan yaşayış məntəqələrində "ağıllı enerji"dən istifadə nəzərdə tutulur.

Bütün yaşayış evlərinin, sosial obyektlərin, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesinin alternativ enerji mənbələri ilə təmin edilməsi "ağıllı kənd"in nə dərəcədə üstünlüklərə malik olduğunu göstərir.

Göründüyü kimi, "ağıllı kənd" təkcə infrastruktur deyil, həm də yeni həyat tərzidir. Biz yeni texnologiyaları nə qədər tez mənimsəsək, bir o qədər sürətli inkişafımızı təmin etmiş olacağıq.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Gəncənin "yaşıl" hədəfləri



**Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, nazirliyin Dendrologiya, Ekologiya və Təbii Ehtiyatlar, Bioresurslar, Aqrar Problemlər institutları, Gəncədəki Nəbatat Bağı, Azərbaycan Texnologiya Universiteti, Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Göygöl Milli Parkı tərəfindən "İqlim dəyişkənliyi şəraitində təbii floranin müasir vəziyyəti və biomüxtəlifliyin qorunmasi" mövzusunda forum keçirilib.**

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən elmi tədbirdə adı çəkilən qurumların nümayəndələri, alim və tədqiqatçıları iştirak ediblər.

Forumun istiqamətləri təbii floranın müasir vəziyyəti və növ müxtəlifliyi, ekoloji amillərin, o cümlədən nəqliyyat vasitələri tullantılarının bitki örtüyünə təsirləri, iqlim dəyişkənlikləri və bitkilərdə uyğunlaşma – introduksiya, yaşıllaşdırma tədbirləri və təbii floranın bərpası məsələlərini əhatə edib.

AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev iştirakçıları salamlayaraq qeyd edib ki, 2024-cü il Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə tərəfdaşlıq Konfransının (COP29) Azərbaycanda keçiriləcəyini ölkəmizin beynəlxalq arenada daha bir uğuru kimi qiymətləndirmək lazımdır. Bu, qlobal ekoloji və iqlim dəyişiklikləri problemləri ilə mübarizədə ölkəmizin nüfuzlu söz və əməl sahibinə çevrildiyinə əyani misaldır.

Akademik alim və tədqiqatçılarımızı müasir dünyanı təhdid edən ekoloji problemlərin həllinə öz töhfələrini verməyə çağırıb və forumun işinə uğurlar arzulayıb.

Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov forumun istiqamətləri və proqramın zənginliyini qeyd edib və qlobal ekoloji problemlərin xarakterik səbəbləri, həmçinin ölkəmizdə bu istiqamətdə həlli vacib məsələlər barədə danışıb.

Dendrologiya İnstitutunun direktoru, dosent Minarə Həsənova, Gəncədəki Nəbatat Bağının Bitki ehtiyatları şöbəsinin müdiri, professor Aynur Bayramova təbiətin mühafizəsi, flora və faunanın bərpası, ekoloji profilaktik tədbirləri əhatə edən məsələlər haqqında çıxış ediblər.

Sonra forumun elmi məruzələri kimi "Abşeron dendroflorasının müasir fitosanitar vəziyyəti", "İqlim dəyişmələri və onların çay axınına təsiri", "Abşeron Milli Parkının bitki örtüyü", "Göygöl Milli Parkının flora və faunası", "Zeytun bitkisinin təhlükəli zərərvericiləri və onlara qarşı mübarizə tədbirləri", "Müasir şəraitdə ekoloji problemlər", "Yaşıl dünya naminə həmrəlik ilində biotexnologiyaların xüsusi əhəmiyyəti" və digər mövzularda çıxışlar dinlənilib.

Forum çərçivəsində elmi ədəbiyyat ekosərgisi də nümayiş etdirilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Gəncə**

**Nazim Axundov – 100**

# "Qarabağnamələr"i işığa çıxaran alim

## O, həm də milli mətbuat tariximizin araşdırıcısıdır

**Tanınmış mətnşünas və mətbuat tarixçisi, professor Nazim Axundovla şəxsi ünsiyyətim olmasa da, həmişə haqqında xoş sözlər eşitmişdim. Onunla bağlı böyük məhəbbətlə danışan insanlarla dəfələrlə həmsöhbət olmuşdum.**

Yazıçı-publisist, vaxtilə "Yazıçı" nəşriyyatında nəsr bölməsinə rəhbərlik etmiş Mustafa Çəmənli də Nazim Axundovun xatirəsini əziz tutan insanlardandır. Telefon söhbətimiz zamanı Nazim Axundovdan söz düşəndə xəyalı çox uzaqlara getdi.

– Nazim Axundovu çox yaxşı tanıyırdım, – dedi. – O, dövrünün tanınmış biblioqrafı, görkəmli pedaqoqu və ədəbiyyatşünas alimi idi. Bu gün aramızda olmasa da, nurlu siması, xoş ünsiyyəti yaxşı yadımdadır. Onu xatırlamaq hər zaman xoşdur. Qoy, gələcək nəsillər layiqli alimlərimizi, ziyalılarımızı yaxşı tanısınlar. Nazim Axundov haqqında vaxtilə mən də məqalə yazmışam. Yenə də ondan danışmaq mənə xoşdur.

Mustafa Çəmənlinin xatirə qeydləri ilə tanış olduqca böyük bir ziyalının nəcib cizgiləri gözlərim önündə canlanırdı: "Bugünlərdə şəxsi arxivimi araşdırarkən professor Nazim Axundovun 20 yanvar 1991-ci ildə mənim "Xallı gürzə" tarixi romanım barədə yazdığı məqalənin əlyazmasına rast gəldim. Yazını bir daha oxudum. Yaddaşımda Nazim müəllimin səsi canlandı, onun nurlu çöhrəsi, bəylik ədası xəyalımda cilvələndi.

Professor Nazim Axundov çox işıqlı, xeyirxah şəxsiyyət idi. İlk tanışlıqdan sonra aramızda səmimi ünsiyyət yaranmışdı. O, "Yazıçı" nəşriyyatında 2 cilddə çapa hazırlanan "Qarabağnamələr" in tərtibçisi, "Qarabağ salnamələri" kitabının müəllifi kimi və fars dilindən tərcümə etdiyi Nasir Nəcminin



"Abbas Mirzə: XIX əsr Rusiya–İran–Azərbaycan münasibətləri" (bu kitabın redaktoru olmuşam) əsərinə görə nəşriyyatla müntəzəm əlaqə saxlayırdı və buna görə də vaxtaşırı görüşürdük. Şuşa işğal olunduqdan sonra o, Bakıda yaşayırdı (indi təəssüflənirəm ki, Nazim müəllim İkinci Qarabağ savaşında çox sevdiyi doğma Şuşasının işğaldan azad edildiyi günü görmədi).

Nazim Axundov 1924-cü il iyun ayının 20-də Şuşada ziyalı ailəsində dünyaya göz açıb. O, ibtidai təhsilini Tərtərdə alıb. Sonra Bakıya gəlib, Pedaqoji Məktəbin filologiya fakültəsinə daxil olub. Oranı bitirdikdən sonra bir neçə il kənd məktəblərində müəllim işləyib. Bununla yanaşı, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsilini də qiyabi davam etdirib. İnstitutdan sonra Azərbaycan ədəbiyyatı tarixi ixtisası üzrə aspiranturaya qəbul olub. Daha sonra həmin institutun elmi şurasında "Molla Nəsrəddin" jurnalının nəşri tarixinə aid tədqiqlər" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib və filologiya elmləri namizədi adını qazanıb. "Azərbaycan satira jurnalları" mövzusunda doktorluq dissertasiyasını isə 1966-cı ildə müdafiə edib.

Əmək fəaliyyətinə Tərtər rayonunun Azad Qaraqoyunlu və Qaynax kənd məktəblərində müəllim kimi başlayan gələcək alim Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinin dekanı vəzifəsində çalışıb. Nazim Axundovun ilk mətbu əsəri – "Cəfər Cabbarlı" adlı kitabçası 1947-ci ildə çap olunub. Ardınca "Mirzə Fətəli Axundov", "Səməd Vurğun", "Mirzə Ələkbər Sabir" və sair biblioqrafik kitablarını yazıb. "Ədəbiyyat" (8-ci sinif), "Ədəbiyyat müntəxabatı" (9-cu sinif) dərsliklərini və bir sıra metodik vəsaitləri, digər müəlliflərlə "Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920–1965)" adlı biblioqrafiya kitabını tərtib edib. Onun "Qarabağnamələr", "Hümmət" qəzetinin izahlı biblioqrafiyası", "Azərbaycan dövri mətbuatı", "Üzeyir Hacıbəyov", "Azərbaycan mətbuatının ilki ("Əkinçi–100)", "Molla Nəsrəddin" jurnalının nəşri tarixi" kimi əsərləri elm aləminə yaxşı tanışdır. Ömrünün sonunadək yorulmadan həmin mövzularda araşdırmalar aparıb.

Nazim Axundov Nizami adına Ədəbiyyat və Dil İnstitutunun dövri mətbuat və biblioqrafiya şöbəsinin və Xankəndi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri olub. Səksəninci illərdən ömrünün sonunadək Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun professoru vəzifəsində işləyib.

Ehtiramla anılan Nazim Axundov 1994-cü ildə – 70 yaşında Bakı şəhərində vəfat edib. Ruhu şad olsun…

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Brilyant Atəşin poetik dünyası

**O, poetik duyğularını sanki həzin ləpələr kimi dənizə pıçıldayır, daşların arasından işıqlı dünyaya can atan büllur bulaq kimi zümzümə edir. Elə ki, haqsızlıq görür, həqiqətə dil uzadanlara, haqqı nahaqqın ayağına yazmaq istəyənlərə rast gəlir, mülayim Atəş alov dilləri ərşə çıxan tonqala dönərək yaxıb-yandırır. "Meydan sulayan qoçulara, yaltaqlara, zalımlara meydan oxuyur – lap Ərəbzəngi kimi. Yəni onun lirik duyğuları ləpə kimi mülayim, dalğa kimi haraylıdı.**

Yazdıqları söz adamı kimi onun ədəbi kimiliyidir, sözlə çəkilmiş avtoportretidir. Söz adamının kim olduğunu onun yazdıqları kimi dəqiq bildirən ikinci bir tanıtım testi tanımıram. Brilyant xanım həmişə, hər yerdə özüdür. İnsanlığı, diqqəti, sözə dəyəri, məsuliyyəti ilə. "Daş kəsən, baş kəsən, savaş kəsən sözü ucuzlaşmağa, ucalıqdan enməyə qoymayanlar bircə söz sarıdan acdılar".

***Cana gəlir örtüləndə,***
***qoyulanda dürüst başa,***
***Nənəmin kəlağayısı,***
***babamın qara papağı".***

Brilyant Atəş milli mənəvi dəyərlərə bağlı Azərbaycan xanımıdır. O, başı kəlağayılı nənələrin, anaların, qara papağı başında qeyrətlə daşıyan babaların, ataların övladıdır. Özü də bu gün min illərdir nənələrimizdən

***Göylərin buludu gözümə dolub,***
***Çoxu daldalanıb izimə dolub.***
***Ən gözəl fikirlər sözümə dolub,***
***Vərəqə tökülən ləlmi, incimi?***

Brilyant xanımın yaradıcılığının özünəxas bir cəhəti şifahi xalq ədəbiyyatını, folkloru, klassik aşıq sənətini, ana dilimizi, kənd həyatını mükəmməl bilməsidir. Onun təcnisləri, qıfılbəndləri, müxəmməsləri, dodaqdəyməzləri, divaniləri, deyişmələri mükəmməl klassik nümunələri səviyyəsindədir.

Brilyant Atəşin lirik duyğularından tapdığım incilər az deyil.

***Düzlükdən imarət qurasan gərək,***
***Sözü məqamında vurasan gərək.***
***Haqqın arxasında durasan gərək,***
***Yoxsa ki, qəflətdə qalmaq kimidi.***

***"Yaxşıya sarayam, zalıma goram".***
***"Haqqı bürmələyib nahaqqa satmaq,***
***Zülməti nur üstə salmaq kimidi".***
***"Qəfəsdə yaşamaq ölmək kimidi".***

Məğrurluq, ucalıq, üzüağlıq, təvəzökarlıq bir yoldur. Bu yolu gedənlərin maddi "varı qurtarsa da, etibarı qalır". El öyən igidlərimiz 44 günlük müharibədə düşmənin dizini qatlayıb "dəmir yumruq"la 30 il doğmalarının yolunu həsrətlə gözləyən torpaqlarımızı azad etdilər. Onlar Brilyant Atəşin "Mübariz", "Nurdadı", "Şəhid oğulun anasını qarşılaması", "Bir şəhid balamızın dilindən" və digər şeirlərinin qəhrəmanlarıdır, müdrik fikir şairimiz Bəxtiyar Vahabzadənin təbirincə desək, Vətən torpaqlarına azadlıq toxumu əkənlərdir.

Brilyant Atəşin dünya malından doymayanlara qəti xəbərdarlığı və qandırması da var: Belələrinə "Axırda bir ağda qalacaqsan, ha, Əriyib bir torpaq olacaqsan, ha..."– deyir. Xəbərdarlıq edir ki, mənəviyyat ölümə doğru gedirsə, onu diriltmək mümkün olmayacaq. Mənəviyyatsızlıq ən ucuz ölümdür.

Brilyant Atəşin kəlağayı və qara papaq dəyəri və həqiqəti də diqqətçəkəndir:




miras qalan kəlağayını başına tac edir. Güllü Eldar Tomarlının sədr olduğu Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin fəal və yorulmaz üzvlərindəndir. Güllü xanımın yaratdığı şəxsi Kəlağayı muzeyinin layihəsi əsasında düzənlənən "Sazlı, sözlü kəlağayı günləri" tədbirlərində rəfiqələri ilə birgə qədim ipək baş örtüyünü təbliğ edir, tanıdır – həm sözüylə, həm də əməliylə.

"Qəmli kəlağayı" şeiri nənənin şəhid nəvəsinin nişan xonçasına qoyduğu baş örtüyünün taleyindən bəhs edir. Nişanlı el gözəlinə qismət olmayan həmin kəlağayı qarşısında qızlarımız sədaqət andı içib sevdiyi oğlana, səadətinə qovuşmalıdırlar.

Brilyant Atəş şeirlərindən birində yazdıqlarının sabahına görə narahatlıq hisslərini də qələmə alıb:

***Səni əzizləyib, de, kim olacaq,***
***Ən axırda yiyən, şeirim mənim?***

Ona demək istəyirik ki, narahat olmasın, həqiqi sözün qədrini bilənlər, dəyərli sözün aşiqləri yiyə duracaqlar. Əbu Turxana görə, ancaq eşq ölümdən qorxmur, çünki ruhdan yoğrulub. Eşqiniz tükənməsin, Brilyant xanım!

***Vaqif OSMANLI***

# Bir nəslin xeyriyyəçilik missiyası

**Xeyirxah əməlləri ilə tanınıb dünyasını dəyişmiş insanlar daim xatirələrdə yaşayır, nəsillərə örnək olur və ehtiramla yad edilirlər. Belə el ağsaqqalı, işıqlı şəxsiyyət kimi xatırlananlardan biri də ömrünü xalqın yolunda şam kimi yandırmış Rəhim Məhəmməd oğlu Əfəndizadə olub.**

O,1862-ci ildə Göyçay qəzasının Qaraman kəndində, Şirvanın ziyalı şəxsiyyətlərindən sayılan Məhəmməd Əfəndinin ailəsində dünyaya gələndə adını Rəhim qoyublar ki, böyüyüb rəhimdil və xeyirxah olsun, insanlara əl tutsun. Elə bu ruhda tərbiyə alan Rəhim Əfəndizadə, sözün əsl mənasında, adını doğrulda bilib, tanınmış maarifçi, pedaqoq, ilahiyyatçı, din xadimi, xeyriyyəçi kimi dillərdə dastan olub.

Rəhimə qələm tutmağı, yazı yazmağı ərəb və fars dillərində mükəmməl mədrəsə təhsili almış Məhəmməd kişi özü öyrədib. Sonra ona məhəllə məktəbində Molla Cəbrayıl Əfəndi ciddi təlim keçib. Rəhim burada ərəb və fars dillərini öyrənərək Qurani-Kərimin müqəddəs ayələrinə yiyələnib. Mədrəsə təhsilini tamamlayıb və 1878-ci ildə Göyçayda ilk açılan yeni məktəbdə oxuyub. Burada isə müəllimi Hacı Əhməd Əfəndi ona rus, fars, ərəb dilləri, hesab və ana dili fənlərindən mükəmməl dərs keçib. 1883-cü ildə həmin məktəbin ilk məzunlarından olan gənc Rəhim təhsilini davam etdirmək üçün Qori Müəllimlər Seminariyasında oxumaq istəsə də, müəyyən səbəblər üzündən ora gedə bilməyib. Bundan sonra bir müddət öz kəndi Qaraman və Alpout kəndlərində müəllimlik edib, oxumağa həvəsli şagirdləri ətrafına toplayıb. Xeyriyyəçi kimi ilk işi də elə Alpoutda məktəb binasını inşa etdirməsi olub.

Sonra atasının xeyr-duası ilə türk tarixi və ədəbiyyatı ilə yaxından tanış olmaq, qabaqcıl din xadimləri ilə görüşmək üçün Türkiyəyə səfər edən Rəhim Əfəndi oradakı möhtəşəm məscidləri görür və geri qayıdarkən öz kəndində məscid tikdirmək qərarına gəlir. 1890-cı ilin sonlarında Məkkə səfərinə yollanır. Peyğəmbərin müqəddəs şəhərini və məzarını ziyarət edir.

Hacı Rəhim Əfəndi 1891-ci ildə vətənə qayıdır. Elə bu vaxtdan da Qaramanda məscidin tikintisinə başlayır. Tezliklə gözəl ibadət evinin təntənəli açılışı olur. Məscid tikməkdən bir məqsədi də orada kənd uşaqlarına ilahiyyatdan, əxlaqdan bilik vermək idi. O, həmçinin Qafqaz Təhsil İdarəsinin müsbət rəyi ilə Göyçayda müasir tipli ikisinifli məktəbin ilahiyyat müəllimi təyin edilir. Tanınmış pedaqoq, Qori seminariyasının məzunu Mahmud Mahmudbəyovla birlikdə bölgədə tədris prosesinin yenilənməsinə nail olur. Sonra pedaqoji fəaliyyəti genişlənən, nüfuzu artan Hacı Rəhim Əfəndi qəzanın Bığır kəndində "Rus–Azərbaycan" məktəbi yaradır, orada kitabxana təşkil edir, şagirdlərin sayını artırır. Yeri gəlmişkən, Bığırdakı məktəb binasında düz 101 il kənd uşaqları təhsil alıblar.

Bəli, dövrünün maarifpərvər pedaqoqlarından olan Hacı Rəhim Əfəndi vətənpərvər xeyriyyəçi kimi Bığır, Alpout, Qaraman kəndlərində açdığı "Rus-Azərbaycan" məktəblərinə öz vəsaiti hesabına binalar tikdirmiş, ətraf kəndlərin uşaqlarını təhsilə cəlb etmişdir.

Ünlü pedaqoq ana dili dərslərinin tədrisi, doğma dilində dərsliklər hazırlanması ilə də xüsusi məşğul olmuşdur. Hətta ana dilində tədris materialı əldə etmək üçün Şamaxı, İsmayıllı, Ağsu, Kürdəmir və digər əraziləri gəzərək xalqımızın etnoqrafiyasına, folkloruna aid çoxlu sayda material toplamış, bunlardan tədrisdə istifadə etmiş və ibtidai siniflər üçün dərslik hazırlamışdır. Bu dövrdə 2000 atalar sözünü toplayıb çap edən Göyçay müasir tipli ikisinifli məktəbin direktoru N.Kalaşov bu işdə ona yaxından kömək edən azərbaycanlı ziyalılar içərisində S.M.Qənizadə və M.Mahmudbəyovla yanaşı, Hacı Rəhim Əfəndinin də adını çəkmişdir.

1894-cü ildə Qafqaz Təhsil İdarəsi M. Mahmudbəyov və N.Kalaşovun müraciəti əsasında ali pedaqoji təhsili olmayan, ancaq təhsil sahəsində böyük xidmətlər göstərmiş Hacı Rəhim Əfəndiyə müstəsna hal kimi yüksəkrütbəli ibtidai sinif müəllimi hüququ verən rəsmi sənəd təqdim edib.

Onun binasını qoyduğu Bığır məktəbində fənlərin əksəriyyətini, o cümlədən rus dilini Hacı Rəhim Əfəndi özü tədris edirdi. Sonra doğma kəndi Qaramana qayıdaraq həm məscidin fəaliyyətini canlandırıb, həm də uşaqlara dünyəvi təhsil verib. Məsciddə təşkil olunan məktəbə gələnlərin sayı artdığına görə, sakinlərin köməyi ilə məktəb tikdirib. Eyni zamanda, qonşu kəndlərdən gələn uşaqların orada qalmasına da şərait yaradıb. Nəhayət, rəsmi məktubla Bakı quberniyasına və Dağıstan məktəbləri direktorluğuna Qaramanda ayrıca ibtidai məktəb açılması ilə bağlı xahişinə müsbət cavab gəlib və beləliklə, Hacı Rəhim Əfəndinin təşəbbüsü ilə Göyçayda yeni tipli üçüncü məktəb fəaliyyətə başlayıb. Bu təhsil ocağı 2016-cı ildə nəvəsi Elxan Süleymanov tərəfindən yenidən inşa olunaraq Qaraman məktəblilərinə hədiyyə edilmişdir.

O, kənd əhalisinin vəziyyətini yüngülləşdirmək məqsədilə məktəbin ərazisinə daxil olan torpaq sahəsində şagirdlərin gücü ilə, əmək təlimi formasında baramaçılığı və arıçılığı inkişaf etdirib. Onun xeyirxah əməlləri təkcə Göyçayla məhdudlaşmayıb. Azərbaycan müəllimlərinin ilk 3 qurultayının təşkilatçılarından və iştirakçılarından olan Hacı Rəhim Əfəndi Maarif Komissiyasının tərkibində fəaliyyət göstərib, Təhsil Muzeyinin yaradılmasının təşəbbüskarı olub (Bütün bunlar barədə Göyçay ensiklopediyasında ətraflı məlumatlar var).

Ömrünün çoxunu xalqın maariflənməsi yoluna sərf edən,"Nicat" cəmiyyətinin fəal üzvü kimi ümummilli tarixi hadisələrdən, xalqımızın müstəqillik mübarizəsindən də kənar qalmayan Hacı Rəhim Əfəndi rus-bolşevik-erməni daşnak birləşmələrinin Göyçay qəzasında vəhşiliklərinə qarşı xalqın səfərbər edilməsinə də çalışıb. Qafqaz İslam Ordusu əsgərlərinin Göyçay döyüşlərində üzləşdiyi problemlərinin həllində də fəal iştirak edib. Şamaxı və Ağsudan Göyçaya pənah gətirən köçkünlərdən qayğısını əsirgəməyib.

Hacı Rəhim Əfəndi ömrünün 61-ci ilində haqqın dərgahına qovuşub. Övladlarından





Abdulla, Əhməd, Ziya, Sirac Əfəndiyevlər müəllimlik sənətinə yiyələnərək, AXC dövründə və 20-30-cu illərdə savadsızlığın ləğvində, gənc nəslin təlim və tərbiyəsində mühüm rol oynayıblar. Böyük maarifpərvərin vaxtilə tikdirdiyi Qaraman kənd orta məktəbi hazırda onun adını daşıyır. Tikdirdiyi Qaraman məscidi nəvəsi Elxan Süleymanov tərəfindən yenidən bərpa edilərək fəaliyyət göstərir.

Bəli, mənəviyyatın ali qanunlarına görə, xeyriyyəçiliyin əsas motivi şəxsən özü üçün mənfəət güdmədən, məhz insanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarətdir. Hacı Rəhim Əfəndi kimi.

*

Yuxarıda adını ehtiramla xatırladığımız Hacı Rəhim Əfəndinin xeyirxah əməllərini onun nəslinin bugünkü nümayəndələri layiqincə davam etdirirlər. Nəvəsi Elxan Süleymanov Qaraman kəndindəki Hacı Rəhim Əfəndi məscidini 1991-ci ildə yenidən əsaslı şəkildə bərpa etdirib. 1992–1998 illərdə Göyçay rayon məktəblərində təhsil alan 150-dən çox əlaçı şagirdi hər ay ödəmək şərti ilə təqaüdlə təmin etmişdir. Ulu öndər Heydər Əliyevin tövsiyəsi ilə yaradılmış Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasını (AVCİYA) təsis edərək onun prezidenti vəzifəsində fəaliyyətə başlamışdır. 20-yə yaxın QHT-ni, Heydər Əliyev İrsini Araşdırma Mərkəzini və mərkəzdə yaradılmış, 50 dildə fəaliyyət göstərən "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxanası birləşdirən bu assosiasiya ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı, torpaqlarımızın işğaldan azad edilməsi, qondarma siyasi məhbus probleminin həlli və digər istiqamətlərdə bir çox beynəlxalq və respub. səviyyəli tədbirlər həyata keçirmiş və bu gün də uğurla fəaliyyət göstərməkdədir.

2010–2020-ci illərdə Şamaxının millət vəkili, AŞPA-da Azərbaycan nümayəndə heyətinin, AŞPA-nın Monitorinq Komitəsinin, Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin, Siyasi Məsələlər və Demokratiya Komitəsinin üzvü, 2010–15 illərdə Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri olmuş Elxan Süleymanovun diplomatik-siyasi səyləri nəticəsində ölkəmizin mənafeyini əks etdirən bir çox sənədlər, o cümlədən Sərsəng su anbarı ilə bağlı hazırladığı "Mülki insanları qəsdən sudan məhrumetmə" adlı sənəd əsasında AŞPA 2085 saylı qətnamə qəbul edib. Bu qətnamə ilə, bir tərəfdən beynəlxalq təşkilatın diqqəti baş verə biləcək böyük ekoloji fəlakətə yönəldilib, digər tərəfdən işğaldan sonrakı 25 il ərzində ilk dəfə "Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər əraziləri" müddəası nüfuzlu beynəlxalq təşkilatın rəsmi sənədində təsbitlənib.

Daim doğma el-obasının da qayğıları ilə yaşayır Elxan Süleymanov. Göyçay–Qaraman yolunun çəkilişi, əsası babası Hacı Rəhim Əfəndi tərəfindən qoyulmuş Qaraman kənd məktəbinin əsaslı bərpası, Hacı Rəhim Əfəndi məscidinin inşası, Göyçay şəhərində İsmət Qayıbovun, Əli Kərimin heykəllərinin ucaldılması, Şəhidlər xiyabanının salınması, orduya, şagird və tələbə gənclərə maddi yardım Elxan Süleymanovun xeyriyyəçilik fəaliyyətinin bir qismidir. Şamaxıda da məktəblərin maddi-texniki bazasının genişləndirilməsinə kömək göstərib, Azərbaycanın görkəmli şairi S.Ə.Şirvaninin qəbirüstü abidəsini əsaslı şəkildə yenidən qurdurub.

Onun təşəbbüsü ilə 9 il "Sabir qiraət müsabiqəsi" keçirilmiş və 100-dən artıq qalib şagirdə aylıq təqaüd verilmişdir. Bundan başqa, 600-dən artıq bal toplamış 60-dan artıq tələbəni ali məktəbi bitirənə qədər hər ay təqaüdlə təmin etmişdir. 2015-ci ildə Elxan Süleymanovun təşəbbüsü və rəhbərliyi ilə "Şamaxı ensiklopediyası" nəşr edilib. Son dövrdə Göyçayın tarixinə və mədəniyyətinə, görkəmli şəxsiyyətlərinə aid "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun–iyul 1918); "Göyçay döyüşləri – Türkiyə tarixşünaslığında", "Göyçay tarixi" kitabları, "Göyçay ensiklopediyası" çap olunaraq ictimaiyyətə təqdim edilib.

Fəal ictimai xadim kimi Elxan Süleymanovun çoxşaxəli fəaliyyəti yüksək qiymətləndirilib, o, "Şöhrət" ordeni və Prezidentin Fəxri Diplomu ilə təltif edilib.

*

İyunun 21-də Göyçayın Qaraman kəndində Elxan Süleymanovun təşəbbüsü ilə, Göyçaydakı 57 məktəbin hər birindən bir əlaçı şagirdə 500 manat məbləğində Hacı Rəhim Əfəndi təqaüdlərinin verilməsi mərasimi keçirilib. Tədbiri filologiya elmləri doktoru, professor Asif Hacılı açaraq tanınmış nəslin xeyriyəçilik ənənələrinin layiqincə davam etdirildiyini bildirib. Elxan Süleymanov çıxışında təhsilə qayğı ənənəsinin yaşadılmasının vacibliyini önə çəkib və Ulu öndərin bu sahədə böyük nümunəsindən, Prezident İlham Əliyevin mədəniyyət, elm və təhsilə qayğısından konkret faktlarla söz açıb, Heydər Əliyev Fondunun mühüm layihələrini diqqətə çatdırıb. Babası Hacı Rəhim Əfəndinin xeyriyyəçilik fəaliyyətindən misallar çəkib.

Təhsildə fərqlənən Göyçay məktəblilərinə təqaüdlər və kitablar təqdim olunub. Sonra rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev, Türkiyədən gəlmiş qonaq Aydın Çavuşoğlu, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev, "Göyçay" qəzetinin baş redaktoru Adil Məmmədov, təhsil sektorunun müdiri Rauf Məmmədov, əvvəllər Hacı Rəhim Əfəndi təqaüdünə layiq görülmüş həkim Fərqanə Qafarova və jurnalist Elşad Məmmədli çıxış edərək vətənpərvərlik təşəbbüsünü yüksək dəyərləndiriblər.

Mərasimdə xüsusi qeyd olunub ki, gələn il bu tədbir Hacı Rəhim Əfəndinin vaxtilə tikdirdiyi Bığır kənd məktəbində keçiriləcəkdir.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

***Göyçay***

# Qərb Rusiya–KXDR yaxınlaşmasından narahatdır



**Hazırda Qərb mediasında ən çox şərh edilən beynəlxalq mövzulardan biri Rusiya Prezidenti Vladimir Putinin Koreya Xalq Demokratik Respublikasına (XDR) səfəridir. KİV, ilk növbədə, Pxenyanda imzalanmış strateji əməkdaşlıq haqqında Rusiya–Şimali Koreya sazişinə diqqət çəkir. Qərb iki ölkə arasında münasibətlərin indi prinsipial olaraq yeni səviyyəyə çatacağından və nəticədə Şimali Koreyanın uzun illərdir əldə etməyə çalışdığı yeni hərbi texnologiyaları alacağından ehtiyat edir.**

Dövlət başçıları Şimali Koreyada tez-tez qonaq olmurlar. Son 20 ildə Pxenyana yalnız Çin Xalq Respublikasının sədri Si Cinpinin gəldiyi bildirilir. Bu səfər də 2019-cu ildə olmuşdu. Nə Boris Yeltsin, nə də keçmiş SSRİ rəhbərlərindən heç birinin KXDR-ə getmədiyi məlumdur. Şimali Koreya ilə sovet rəhbərliyi arasında Nikita Xruşşovun hakimiyyəti dövründən başlanan münasibətlər heç də rəvan olmamışdı. SSRİ-nin dağılmasından sonra isə Rusiya və KXDR arasında münasibətlərdə hər hansı bir irəliləyiş baş verməmişdi. Yaxınlaşma yalnız 2000-ci illərdə başlamışdı. Həmin il Putin KXDR-ə səfər etmiş, orada ölkənin o vaxtkı rəhbəri, hazırkı lider Kim Çen Inın atası Kim Çen İr ilə danışıqlar aparmışdı. Ancaq həmin səfər də ikitərəfli əlaqələrdə əsaslı dəyişikliklərin baş verməsinə gətirib çıxarmamışdı.

İki ölkə arasında iqtisadi əlaqələr də aşağı səviyyədədir. Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinin statistik məlumatları da bunu təsdiqləyir. Şimali Koreya üçün də Rusiya o qədər də vacib iqtisadi tərəfdaş deyil. Ölkə iqtisadiyyatı daha çox Çindən asılıdır. Bununla belə, Rusiya liderinin KXDR-ə səfərinin özü göstərdi ki, ən azı Pxenyanda iki ölkə arasında əməkdaşlığa, ilk növbədə, siyasi yanaşırlar. Səfərin əsas hadisəsi də Hərtərəfli Strateji Tərəfdaşlıq Sazişinin imzalanması oldu. Rusiya lideri bildirdi ki, bu gün imzalanan hərtərəfli tərəfdaşlıq sazişi, həmçinin bu sazişin tərəflərindən birinə qarşı təcavüz halında qarşılıqlı yardımın göstərilməsini nəzərdə tutur.

Siyasi müşahidəçilərin sözlərinə görə, 2000 və 2001-ci illərdə imzalanmış oxşar təsis sənədlərində belə bir müddəa yox idi. Ən azı təhlükəsizlik sahəsində iki ölkə arasında münasibətlərin sovet dövrünə qayıtdığını demək olar. Bununla belə, ortada əhəmiyyətli bir fərq də var. Məsələ ondadır ki, Rusiya BMT Təhlükəsizlik Şurasının 2003-2017-ci illər arasında Şimali Koreyaya qarşı tətbiq etdiyi sanksiyalara əməl etməyə davam edir. Sanksiya rejimi Şimali Koreya işçilərinin işə götürülməsinin qadağan edilməsi, KXDR-ə karbohidrogen tədarükünün məhdudlaşdırılması, Şimali Koreya kömürünün idxalı kimi ciddi məhdudlaşdırıcı tədbirləri nəzərdə tutur, yəni Şimali Koreya–Rusiya iqtisadi əməkdaşlığının potensial ən vacib istiqamətlərinə təsir göstərir.

Lakin ABŞ, Aİ və Cənubi Koreya Rusiyanın sanksiyalara əməl olunmasından imtina etmə ehtimalından deyil, iki ölkə arasında hərbi-texniki sahədə əlaqələrin intensivləşməsindən narahatlıqlarını bildirirlər. Bu baxımdan Cənubi Koreyanın Prezident Administrasiyasının milli təhlükəsizlik şöbəsinin keçmiş rəhbəri Kim Sunq Hanın Cənubi Koreyanın "Çosun İlbo" qəzetində dərc olunmuş məqaləsinə diqqət yetirilməlidir. Bu, "Putin və Kim Çen Inın təhlükəli əməkdaşlığı dayandırılmalıdır" adlanır. Kim Sonq Han təklif edir ki, Rusiya Şimali Koreya sursatlarının ötürülməsi müqabilində KXDR-ə sualtı qayıqlar, qitələrarası ballistik raketlərin istehsalı texnologiyaları və kəşfiyyat peykləri verə bilər. Onun fikrincə, bu, Koreya yarımadasında qüvvələr balansını pozacaq.

Bundan başqa, Kim Sonq Han Cənubi Koreya hakimiyyətini ABŞ-la birlikdə Rusiya–Şimali Koreya hərbi əməkdaşlığının qarşısını almağa, o cümlədən KXDR-in "nüvə çəkindiriciliyini gücləndirmək üçün tədbirlər"ə əl atmağa çağırır. O, Amerikanın taktiki nüvə silahlarından birgə istifadə imkanlarını nəzərdən keçirməyi təklif edir. Bu cür təkliflərin ortaya çıxması artıq Seulun Moskva ilə Pxenyan arasında hərbi-texniki əməkdaşlığın genişləndirilməsi perspektivindən nə qədər narahat olduğunu göstərir. Rusiya tərəfi bu barədə söhbətləri "spekulyativ" adlandırır.

Koreya Mərkəzi Xəbər Agentliyinin yayımladığı mətnə görə, KXDR və Rusiya arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Sazişi tərəflərdən birinə hücum zamanı hərbi yardımın göstərilməsini nəzərdə tutur. Müqavilənin 4-cü maddəsində deyilir ki, "əgər tərəflərdən biri bir və ya bir neçə dövlətin silahlı hücumu nəticəsində müharibə vəziyyətinə düşərsə, digər tərəf ona müvafiq olaraq sərəncamında olan bütün vasitələrlə dərhal hərbi yardım göstərəcək. "Yonhap" agentliyinin məlunatına görə, eyni müddəa SSRİ ilə KXDR arasında 1961-ci il tarixli Dostluq və Qarşılıqlı Yardım Müqaviləsində var idi, lakin orada BMT Nizamnaməsindən və tərəflərin daxili qanunlarından bəhs edilmirdi.

3-cü maddəyə əsasən, tərəflər "regional və beynəlxalq sülh və təhlükəsizliyin" təminatı üçün əməkdaşlıq edəcəklər: üçüncü bir ölkədən hücum təhlükəsi olduqda Rusiya və KXDR "tərəflərin hər hansı birinin tələblərinə uyğun olaraq bir-birinin mövqelərinin əlaqələndirilməsi üçün mümkün praktik tədbirləri razılaşdırır və təhlükənin aradan qaldırılmasında əməkdaşlığı təmin edirlər". Bu vəziyyətdə danışıqlar "gecikmədən" başlamalıdır. Müqavilə üçüncü ölkələrlə tərəflərdən birinin suverenliyinə və təhlükəsizliyinə xələl gətirən sazişlərin bağlanmasını qadağan edir (5-ci maddə). Rusiya və KXDR təhlükəsizlik və sabitliyi təmin edən "sülhpərvər siyasət"i dəstəkləməyi öhdəsinə götürür (maddə 6). 8-ci maddəyə əsasən, tərəflər "regional və beynəlxalq sülhü təmin etmək" məqsədilə müdafiə qabiliyyətini gücləndirmək üçün tədbirlər görməyə razılaşırlar.

Müqavilə, həmçinin Rusiya və KXDR-in bir-birinə qarşı "birtərəfli məcburetmə tədbirləri" tətbiq etməyəcəyini və bu cür hərəkətləri BMT Nizamnaməsinə zidd hesab etməsini nəzərdə tutur (maddə 16). Saziş beynəlxalq terrorizm və ekstremizmə qarşı birgə mübarizəni, habelə ticarət, iqtisadiyyat, investisiya, elm və texnologiya sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Xatırladaq ki, sənəd ölkələr arasında 1961, 2000 və 2001-ci illərdə imzalanmış əvvəlki sazişləri əvəz edir. Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov yeni sənədin zəruriliyini Rusiya ilə KXDR arasında geosiyasi vəziyyətin dəyişməsi ilə əlaqələndirir.

Təbii ki, belə bir yaxınlaşma Cənubi Koreyanı narahat etməyə bilməz. Mətbuat yazır ki, Moskva və Pxenyan hərbi ittifaqa girərsə, bu, Cənubi Koreya üçün ekzistensial təhlükəyə çevriləcək. Rəsmi Seul bildirir ki, Moskvanın Pxenyanla danışıqları Koreya yarımadasında sülhə xələl gətirməməlidir. Koreya Respublikası Prezidentinin milli təhlükəsizlik müşaviri Çanq Ho Jin də V.Putinin səfərini Ukraynadakı döyüşlərlə əlaqələndirir: "O, başa çatanda Rusiya onun üçün kimin daha vacib olduğunu yaxşı düşünməli olacaq – Cənub, yoxsa Şimal".

Amma Cənubi Koreyadan fərqli olaraq Pekin Rusiya liderinin səfərini şərh etmədi, lakin çərşənbə axşamı Seulda Çin diplomatlarının və hərbi rəsmilərinin Cənubi koreyalı həmkarları ilə görüşü keçirildi. Doğrudur, bu görüşün V.Putinin səfəri ilə heç bir əlaqəsinin olmadığı vurğulanır. Belə bir görüşün keçirilməsi barədə ötən ay razılıq əldə olunmuşdu. Rusiyalı mütəxəssis Vasili Kaşin da bildirir ki, Putinin səfərindən Pekinin narazı olduğuna dair heç bir əlamət müşahidə olunmur. Onun sözlərinə görə, Çinə yalnız Rusiyadan koordinasiya və məlumat lazımdır: "Düşünürəm ki, bunu Rusiyadan alıblar".

Amma Qərb belə düşünmür. ABŞ və müttəfiqləri əmindirlər ki, Rusiya–KXDR yaxınlaşması Qərbin maraqlarına ziddir. Təbii ki, hər bir tərəfin öz həqiqəti və arqumentləri var. Amma istənilən halda dünyanın daha təhlükəli qarşıdurmaya daxil olduğunu birmənalı şəkildə demək olar.

*S.ELAY*
*XQ*

# Gəncədə və Goranboyda güclü külək fəsadlar törədib

**Qərb bölgəsində müşahidə olunan qeyri-sabit hava şəraiti Gəncədə bir sıra fəsadlar törədib. Belə ki, əsən güclü külək nəticəsində şəhərin bir sıra ərazilərində iri gövdəli ağaclar aşıb, bəzi ağacların isə budaqları sınıb. Nəticədə bir neçə avtomobilə ziyan dəyib.**




Bununla yanaşı, Nizami Gəncəvi prospektində yerləşən obyektlərdən birinin dam örtüyü qoparaq yolun hərəkət hissəsinə düşüb. Bu da nəqliyyatın hərəkətində çətinliklər yaradıb. Güclü külək, eyni zamanda, bir neçə evin də dam örtüyünü dağıdıb. Şəhərin bəzi ərazilərində elekrik enerjisinin verilməsində fasilə yaranıb.

Qeyd edək ki, qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq Şəhər icra hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Fövqəladə Hallar Komissiyası gücləndirilmiş iş rejimində çalışır. Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun tapşırığına uyğun olaraq, Mənzil–Kommunal Təsərrüfatı İstehsalat Birliyinin əməkdaşları küləyin fəsadlarının aradan qaldırılması istiqamətində çalışırlar.

*

Güclü gülək səbəbindən Goranboy rayonunun 85 yaşayış məntəqəsi üzrə 22 min 514 abonentin elektrik enerjisi və rabitə ilə təchizatında fasilələr yaranmış, bir neçə fərdi yaşayış, bina evləri və yardımçı tikililərin dam örtüklərinə, şəxsi avtomobillərə ziyan dəymişdir. Bununla bağlı, rayon icra hakimiyyəti yanında Fövqəladə Hallar Komissiyası operativ olaraq ərazilərdə olmuş, baş vermiş fəsadların aradan qaldırılması istiqamətlərində, aidiyyəti xidmət sahələri ilə birgə, əməli tədbirlər görülmüşdür.



Hazırda elektrik enerjisi və rabitənin bərpası üzrə tədbirlər davam etdirilir.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti
tabeliyindəki idarələrə tələb olunan
oksigen qazının satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il iyulun 2-si saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki ntender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.
Ünvan: Bakı şəhəri, Mikayıl Hüseynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
öz gəmiləri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə
AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 27 iyun 2024-cü il saat 17.00-dəkdir.
Əlaqə telefonu- (012) 404-37-00, daxili:1016.
Ünvan-AZ1003, Bakı şəhəri, Mikayıl Hüseynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
öz gəmiləri üçün kompressorun satın alınması məqsədilə
AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 27 iyun 2024-cü il saat 17.00-dəkdir.
Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.
Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Hüseynov küçəsi 2.

Maraq dünyamız

# Əfqanıstan – imperiyaların məzarlığı

**Yəqin hamının yadındadır. Ötən iki-üç əsr başdan-başa güclü dövlətlərin və maraqlı siyasi mərkəzlərin Əfqanıstan uğrunda mübarizəsi ilə müşayiət olunub. Elə son yüzillikdə də həmin tendensiya davam edib. SSRİ "öz cənub sərhədlərinin qorunması" məqsədilə Əfqanıstanda mövcudluğunu sübut etməyə çalışırdısa, ABŞ bu müsəlman ölkəsinə "demokratiya gətirmək istəyini" deyirdi. Avrasiyanın başqa ölkələri də Moskva və Vaşinqton qədər olmasa da, Əfqanıstana maraq göstərirdilər və təbii ki, hərəsinin öz bəhanəsi var idi. Hətta, bu ölkəyə müdaxilə etmək üçün müxtəlif koalisiyalar da yaradılmışdı.**



Müxtəlif çeşidli bəhanələrə baxmayaraq, məqsəd aydın idi. Belə ki, bu dağlar diyarının az qala bütün ərazisi təbii sərvətlərlə zəngindir. Burada kömür, dəmir, mis, qurğuşun, sink, natrium, maqnezium sulfat, xrom, sulfid, asbest, mərmər və sair faydalı qazıntı yataqları mövcuddur. Elmi mərkəzlər sübut edirlər ki, Əfqanıstanda çox zəngin təbii qaz yataqları vardır. Ancaq əhalinin böyük əksəriyyəti əkinçilik və heyvandarlıqla – qoyun – keçi bəsləyib satmaqla məşğuldur. Yəni heç kəs bu "kasıb ölkə"yə seyrə çıxmaq üçün gəlmir, necə deyərlər, "qara qız"ların dərdi var.

Bildirilir ki, Əfqanıstanın coğrafi cəhətdən Mərkəzi Asiyada yerləşməsinə baxmayaraq, beynəlxalq aləmdəki məlum aktorlar onu Yaxın Şərq ölkəsi hesab edirlər. Şərqdə və cənubda Pakistan, qərbdə İran, şimalda Türkmənistan, Özbəkistan və Tacikistan, şimal-şərqdə isə Çin Xalq Respublikası ilə həmsərhəd olan Əfqanıstan dənizə çıxışı olmayan ölkədir.

Alimlərin fikrincə, bu ölkənin strateji mövqeyi tarix boyu Böyük ipək yolu boyunca Orta Şərq və Asiyanın digər bölgələri arasında mədəni əlaqələrin yaranmasında mühüm rol oynayıb. Bu ərazi daim bir çox hərbi yürüşlərə məruz qalmışdır. Bütün bu hərbi müdaxilələrə baxmayaraq, ölkə işğalçılara qarşı daim mübarizə aparmış və buna görə də "alınmaz qala" və "imperiyaların məzarlığı" kimi ad qazanmışdır.

Təəssüf ki, Əfqanıstan hazırda qeyri-sabit siyasi vəziyyətdədir. Əhalisinin sayı 35 milyon nəfərə çatır ki, bunun da əksər hissəsini etnik puştunlar, taciklər, həzaralar və özbəklər təşkil edir. Tarixçilərin fikrincə, ölkədə yeganə siyahıyaalma 1979-cu ildə – iyunun 5-dən iyulun 5-dək aparılıb. Ölkə çoxmillətli olsa da, çoxluğu (yəni əhalinin əlli faizdən çoxunu) təşkil edən xalq yoxdur.

Maraqlı faktlardan biri də odur ki, Əfqanıstan bu gün Pakistan, İran, Almaniya, Hindistan, Böyük Britaniya, Belçika, Lüksemburq və Çex Respublikası ilə ticari-iqtisadi əməkdaşlıq edir. Rəsmi Kabul həmin ölkələrə əkinçilik və heyvandarlıq məhsulları – xaşxaş, buğda, meyvələr, fındıq, yun, dəri satır. Bundan başqa xarici ölkələr Əfqanıstanın qiymətli daş-qaş və ləl-cəvahiratlarına da böyük maraq göstərirlər.

Yeri gəlmişkən, bu ölkənin pul vahidi Əfqanıstan əfqanisi – əhvədir. Bir Azərbaycan manatı 41 min 552 əhvəyə bərabərdir. Yəni imperialist ölkələrin maraqları böyük təbii sərvətlərə malik olan Əfqanıstanın iqtisadiyyatını bu günə qoyub.

Azərbaycanın da Əfqanıstanla qarşılıqlı hörmət və ehtirama əsaslanan dostluğu, tərəflərin hər ikisinin maraqlarına cavab verən səmərəli əməkdaşlığı mövcuddur. Ölkələrimiz eləcə də, BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq tribunalarda bir-birinin mövqelərini daim dəstəkləyirlər. Kabulda Azərbaycanın, Bakıda isə Əfqanıstanın səfirliyi fəaliyyət göstərir.

*İttifaq MİRZƏBƏYLİ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 128 (30532) 22 iyun 2024-cü il, şənbə

# Müşfiqin ruhunu incitməyək

## Böyük şairin Xızıdakı ev muzeyi biganəliyin qurbanına çevrilir

**...Səhərdir, bir saatdır ki, Bakıdan çıxıb Müşfiqin ata yurdu, Xızı rayonunda yerləşən Sayadlar kəndinə gedirik. Xızı dağları sanki asfalt yolu ağuşuna alaraq bizi mehribancasına müşayiət edir.**



Bir vaxtlar bu kənddə Müşfiqin atası, dövrünün tanınmış şairi Mirzə Əbdülqədir Vüsaqiyə məxsus su dəyirmanı olub. Təəssüf ki, həmin o dəyirman da, kəndin palçıqdan inşa edilən daxmaları da hələ ötən əsrin əvvəllərindən "qeybə çəkilib". Necə deyərlər, lələ köçüb, yurdu qalıb. Bu gün buranı yaddaşlardan əbədi silinməyə qoymayan isə yalnız bu elin-obanın şair oğlu Mikayıl Müşfiq və onunla bağlı unudulmaz kövrək, şirin xatirələrdir.

Budur, artıq çatmışıq. Əvvəlcə yolun sağ tərəfindəki uca təpələrdən birinin üzərində zövqlə hazırlanmış başıbəlalı musiqi alətimiz – tarın mozaik pannosu diqqətimizi cəlb edir. Üzərində sadəcə nümayişkaranə şəkildə cəmi bir söz həkk olunub – "Oxu!". Dərhal qəlbimizdən müşfiqanə bir nida qopur: "Oxu, tar!" Şeiri, o ağır dövrü də xatırlayıb həyəcanlanırıq. Müşfiqin milli qeyrəti, hünəri, cəsarəti qəlbimizi riqqətə gətirir!

Tarın abidəsi ilə üzbəüz yolun sol tərəfindəki hündür təpələrin üzərində isə sevimli şairin büstü və ev muzeyi yerləşir. Yol boyu bizi müşayiət edən çılpaq qayalardan fərqli olaraq, buradakı yamaclara xeyli ağac və bəzək kolları əkilib. Muzeyin əməkdaşları min bir zəhmət hesabına bu yaşıllıqları qorumağa çalışırlar.

Bələdçilər bizi çox səmimi qarşılayb dillənirlər: Müşfiq ocağına xoş gəlibsiniz! Onlar, əlbəttə, bizimlə birlikdə bura təşrif buyuran tanınmış müşfiqşünas alim-tədqiqatçı, filologiya elmləri üzrə fəlsəfə doktoru Firudin Qurbansoyu yaxşı tanıyırlar. Buranı tez-tez ziyarət edən bu dəyərli ziyalı hər dəfə olduğu kimi, bu dəfə də özü ilə Müşfiqlə bağlı xeyli kitab, broşür və qəzet nüsxələri hədiyyə gətirib. Onları bir-bir muzey işçilərinə izah edərək təhvil verir.










Müşfiqin ata ocağı sayılan bu yerdə onun qonağı olmaq son dərəcə qürurvericidir. Sanki ruhumuz təzələnir, sevinirik. Axı, o, hər birimizin ən ülvi duyğularını ən gözəl sözlərlə ifadə edən böyük sənətkardır! Allah ona böyük istedad verib, taleyi, bəxti isə gətirməyib, amma o boyda şər imperiyası qarşısında əyilməyib, sınmayıb. Müşfiqin şəxsiyyəti də, büllur kimi şaf şeiriyyəti də hər birimiz üçün əzizdir, doğmadır.

Azərbaycan xalqının Müşfiqə sevgisi sonsuzdur, əbədidir. Heç bir qüvvə bu məhəbbəti qəlbimizdən zərrə qədər azaltmaq gücündə deyil. Əksinə, zaman əbədi olaraq gənc şairin xeyrinə işləyir. Xalqımızın hər bir yeni nəsli Müşfiqin ecazkar poeziyasının sehrinə düşür. Bu, qeyri-adi, ilahi poeziyadır!

..."Xalq qəzeti"nin yaradıcı qrupu Müşfiq ocağına bir müddət əvvəl qəzetdə dərc olunan tənqidi yazı ilə bağlı burada görülən işlərlə yerindəcə tanış olmaq məqsədilə gəlib. Əslində, həmin yazının ortaya çıxmasının səbəbkarı Firudin müəllimdir. O, Müşfiqin ev muzeyinin bərbad vəziyyətə düşməsinə dözməmiş, redaksiyamıza müraciət ünvanlamışdı. Bu tənqidi qeydlər dərhal XQ-nin səhifələrində işıq üzü gördü.

Hörmətli oxuculara bir daha xatırladaq ki, ötən il avqustun 29-da muzeyin həyətindəki dərədən axan, adətən, az sulu Tuğ çayı o ərəfədəki bərk yağışlardan sonra bir anın içində kükrəyərək məcrasından çıxmış, muzeyin binasına və ətrafdakı infrastruktura böyük zərər vurmuşdur. Sel, hətta, çayın üstündəki dəmir körpünü xeyli kənara atmışdır.

Tənqidi yazı qəzetdə dərc olunandan sonra gözləmək olardı ki, muzeyin inzibati ərazisində yerləşdiyi Xızı Rayon İcra Hakimiyyətinin və Mədəniyyət Nazirliyinin rəhbərliyi bu məsələ ilə bağlı təcili tədbirlər görəcəklər. Lakin təəssüf ki, hər iki məsul qurum ümidlərimizi doğrultmadı.

Redaksiya əvvəlcə Xızı RİH başçısının imzası ilə cavab məktubu almışdır. Orada yazılır ki, obyekt Mədəniyyət Nazirliyinin balansındadır. Yəni hörmətli jurnalistlər, bizi narahat etməyin və daha vacib işlərimiz var.

Bu günlərdə isə Mədəniyyət Nazirliyindən cavab almışıq. Məktubda yalnız belə bir fakt qeyd olunur ki, guya, muzeyin həyətindəki körpü artıq



bərpa olunub. Dərhal qeyd edək ki, hər iki cavab başdansovdu yazılıb və reallığı qətiyyən əks etdirmir.

Düzdür, bir nəfər iş adamı Tuğ çayının üzərində müvəqqəti olaraq iki beton plitə saldırıb ki, muzeyə gələnlər heç olmasa çayın üzərindən təhlükəsiz şəkildə adlaya bilsinlər. Həmin şəxs, üstəlik, muzey ərazisinin bir hissəsini hasara da aldırıb. Məqsədi də odur ki, ətrafdakı mal-qara muzeyin ərazisindəki gül və ağaclara zərər vurmasın.

Mədəniyyət Nazirliyinin rəhbərliyi həmin iş adamının təmənnasız xidmətini öz ayağına yazmaqla, yəni mənimsəməklə, redaksiyanı və oxucuları aldatmağa çalışıb. Fikirləşiblər ki, heç kim bundan duyuq düşməyəcək. Bu, sözün həqiqətən bitdiyi yerdir! Məmurlar, ən azı, etik və mənəvi qaydaları pozublar.

Xatırladaq ki, Müşfiqin ev muzeyi 1988-ci ildə, şairin anadan olmasının 80 illiyi ərəfəsində inşa edilib. İstedadlı heykəltaraş Münəvər Rzayeva Müşfiqin tuncdan yonduğu büstünü hazırlayaraq bura təqdim edib. Muzeyin ətrafında daim yaşıl ağaclarla əhatə olunan söhbətgah qurulub, gül-çiçək əkilib, digər abadlıq işləri görülüb.

Müşfiqin xatirə muzeyi inşa ediləndən sonra xalqımızın bir çox görkəmli ziyalıları, o cümlədən Xalq yazıçısı, professor Gülhüseyn Hüseynoğlu, Xalq şairləri Nəbi Xəzri, Cabir Novruz, tanınmış jurnalist Firuz Əhmədli və digərləri o dönəmdə mədəniyyət naziri vəzifəsində çalışan Polad Bülbüloğludan bu obyektin nazirliyin balansına qəbul edilməsini xahiş ediblər. İnsafən, Polad müəllim bu təşəbbüsü dəstəkləyib və nazirin müvafiq əmri ilə bir neçə nəfər burada daimi işə götürülüb.

Təəssüf ki, zaman keçdikcə muzeyə diqqət və qayğı azalmağa başlayıb. Bir tərəfdən də muzeyin binası aşınmaya məruz qalıb və hazırda müasir tələblərə cavab vermir. Bura cəmi 53 kvadratmetrlik bir otaqdan ibarətdir. Əlavə otaqların tikilməsinə kəskin zərurət yaranıb. Təsəvvür edin ki, muzeyin eksponatları üçün kiçik saxlanc yeri belə yoxdur.

Muzeyin divarlarında bir çox yerdə çatlar əmələ gəlib. Dəfələrlə olub ki, ətrafdakı ilan-çayırlar həmin çatlardan içəri girərək, muzeyin işçiləri və ziyarətçilərin həyatı üçün təhlükə törədiblər. Soyuq qış-payız aylarında buranı odunla qızdırmalı olurlar. Muzeyin ərazisinə hələ də içməli su çəkilməyib. Burada heç telefon da yoxdur. Bu səbəbdən muzeyin internet saytını yaratmaq mümkün olmur. Halbuki indiki şəraitdə bu, çox vacibdir.

Yuxarıda qeyd etdiyimiz kimi, bütün bunlar azmış kimi, ötən ilin avqustunda Tuğ çayı daşaraq muzeyə və ətrafındakı infrastruktura ciddi ziyan vurub.

F.Qurbansoy dedi ki, adətən, sısqa axan Tuğ çayı hər 20–25 ildən bir böyük təlatümlə sellənir. Bu məqamda maraqlı bir faktı qeyd etmək yerinə düşür. Belə ki, "Ədəbiyyat qəzeti"nin 2 fevral 2001-ci il tarixli sayında Xalq şairi Nəbi Xəzri həmin hadisə ilə bağlı "Müşfiq evi" adlı şeirini dərc etdirib. Şeir belə bir qeydlə başlayır: "Payız vaxtı dağlar qoynunda Müşfiq evinə gedən körpünü sellərin uçurduğunu gördüm".

N.Xəzri həmin sel hadisəsindən təsirlənərək yazıbdır:

***"Əziz Müşfiqimi***
***Bu doğma dağdan***
***Dünən qanlı-qanlı əllər ayırdı.***
***Bu gün bura gələn dostdan, qonaqdan***
***Çağlayan dalğalar, sellər ayırdı.***
***Qumral saçlarını***
***Daradı külək,***
***Xoşbəxtlik gəzərkən dərd çəkdi burda".***

Biz şeirdən qısa bir parçanı təqdim etdik. Ürəyi dolu olan Firudun müəllim şeiri əvvəldən-axıradək əzbərdən söyləyib sonda dedi:

–İndikindən fərqli olaraq, Nəbi Xəzrinin bu həyəcan dolu misraları vaxtında ünvanına çatdı, "dəstə-dəstə el oğulları" körpünü yenidən qurdular. Amma bu dəfə üstündən 10 ay keçməsinə baxmayaraq nə körpünü yerinə qaytaran tapılır, nə də selin fəsadlarını aradan qaldırmaq üçün əncam çəkilən...

Haqlı sözə nə deyəsən? Əlbəttə, hörmətli ziyalımız tamamilə haqlıdır. Bu dəfə də Müşfiq muzeyinin taleyinə soyuq, ögey münasibət göz önündədir. Bu məsələnin həllinə məsul olan şəxslər isə heç nəyi veclərinə belə almırlar. Başa düşmürlər ki, nakam taleli Müşfiqin ruhunu incitmək olmaz!

Müşfiq yazırdı ki, "Kainat olduqca, şeir olacaq!" Düşünürük ki, XX əsr dünya poeziyasının ən gözəl nümunələrini yaradan bir şairin ruhunu incidənlər səhv edirlər. İnanmaq istərdik ki, səlahiyyətli şəxslər öz səhvlərini və günahlarını başa düşəcək, haqq yoluna qayıdacaqlar. Mövzuya yenidən qayıdacağıq!

***Kəmalə ABDİNOVA,***
***Məsaim ABDULLAYEV,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

İDMAN

## BRICS Oyunları: Güləşçilərimiz uğurla çıxış ediblər




**Rusiyanın Kazan şəhərində keçirilən BRICS Oyunlarında yunan-Roma güləşi üzrə qaliblər müəyyənləşib.**

Komandamızın üzvlərindən Arif Niftullayev (97 kq) çempion olub. Ziya Babaşovla (63 kq) Təvəkgül Həziyev (67 kq) ikinci, Tuncay Vəzirzadə (82 kq), Məhəmməd Əhmədiyev (87 kq) və Sərxan Məmmədov (130 kq) isə 3-cü yerləri tutublar.

Beləliklə, 1 qızıl, 2 gümüş, 3 bürünc medal qazanan millimiz 151 xalla komanda hesabında 3-cü nəticəni göstərib.

Qeyd edək ki, qadın güləşçilərimizdən Elnurə Məmmədova (53 kq) qızıl, Gültəkin Şirinova (55 kq) isə bürünc medal qazanıblar. Oyunlarda 6 medal qazanan sərbəst güləş üzrə millimiz isə komanda hesabında 2-ci olub.

## Pauerliftinqçimiz 7-ci dəfə Avropa çempionu olub



**Pauerliftinq üzrə Azərbaycan millisinin üzvü Zaur Cəfərov növbəti uğuruna imza atıb.**

Finlandiyanın Salo şəhərində AWPC/WPC versiyası üzrə keçirilmiş Avropa çempionatında təmsilçimiz AWPC versiyası üzrə "bench-press" hərəkətində 263 kiloqram nəticə ilə Avropa çempionatının qalibi olub. Bununla da, 7-ci Avropa çempionu titulunu qazanan idmançı, həmçinin yeni Avropa rekorduna imza atıb və yarışın mütləq çempionu adına layiq görülüb.

Bundan başqa, komandamızın üzvləri Seymur Quliyev, Razim Hüseynov, Əli Əsgərov, Samir Məmmədov və Elmir Tarverdiyev də qızıl medala sahib olublar. Yığmanın qadın üzvü Jalə Əzizova isə gümüş mükafatla kifayətlənib.

Bununla da, Azərbaycan millisi yarışı 6 qızıl və 1 gümüş medalla başa vurub. Yığma komanda hesabında 3-cü yeri tutub.

## Ağırlıqqaldırma komandasından növbəti uğur

**Yunanıstanın Saloniki şəhərində 15 və 17 yaşadək yeniyetmələr arasında keçirilən Avropa birinciliyində Azərbaycan komandası növbəti uğura imza atıb.**




Yaşı 15-ə qədər olan atletlər arasında 89 kiloqram çəki dərəcəsində gücünü sınayan Aslan Əmiraslanov 3 qızıl medal qazanıb. İdmançı birdən qaldırma hərəkətində 114 kiloqramı, təkanla qaldırmada isə 140 kiloqramı başı üzərinə qaldıraraq birinci yeri tutub. O, toplam 254 kiloqram (114+140) nəticə ilə yekun sıralamada da qızıl medala sahib çıxaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, 38 ölkədən 415 (198 qız + 217 oğlan) idmançının iştirak etdiyi yarışa iyunun 23-də yekun vurulacaq.

***L.QURBANOVA***
***XQ***

## Yağıntı və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 22-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var.**



Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 28-32° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntıların intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 30-34°, dağlarda gecə 11-16°, gündüz 18-23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kafedranın kollektivi ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru

**YUNİS YUSUBOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Asif Əsgərov Milli Məclisin deputatı Ülvi Quliyevə anası

**DİNA PƏNAHOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4070
SİFARİŞ 1385
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00